ISSN 0206-4340

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ



BAKI 2013

№ 04

Scanned with ACE Scanner

*ELMİ–METODİK JURNAL*

Təsisçi: Azərbaycan Respublikası Təhsil Nazirliyi

№ 4 (238). Oktyabr – Dekabr 2013-cü il. Jurnal 1954-cü ildən çıxır.

# MÜNDƏRİCAT

Azərbaycan müəllimlərinin XIV qurultayı haqqında məlumat ........ 2

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan müəllimlərinin XIV qurultayına təbriki ........ 3

Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarovun Azərbaycan müəllimlərinin XIV qurultayında məruzəsi ........ 4

Azərbaycan müəllimlərinin XIV qurultayının qətnaməsi ........ 16

**DİLÇİLİK VƏ ƏDƏBİYYATŞÜNASLIQ**

**T.Salamoğlu** – Sovet dövrü Azərbaycan ədəbiyyatının elmi-nəzəri və metodoloji aspektləri. (Yeni baxış) ........ 18

**ÜMUMTƏHSİL, ORTA İXTİSAS VƏ ALİ MƏKTƏBLƏR: TƏDRİS METODİKASI, İŞ TƏCRÜBƏSİ**

**B.Həsənli** – Ədəbiyyat dərslərində fəal/interaktiv metodlardan istifadə imkanları ........ 24

**F.Yusifov** – İcmal mövzularının tədrisində yeni texnologiyaların tətbiqi ........ 33

**S.Həsənova** – Qrammatikanın tədrisində qarşıya çıxan bəzi problemlər ........ 36

**İ.Əliyeva** – Ənvər Məmmədxanlının bədii dünyası ........ 41

**E.Əliyev** – M.Tvenin "Fərasətli oğlan" əsərinin təhlili ........ 47

**Ç.Muradlı** – İdrak fəallığını artıran oyunlar ədəbiyyat dərslərində ........ 50

**Ş.Aslanova** – Şagird bacarığının qiymətləndirilməsi şəxsiyyətyönümlülüyün əsas şərtlərindən biridir ........ 54

**R.Kərimova** – Bədii əsərinin məzmununun kurikulumunun tələbləri əsasında öyrədilməsi ........ 57

**Ə.Bədəlova** – Sinifdənxaric işlər təhsildə keyfiyyətin yüksəldilməsinin mühüm amili kimi ........ 60

**M.Əsədova** – Monoloji nitqin aspektləri ........ 65

**GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR**

**Q.Əmircanova** – Xalq yazıçısı İlyas Əfəndiyev haqqında düşüncələr ........ 68

**POLEMİKA**

**N.Qulamoğlu** – Funksional üslublar haqqında ........ 70

**UNUDULMAZLAR**

**O.Abbasov** – Yeri görünən Başir müəllim ........ 74

**XƏBƏR – SERVİS**

Ədəbi aləmdə ........ 77

Xarici ölkələrdə ........ 78

Yeni nəşrlər ........ 79

Scanned with ACE Scanner

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIV QURULTAYI HAQQINDA MƏLUMAT

Dekabrın 14-də Heydər Əliyev Mərkəzində Azərbaycan müəllimlərinin XIV qurultayı keçirilmişdir. Ölkənin bütün bölgələrindən nümayəndələrin seçildiyi qurultayda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Elçin Əfəndiyev, dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, elm xadimləri və təhsil ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Qurultay açıq elan edilmiş, Azərbaycan Dövlət Himni səslənmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Prezident İlham Əliyevin qurultaya təbrik məktubunu oxumuşdur.

Təhsil naziri Mikayıl Cabbarov hesabat məruzəsi ilə çıxış etmişdir.

Qurultayda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev muxtar respublikada təhsilin inkişafı istiqamətində aparılan işlər barədə məlumat vermişdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyev ölkəmizdə müəllimlərin istirahət və müalicə işlərinin təşkili, onların hüquqlarının qorunması istiqamətində görülən işlərdən danışmışdır.

Müəllimlərin dünyada gedən informasiya müharibəsinin ön cərgəsində olduqlarını bildirən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə həm orta, həm də ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi imkanlarından söz açmışdır.

Qurultayda çıxış edən Milli Məclisin deputatı Bəxtiyar Əliyev Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, ölkəmizdə təhsilin modernləşdirilməsi üçün kifayət qədər vəsait ayırdığını diqqətə çatdırmışdır. O bununla yanaşı, Azərbaycanda müəllim hazırlığı ilə bağlı bitkin modelin olmadığını, bu işin köklü şəkildə yenidən qurulmasının vacibliyini bildirmişdir.

Daha sonra ali təhsil ocaqlarının nümayəndələri, Bakı, İsmayıllı və Şuşa şəhər-rayon orta məktəblərinin direktor, müəllim və təhsil şöbələrinin müdirləri, lisey və texniki peşə məktəblərinin rəhbərləri çıxış edərək Azərbaycanda təhsil sisteminin uğurlarından, qarşıda duran vəzifələrdən danışmışlar.

Təhsil naziri Mikayıl Cabbarov demişdir ki, qurultayın ünvanına müxtəlif beynəlxalq təşkilatlardan, o cümlədən UNESCO-nun və İSESCO-nun baş direktorları İrina Bokova və Əbdüləziz bin Osman əl-Tüveycridən, Türkiyə, Gürcüstan və digər ölkələrin müvafiq nazirliklərindən təbrik məktubları gəlmişdir.

Sonda qurultayın qətnaməsi oxunmuş və qəbul olunmuşdur.



# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIV QURULTAYINA TƏBRİKİ

Hörmətli qurultay iştirakçıları!

Sizi və sizin simanızda bütün Azərbaycan müəllimlərini səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və xoşbəxtlik, fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Azərbaycan müəlliminin tarixən xalqımızın intellektual potensialının formalaşdırılmasında böyük xidmətləri vardır. Dilimizin, ədəbiyyatımızın, mətləniyyətimizin və mənəviyyatımızın keşiyində dayanan müəllim daim cəmiyyətimizdə hörmət və ehtiramla əhatə olunmuşdur. Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur. Təhsil sistemində həyata keçirilən bütün işlər, o cümlədən son on il ərzində 2700 məktəbin tikilməsi, təhsilin maliyyələşməsinin artırılması, idarə edilməsinin təkmilləşdirilməsi və digər islahatlar bütövlükdə təhsilimizin aparıcı qüvvəsi olan müəllimin mövqeyinin gücləndirilməsi üçün möhkəm zəmin yaradır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunmasından sonra onun keçirilməsi qurultayınızın Azərbaycan müəllimlərinin əvvəlki ali məclislərindən fərqləndirən mühüm hadisədir. Strategiya qarşıdakı dövr üçün milli təhsil sisteminin prioritet istiqamətlərini və başlıca məqsədlərini müəyyən edərək sizin qarşınızda xalqımızın gələcəyi naminə həyati əhəmiyyətli yeni vəzifələr qoyur. Onun tələbi sürətlə modernləşən ölkəmizdə təhsil sisteminin insan kapitalının inkişafına xidmət etməsinin, təhsilin keyfiyyət göstəricilərinin ən yüksək səviyyəyə çatdırılmasının və bütün pillələrində köklü dönüş yaradılmasının, həmçinin müəllimin səmərəli fəaliyyətinin dünya standartlarına uyğun təşkilinin təmin olunmasından ibarətdir.

Qurultayınızın ötən müddət ərzində görülən işləri obyektiv qiymətləndirəcəyinə, taleyüklü məsələlər ətrafında müzakirələri və qərarları ilə ölkənin təhsil sisteminin təkmilləşdirilməsinə öz layiqli töhfəsini verəcəyinə ümidvar olduğumu bildirir və hər birinizə uğurlar arzu edirəm. İnanıram ki, Azərbaycan müəllimi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, azərbaycançılıq məfkurəsinə sadiq və qloballaşan dünyada ölkəmizi layiqincə təmsil etməyə qadir vətəndaş yetişdirilməsində bundan sonra da var qüvvəsini əsirgəməyəcəkdir.

*Dərin hörmətlə,*

*Bakı şəhəri, 13 dekabr 2013-cü il.*



Scanned with ACE Scanner

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRİ MİKAYIL CABBAROVUN AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIV QURULTAYINDA MƏRUZƏSİ

Hörmətli qurultay iştirakçıları!
Əziz qonaqlar!
Xanımlar və cənablar!

Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından, ölkəmizin bütün təhsil işçiləri adından Sizi ürəkdən salamlayır, hörmət və ehtiramımı bildirir, ən xoş arzularımı yetirirəm.

Bu gün biz bu möhtəşəm Saraya – müasir Bakının rəmzlərindən birinə çevrilən və dahi Heydər Əliyevin adını daşıyan Mərkəzə Azərbaycan müəllimlərinin XIV qurultayına toplaşmışıq. Qurultayın keçirilməsi üçün müasir dünya memarlığının incisi sayılan bu məkanın seçilməsi müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyev şəxsiyyətinə Azərbaycan müəllimlərinin dərin hörmət və ehtiramının ifadəsidir. Öz quruluşu ilə zamanın davamlılığını, həyatın əbədiliyini təcəssüm etdirən, keçmişlə gələcəyin vəhdətini bildirən, ağ rəngdə olması ilə aydın gələcəyi simvolizə edən bu Mərkəzdə dünənimizdən bu günümüzə, bu günümüzdən sabahımıza bir mənəvi körpü rolunu oynayan təhsil sisteminin mövcud durumunu dəyərləndirməyə, qloballaşan dünyada təhsilimizin gələcək inkişaf yollarını, yeni strateji istiqamətləri və qarşıda duran başlıca hədəfləri birgə müzakirə edəcəyik.

Hörmətli qurultay iştirakçıları!

Düz 107 il bundan qabaq 1906-cı ildə Bakıda Həbib bəy Mahmudbəyovun rəhbərlik etdiyi rus-Azərbaycan məktəbində Azərbaycan müəllimlərinin I qurultayı keçirilmişdir. Qurultayın işində Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Firidun bəy Köçərli, Üzeyir bəy Hacıbəyli, Süleyman Sani Axundov kimi, o dövrün tanınmış maarifçi ziyalıları iştirak etmişlər. XX əsrin əvvəllərində maarifçilik ideyaları ətrafında birləşən bu böyük ziyalıların istiqlal mübarizəsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi.

Qısa ömür sürməsinə baxmayaraq, milli dövlətçilik ideyaları xalqımızın qəlbində möhkəm kök saldı, onu daim irəliyə, dövlətçiliyin əsaslarının qurulmasına istiqamətləndirdi. Bu tarixi missiyanı, yəni hər bir xalqın öz inkişafında arzulaya bildiyi ən yüksək və müqəddəs məqsəd - müstəqil dövlətin qurulması və onun ən çətin sınaqlardan keçərək möhkəm bünövrə üzərində bərqərar olunması missiyasını ulu öndərimiz Heydər Əliyev şərəflə yerinə yetirdi. Onun siyasətini layiqincə davam etdirən İlham Əliyev cənabları qısa müddət ərzində ölkəmizi inanılmaz şəkildə dəyişdirməyə nail oldu və dövlətimizi ən uca zirvələrə qaldırdı. Cənab Prezidentin andiçmə mərasimində söylədiyi - Azərbaycan öz tarixində heç vaxt bugünkü kimi güclü olmamışdır - sözlərini istənilən sahədə əyani olaraq görürük və hiss edirik.

İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə həyata keçirdiyi düşünülmüş və uzaqgörən daxili və xarici siyasət, iqtisadi sahədə aparılan məqsədyönlü və ardıcıl islahatlar müstəqil Azərbaycanı siyasi və iqtisadi baxımdan sabit, davamlı inkişaf



edən dövlət, beynəlxalq aləmdə etibarlı tərəfdaş, regionda lider ölkə kimi tanıtmışdır.

Ölkədə siyasi sabitlik və məqsədyönlü islahatlar prosesi misilsiz iqtisadi artımla müşayiət olunmuş, sosial həyatın hər bir sahəsində tərəqqiyə güclü təkan vermişdir.

Son 10 ildə aparılan sosialyönümlü islahatlar nəticəsində müasir tələblərə cavab verən infrastuktur layihələri həyata keçirilmiş, yüksək standartlara cavab verən təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri inşa edilib istifadəyə verilmişdir. Bu nailiyyətlər ölkədə sosial sferanın, o cümlədən təhsil sahəsində əsaslı islahatların aparılmasına təkan vermiş, onun davamlı inkişafına stimul yaratmışdır.

Lakin həyat yerində durmur, dünya hər gün dəyişir, inkişaf edir. Bu dəyişikliklərlə hər zaman ayaqlaşmaq, onlardan geri qalmamaq üçün üzərimizdə hər gün çalışmalı, böyük zəhmət hesabına qazandığımız nailiyyətlərin qorunub saxlanılmasını və geridönməzliyini təmin etməliyik.

Bu baxımdan, Azərbaycan Respublikasının Dövlət Bayrağındakı rənglərin daşıdığı məna və onların yuxarıdan aşağı yerləşmə ardıcıllığı ilə bu gün təhsil sistemimizin qarşısında duran əsas hədəflərin prioritetliyi arasında müəyyən bir paralelliyi müşahidə etmək olar: təhsil sisteminin yetişdirdiyi vətəndaş ilk növbədə öz köklərinə bağlı və milli mənsubiyyəti ilə fəxr edən vətənpərvər, dərin biliyə malik müasir baxışlı və mütərəqqi insan, öz xalqının adət-ənənələrinə və mənəvi dəyərlərinə sadiq bir şəxs olmalıdır.

Bu bir reallıqdır ki, müasir dövrdə ölkələrin inkişafı yalnız təhsil vasitəsilə əldə edilə bilər. Dünya təcrübəsi göstərir ki, istənilən dövlətin inkişaf səviyyəsini ölkənin təbii sərvətlərinin bolluğu deyil, bu sərvətlərin yüksək potensiala malik insan kapitalına çevrilməsi təmin edir.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük uzaqgörənliklə dediyi: **"Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkələrin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır"** - konseptual fikrinin əsasında da məhz həmin tələb, müasir təhsil sisteminin yetişəcəyi əsas strateji hədəf dayanır.

Ölkədə aparılan təhsil islahatlarına və təhsilin inkişafına öz layiqli töhfələrini vermiş Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın YUNESKO-ya üzv qəbul olunmasının 20 illiyi münasibətilə bu yaxınlarda Parisdə keçirilən mərasimdə söylədiyi: **"Son 20 ildə biz ölkəmizdə təhsil sisteminin inkişafına və müasirləşdirilməsinə xüsusi diqqət yetirmişik. Biz dərindən inanırıq ki, yalnız yüksək səviyyəli təhsilə malik olan ölkə uğurlar əldə edə və xalqı üçün daha yaxşı həyat keyfiyyətini təmin edə bilər"** - sözlərinin təməlində də yüksək intellektə malik insan kapitalının yetişdirilməsini təmin etmək üçün beynəlxalq standartlara uyğun müasir təhsil sisteminin qurulmasının vacibliyi ideyası durur. İnanırıq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə təhsil sistemində gerçəkləşdirilən irimiqyaslı layihələrin davamı olaraq YUNESKO və Azərbaycan



Scanned with ACE Scanner

hökumətı arasında bu il iyulun 18-də təhsil, elm, mədəniyyət və kommunikasiya sahəsində əməkdaşlığa dair Çərçivə Sazişinin imzalanması Azərbaycanda təhsil sahəsində aparılacaq islahat prosesində yeni mərhələnin başlanmasına güclü təkan verəcəkdir.

Bildiyiniz kimi, Azərbaycan iqtisadi sahədə keçid dövrünü başa vurduğundan ölkəmizin qarşıdakı illərdə sosial - iqtisadi və mədəni inkişaf yollarını müəyyənləşdirən **"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası** hazırlanmış və dövlət başçısının 29 dekabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. **Həmin tarixi sənəddə ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatı"na keçidin əsasının qoyulması, bunun üçün həlledici amil olan insan kapitalının adekvat inkişafının ön plana çəkilməsi nəzərdə tutulmuşdur. Bu, təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, ömür boyu təhsil kimi komponentlərin əhəmiyyətinin artırılmasına gətirib çıxarır. Eyni zamanda, İKT və virtual tədrisin, kompüter – şəbəkə biliklərinin rolunun artırılmasını nəzərdə tutur.** Başlıca strateji məqsədi davamlı iqtisadi artım və sosial rifah olan Konsepsiyada təhsildə keyfiyyətin yüksəldilməsi və müasir təhsil sisteminin qurulması da əsas strateji istiqamətlərdən biri kimi ön plana çəkilmişdir.

Hörmətli qurultay iştirakçıları!

Ölkəmizin İnkişaf Konsepsiyasından irəli gələrək dövlət başçısının yeni prezidentlik müddətində **ilk imzaladığı sənədlərdən biri "Azərbaycan təhsilinin inkişafı üzrə Dövlət Strategiyası" olmuşdur. Sənədin missiyası ölkəmizin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini yüksəltməkdən ibarətdir.** Strategiya təhsil sahəsində aparılacaq islahatların başlıca istiqamətlərini müəyyənləşdirir, Azərbaycan təhsilinin XXI əsrin çağırışlarına uyğun inkişaf üfüqlərini özündə ehtiva edir və təhsilin bütün pillələrində keyfiyyətcə yeni mərhələyə başlamağı - "qara qızılı insan qızılına çevirək" fəlsəfəsini qarşımıza əsas vəzifə kimi qoyur.

Bu sənəd təhsil ilə bağlı olan bütün subyektləri və fəaliyyət sahələrini əhatə edir. Bu əhatəlilik həmçinin Azərbaycanın gələcək inkişafının davamlı xarakter alması üçün peşəkar bilik və bacarıqlara yiyələnən və rəqabətədavamlı insan resurslarının yetişdirilməsi missiyasına xidmət edir, Azərbaycan təhsilinin yeni keyfiyyət mərhələsinə keçidi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutur. Dövlət Strategiyasında təhsilin keyfiyyətinin yaxşılaşdırılması, təhsili idarəetmə sisteminin yenidən qurulması, kadr hazırlığının gücləndirilməsi, müəllim peşəsinin nüfuzunun artırılması, müəllimin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması, müasir təfəkkürlü Azərbaycan vətəndaşının yetişdirilməsi əsas hədəflər kimi götürülür.

Düşünürəm ki, Strategiyanın reallaşdırılması təhsilin məzmununun mənimsənilməsini təmin edən səriştəli təhsilverənlərin formalaşdırılmasına, təhsildə nəticələrə görə cavabdeh, şəffaf, səmərəli tənzimləmə və idarəetmə mexanizmlərinin, müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasına zəmin yaradacaqdır. Bu sənəd, həmçinin, ölkəmizin modernləşməsi üçün zəruri olan insan kapitalının inkişaf etdirilməsinə, təhsil infrastrukturunun Azərbaycanın perspektiv inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verəcək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın və informasiya cəmiyyətinin təşəkkülünü, davamlı inkişafını təmin edəcəkdir. Bu sənəddə biz bilik cəmiyyətinin, kreativ təhsil düşüncəsinin, hədəfləri ölçülə bilən



fəaliyyət çərçivəsinin və yeni təhsil fəlsəfəsinin ana xətlərini görə bilərik. Burada əsas ehtiva olunan dəyər odur ki, təhsil dövlət siyasətimizin əsas prioritetinə çevrilir. Bu baxımdan Təhsil Nazirliyi Strategiyanın icrası istiqamətində bütün maraqlı tərəflərlə, hədəf qrupları ilə faydalı əməkdaşlıq əlaqələri yaratmaq niyyətindədir. Strategiyada nəzərdə tutulan hədəflərə nail olunması prosesində birgə iş aparılmalı və problemlərin həlli yolları birgə araşdırılmalıdır.

Strategiyanı reallaşdıran əsas vasitə kimi "Açıq təhsil" modelinin qurulması və tətbiqi nəzərdə tutulur. Bu model aşağıdakı konseptual yanaşmalar üzərində qurulacaq:

- **Məzmunda** - dərs və dərsdənkənar fəaliyyətin inteqrasiyası təmin ediləcək;
- **Müəllim** - təhsil prosesinin istiqamətləndiricisi və koordinatoru rolunu oynayacaq;
- **Əlyetərlilik** - hamıya ömürboyu təhsil almaq üçün imkanlar və zəruri infrastruktur yaradılacaq;
- **İdarəetmədə** - tənzimləmə və əməliyyat funksiyaları bir-birindən ayrılacaq, idarəetməyə onun nəticələrində maraqlı olan bütün tərəflər cəlb olunacaq və ən əsası nəticələrə görə cavabdehlik prinsipi işə salınacaq;
- **Maliyyələşdirmədə** - maliyyələşdirmənin dayanıqlı və adekvat olmasını təmin edən səmərəli və nəticəyönlü yeni model qurulacaq;
- **İnfrastrukturda** - elektron təhsil üçün geniş imkanlar yaradılacaqdır.

Strategiyanın birinci istiqaməti səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasını və təhsilin bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir. Tədris proqramı vaxtaşırı yenilənməli olan bir sistemdir. Bu, xüsusilə də, sürətlə dəyişən bir dünyada daha da mühümdür. Məktəb proqramları şagirdlərimizə elmlərin əsasını dərindən öyrənməyə və məktəbdə aldıqları bilikləri həyatda işlətməyə kömək etməlidir. Təhsilin məzmunu uşaqlarımızda dərrakəni inkişaf etdirməyə, hadisələrin səbəblərini dərk etməyə və düzgün qərar qəbul etmək bacarıqları aşılamağa xidmət etməlidir. Müasir dünyanın tələbi olaraq, gənc yaşlarından başlayaraq qrup tapşırıqlarının verilməsinə də xüsusi yer ayrılmalıdır.

Xüsusi diqqət xarici dillərin və dəqiq elmlərin tədrisinə də verilməli, bu fənlərə ayrılan saatlar artırılmalıdır. İbtidai təhsil səviyyəsində məntiqli düşüncə, ümumi savad və həyatı vərdişlərin öyrədilməsi əsas xətt kimi qoyulmalı, ana dilinin və riyaziyyatın tədrisinə böyük önəm verilməlidir. Fənn kurikulumlarının mahiyyətinin valideynlər tərəfindən mənimsənilməsi üçün maarifləndirmə işinin gücləndirilməsi də böyük əhəmiyyət kəsb edir.

Növbəti tədris ilində artıq təhsilalanların həftəlik və gündəlik dərs yükünü azaltmaqla paralel olaraq tədris ilinin müddətinin artırılması istiqamətində addımlar atılacaqdır. Bunun həyata keçirilməsində əsas məqsəd 32 həftəlik tədris ili və 5 günlük iş rejimi şəraitində şagirdlərin həddən artıq yüklənməsinin qarşısını almaq, 3 ay yarım tədrisdən ayrılmasının onların akademik davamiyyətinə mənfi təsirini azaltmaq, şagirdlərin sağlamlığının qorunmasını təmin etmək, ən başlıcası isə tədris prosesinin optimallaşdırılmasını və səmərəli təşkilini təmin etməkdən ibarətdir.

Həmçinin, yuxarı siniflərdə məcburi və seçmə fənlər modelinin tətbiqi nəzərdə tutulur. Bu modelin yuxarı siniflərdə tətbiqi şagirdlərin meyl və



Scanned with ACE Scanner

maraqlarının nəzərə alınmasına və ali məktəbə hazırlaşmağa kömək etmək məqsədi güdür.

Təmayüllü məktəb və siniflərin yaradılması istiqamətində işlərin daha da genişləndirilməsi nəzərdə tutulur, şagird və valideynlərə tam orta təhsil səviyyəsində - təmayülləşmə və ya ümumi təhsil proqramı çərçivəsində qalmağa seçim imkanı yaradılacaqdır.

12 illik ümumi təhsilə keçid kurikulumların yenilənməsinə və tam orta təhsil səviyyəsində təlimin profilləşməsinə təkan verəcəkdir; təmayüllü məktəb və siniflər şəbəkəsi uşaqların gələcək əmək fəaliyyətinin sahəsinin seçilməsinə kömək göstərəcəkdir.

Eyni zamanda, biz pedaqoji təlimi təhsilin ikinci əsas funksiyasından - tərbiyədən ayırmamalıyıq, uşaqlarımızı erkən yaşdan düzgün - saf və təmiz tərbiyələndirməliyik. Birinci sinifdən şagirdlərdə mərdlik, məsuliyyət, yoldaşlıq, Vətənə məhəbbət, millətə, xalqa bağlılıq kimi keyfiyyətlər aşılanmalıdır. Şagirdlərin mənəvi aləmi bu keyfiyyətlər üstündə qurulduğu zaman müəllim bir tərbiyəçi kimi öz məqsədinə çatmış hesab oluna bilər. Uşaqların tərbiyəsinə onların böyüdüyü mühitin, ətrafdakı insanların və xüsusilə ailənin böyük təsiri vardır. Ona görə də təhsilin məzmunu onların bir cəmiyyətdə, bir-birinə qarşılıqlı hörmət və dəstək formasında inteqrasiya edilməsinə yardım etməli, məktəbin "sosial lift" funksiyasını yerinə yetirməyə sövq etməlidir. Məktəbdə uşaqlar yalnız biliyinə görə fərqləndirilməlidir. Şagirdlərin marağının artırılması və dünyagörüşünün inkişafını təmin etmək məqsədilə məktəbdənkənar müəssisələrinin işi də mütləq yaxşılaşdırılmalıdır. Bu sahədə olan vəziyyət bizi qətiyyən qane etmir.

Təhsilin məzmununun təkmilləşdirilməsindən söhbət getdikdə **dərslik mövzusuna** toxunmamaq olmaz. Əvvəlki illərdə də olduğu kimi, indi də yaxşı dərs vəsaitlərinə və metodik ədəbiyyata böyük ehtiyacımız vardır. Təhsilin səviyyəsi xeyli dərəcədə bunların keyfiyyətindən və məzmunundan asılıdır. Problemi həll etmək üçün onun kökünə varmaq lazım gəlir. **Kökü isə müəllifdir, daha doğrusu müəlliflərin az olmasıdır.** Təhsil Strategiyasında kurikuluma əsaslanan yeni dərsliklərin yaradılmasına, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunmasına böyük diqqət ayrılır. Eyni zamanda, müasir tələblər təhsilverənlər qarşısında təkcə dərsliyin məzmununu təhsilalanlar tərəfindən mənimsəməyi deyil, həmçinin və bəlkə də daha vacib - lazimi bilikləri necə və haradan əldə etmək yollarını onlara öyrətməyi tələb edir. Ona görə də dərsliklərlə yanaşı təfəkkürün və şəxsiyyətin inkişafına yönəlmiş yeni kurikulum və informasiya-kommunikasiya texnologiyaları əsasında təhsilverənlər üçün təlim metodologiyaları, metodiki vəsaitlər, didaktik materiallar və digər təlim vasitələrinin hazırlanmasını stimullaşdıran mexanizmlər də yaradılmalıdır.

Tərəfimizdən dərsliklərin keyfiyyətini yüksəltmək məqsədi ilə dərslik müəlliflərinə kurikulumun tələblərinin dərindən öyrədilməsinin təşkili nəzərdə tutulmuşdur. Bu işin əsas məqsədi kurikulumun əsas tələblərinin, standart və alt-standartların dərsliyin məzmununa çevrilməsi yollarının öyrədilməsi və dərsliklərin qiymətləndirilməsi meyarlarının izah edilməsindən ibarətdir.

İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir.



**Heç bir təhsil sisteminin gücü onun tərkibində fəaliyyət göstərən müəllimlərin gücündən üstün ola bilməz.** Təhsildə olan qüsurların əsas səbəblərindən biri pedaqoji heyətin xeyli hissəsinin hələ də kifayət qədər ixtisaslı olmamasından irəli gəlir. Son 20 ildə, ildən-ilə artan templə məktəblərə çoxlu sayda yeni, təcrübəsiz və bəzi hallarda kifayət qədər pedaqoji təhsili olmayan təhsilverənlər gəlmişdir. Hətta onların arasında saxta diplomlarla işləyənlərə də rast gəlinir. Bir tərəfdən, bunun kökü müəllim peşəsinin çətin və ağır olması ilə yanaşı, azmaaşlı olduğundan cəmiyyətdə öz cəlbediciliyini itirməsi və nəticədə savadlı gənclərin özləri üçün daha perspektivli peşələri seçmələri olmuşdursa, digər tərəfdən ali təhsil müəssisələrinə mövcud qəbul qaydaları müəllim peşəsi üçün ən aşağı bal ilə qəbul olunmaq imkanı yaratdığından çox aşağı bilik səviyyəli insanların bu ixtisasa axınını stimullaşdırmışdır.

Hazırda müəllim hazırlığı sistemində paradoksal vəziyyət yaranmışdır. Təkcə ali təhsil müəssisələrinin hazırladığı pedaqoji kadrların sayı onlara olan real tələbatı 3 dəfə üstələyir. Bunun üstünə kollecləri də əlavə etsək sistemin nə qədər qeyri-səmərəli çalışdığını aydın görə bilərik. Ona görə də mövcud vəziyyəti dözülməz hesab edirik; pedaqoji kadr hazırlığı məsələlərinə xüsusi diqqət ayrılmasını, bu sahədə nəticələri davamlı olaraq aşağı olan təhsil müəssisələrinin fəaliyyətinin dayandırılmasını vacib sayırıq.

Müəllim peşəsinin ictimai nüfuzunun artırılması, onun yüksək maddi və mənəvi motivasiyası, pedaqoji təhsilə istedadlı gənclərin cəlb olunması - bunlar islahatların uğurla həyata keçirilməsi üçün ən vacib amillərdir. Müəllim peşəsinə istedadlı gənclərin cəlb edilməsi məqsədi ilə dövlət sifarişinin imkanlarından səmərəli istifadə olunmalı, tələbəlik dövründən başlayaraq maddi stimullaşdırma mexanizmləri işə salınmalıdır.

Təhsil sisteminin keyfiyyət göstəricilərinin kəskin yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə biz mövcud müəllim korpusunun təkmilləşdirilməsi ilə eyni vaxtda bu gün müəllim kimi fəaliyyət göstərməyən, lakin müvafiq bilik və səriştəyə malik olan peşəkarların və elm mütəxəssislərinin təhsil sektoruna cəlb edilməsinə nail olmalıyıq. Bu məqsədlə Təhsil Nazirliyi onlar üçün pedaqoji hazırlıq kursları təşkil etməyə hazırdır.

Müəllim hazırlığında başlıca strategiya fənn biliklərinin mənimsənilməsindən daha çox tələbələrin peşəuyarlığına, pedaqoji ustalığın inkişafına, zəruri kompetensiyaların formalaşdırılmasına, müasir təlim metodlarının mənimsənilməsinə yönəldilməlidir.

Təhsilin keyfiyyətini yüksəltmək üçün pedaqoji-metodiki bacarıqları, fənn üzrə bilikləri artırmaq, innovativ təlim metodologiyasının və resursların mənimsənilməsi üçün hər bir müəllimi ixtisasartırma tədbirlərinə cəlb etmək lazımdır.

Paralel olaraq müəllimlərin peşəkarlıq səviyyəsinin könüllü əsaslarla yoxlanılması nəzərdə tutulur. Keçiriləcək könüllü attestasiya nəticəsində uğur əldə edən müəllimlərə aldıqları dərəcələrə görə differensialaşdırılmış əmək haqqının verilməsi təmin ediləcək, attestasiyadan keçməyən müəllimlər üçün isə təlimlər təşkil ediləcək, növbəti attestasiyaya hazırlaşmaq üçün imkan yaradılacaqdır.

Müəllimin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması üçün müvafiq addımlar atılacaq, pedaqoji fəaliyyətinin qiymətləndirilməsindən sonra onun maddi motivasiya və vəzifə yüksəlişinin təmin olunması üzərində işləmək lazım gələcəkdir.



Scanned with ACE Scanner

Üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Müasir təhsili idarəetmə strukturunda tənzimləmə və əməliyyat funksiyaları ayrılmalı, akkreditasiya, sertifikatlaşdırma və peşə təhsili üzrə yeni idarəetmə strukturları yaradılmalı, təhsil müəssisələrinin sayı və növləri rasionallaşdırılmalı, pillələr və səviyyələr üzrə təhsilin strukturu təkmilləşdirilməlidir.

Bu istiqamət üzrə ilk addımımız hazırkı məktəb direktorları və məktəb direktoru olmaq arzusunda olan digər şəxslər üçün müasir peşə standartları əsasında təlimlərin təşkili olacaqdır. Təlimi uğurla bitirən və imtahanda yüksək nəticə göstərib keyfiyyət sertifikatı almış şəxslər məktəb direktoru təyin olunacaqlar. Bu kateqoriyadan olan məktəb direktorlarının əmək haqqına əlavələr təyin ediləcəkdir. Nəticə etibarilə müasir idarəetmə, hesabatlılıq və məsuliyyətin bölüşdürülməsi prinsiplərinin tətbiq edilməsi yolu ilə məktəblərin idarə edilməsində şəffaflığın və aşkarlığın artırılmasını təmin etmiş olacağıq.

Tənzimləmə və idarəetmə funksiyalarını həyata keçirən dövlət qurumlarının səlahiyyət və məsuliyyət dairələrinin yenidən müəyyənləşdirilməsinə ehtiyac duyulur. Hesab edirik ki, yerli qurumlar passiv müşahidəçi rolundan idarəetmə funksiyalarını tam olaraq öz əllərinə almalı, məktəblərdəki vəziyyətlə, kadrların yerləşdirilməsi, tədris prosesi ilə gündəlik maraqlanmalı, lazımi dəstək göstərməlidirlər. Təhsil müəssisələrinin idarə olunmasına ilk növbədə məsuliyyəti dərketmə prizmasından yanaşılmalı, bu prosesə yalnız və yalnız müəssisənin fəaliyyətinin obyektiv parametrlərə uyğunluğu təsdiqləndikdən sonra başlanılmalıdır.

**Ali təhsil müəssisələrinin idarəolunmaının mütərəqqi prinsiplərinə əsaslanan, iqtisadi cəhətdən səmərəli və akademik göstəricilərin yüksək olmasını təmin edən yeni tələblər üzərində qurulmasının vaxtı artıq gəlib çatmışdır.** Bugünkü gündə universitetlərimizin elmi kadr, zəngin təcrübə və maddi bazasının potensialından ali təhsildən kənarda, demək olar ki, istifadə olunmur. Diqqət yalnız qəbula yönəlmiş, gəlir mənbəyi kimi yalnız tələbələrin təhsil haqqı əsas götürülür. Halbuki, dünyanın ən reytinqli təhsil ocaqlarında təhsil haqqı onların büdcəsinin heç dörddə birini təşkil etmir.

Qəbuldan söhbət düşdüyü üçün Strategiyada bununla bağlı ali və orta ixtisas təhsili müəssisələrinə qəbul və yerləşdirmə mexanizminin təkmilləşdirilməsi, dövlət və özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul planının ləğv edilməsi və dövlət sifarişinin yalnız ixtisaslar üzrə müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Bizim bu məsələyə yanaşmamız ondan irəli gəlir ki, keyfiyyətli təhsil vermək imkanlarına, maddi-texniki şəraitinə, elmi-pedaqoji heyətin potensialına görə bütün ali təhsil ocaqları, istər dövlət, istər özəl iki qrupa bölünməli - milli statuslu universitetlər və adi universitetlər. Dövlət sifarişi yalnız milli statuslu universitetlər arasında bölüşdürülməli, eyni zamanda, bura qəbul olunmaq istəyən abituriyentlər üçün keçid balı yüksək olmalıdır. Adi universitetlərin keçid balı minimal səviyyədə saxlanılmalı, eyni zamanda, ödənişli təhsil üzrə qəbul planı tədricən ləğv edilməlidir. Bu, baş verdikdə, biz yüksək reytinqə və yaxşı təhsil vermək imkanlarına malik ali məktəblərimizi orada oxumağa layiq olan, bilikli tələbə kontingenti ilə təmin edə biləcəyik. Digər tərəfdən, tələb olunan bal toplamadığı üçün xaricə üz tutmağa ehtiyac qalmayacaq, ali təhsil almaq istəyən və minimal tələblərə cavab verən hər bir şəxs təhsilini vətənində adi universitetlərdə davam etdirmək imkanı qazanacaqdır.



Fəaliyyət göstəricilərindən asılı olaraq, ali təhsil müəssisələri bir kateqoriyadan digərinə keçə biləcəklər.

Məlum faktdır ki, bugünkü dünya rəqabət dünyasıdır. Bizim uşaqlarımızın gələcək rəqibləri hal-hazırda Çində, ABŞ-da, Çilidə və istənilən digər ölkədə böyüyür. Bu o deməkdir ki, bizim təhsil sistemimiz çevik və ömürboyu öyrənmə imkanına malik kadrları formalaşdırmağı bacarmalıdır. Digər tərəfdən, maddi dəyəri olan hər bir şey uğrunda kəskin mübarizə getdiyi kimi, dünyanın lider ölkələri arasında beyin, zəka uğrunda da ciddi mübarizə gedir. Belə ki, inkişaf etmiş ölkələr öz iqtisadi qüdrətini daha da artırmaq üçün digər ölkələrdən yüksək təhsilli və ixtisaslı peşəkarların mühacirətini fəal surətdə təbliğ edir, bu məqsədlə həm birbaşa proqramlarından istifadə edir, həm də tanınmış universitetləri və transmilli korporasiyaları buna təşviq edirlər. Bizin regiondan söhbət açarkən, cəmi 2 gün bundan öncə Rusiya Federasiyasının Prezidenti Federal Məclisə ünvanladığı illik müraciətində MDB ölkələrindən olan istedadlı gənclərin Rusiyanın ali təhsil müəssisələrinə qəbulunun asanlaşdırılması barədə tapşırıq vermişdir. Bu tendensiyalar ildən-ilə daha da artacaqdır. Belə vəziyyət yaxşı təhsilalanların vətənində öz potensialını tam realizə etməsi və bununla ölkənin sosial-iqtisadi inkişafına töhfə verə bilməsini təmin edən təhsil sisteminin və təhsil mühitinin yaradılması kimi yeni vəzifəni bizim qarşımızda qoyur. Ona görə də uşaqlarımızın, gənclərimizin yüksək intellektə malik hissəsi ölkəmizin gələcək elitası kimi xüsusi qayğı ilə əhatə olunmalıdır.

**Növbəti tədris ilindən başlayaraq ali təhsil müəssisələri üzrə "SABAH" qruplarının, yəni savadlı, bacarıqlı və hazırlıqlı tələbələrdən ibarət qrupların təşkili üçün seçiminin aparılması nəzərdə tutulur.** Bu yeniliyin məqsədi xüsusi istedadı ilə seçilən və təhsildə göstəriciləri ilə fərqlənən tələbələrə yüksək keyfiyyətli təhsil almaq üçün əlverişli şəraitinin yaradılmasından ibarətdir.

Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir.

Bunların arasında təhsil müəssisələrinin şəbəkəsinin rasionallaşdırılması üzərində ayrıca dayanmaq istərdim. Ali təhsil müəssisələrinin iriləşdirilməsi, bir universitetdə tələbə kontingentinin azı 10 - 15 minə çatdırılması təmin olunmalıdır. Rasionallaşdırma tədbirləri eyni zamanda ümumi təhsil pilləsində həyata keçirilməli, müəllim-şagird nisbəti tədricən iki dəfəyədək artırılmalı, məktəb müəllimlərinin həftəlik dərs yükü hazırkı 12 saatdan 18 saata qaldırılmalıdır.

Biz resurslarımızı səpələmək hesabına deyil, əksinə onları güclü mərkəzlərdə toplamaqla qısa müddət çərçivəsində yaxşı nəticələr əldə edə bilərik.

Erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatə səviyyəsi əhəmiyyətli dərəcədə artırılmalı və yekunda 90 faiz səviyyəsinə çatmalıdır. Bunun üçün böyük maliyyə və pedaqoji resurslar təminatı məsələsi həll olunmalıdır. Bir növbəli və 5 günlük rejimdə fəaliyyət göstərən ümumtəhsil məktəb şəbəkəsinin yaradılması üçün



Scanned with ACE Scanner

peşəkarlıq kompetensiyalarının daha yüksək olması müsabiqənin əsas meyarı kimi götürülmüşdür.

Eyni zamanda onu da vurğulamaq istərdim ki, bu il müsabiqədən keçmiş 244 nəfər iş yerinə getməkdən imtina etmişdir. İmtina edən müəllimlərin ən çoxu rayonların ucqar ərazilərində yerləşən məktəblərin payına düşür. İş yerinə getməyənlərin 82 faizi qadınlardır. Nazirliyin apardığı sorğuya əsasən imtinaların əsas səbəbləri iş yerinin rayon mərkəzindən xeyli uzaq olması, normal yaşayış şəraitinin təmin edilməməsi, həvəsləndirmə üçün verilən vəsaitin azlığı göstərilir. Hesab edirik ki, müəllim çatışmazlığı olan kəndlərdə müəllimlər üçün yaşayış şəraitinin təmin olunması, xüsusi ipoteka rejiminin tətbiqi və digər müasir mexanizmlər təklif olunmalıdır.

Növbəti yenilik - dərs ilinin başlanmasına qədər 6 yaşı tamam olmamış xüsusi istedadı ilə seçilən uşaqların vaxtından əvvəl məktəbə qəbul üzrə yeni qaydaların qəbulu olmuşdur. Yeni qaydalara uyğun yaradılmış komissiyaların fəaliyyəti nəticəsində 8 min 846 nəfər uşaq bu il vaxtından əvvəl birinci sinfə qəbul olunmuşdur.

Təhsil Nazirliyi tərəfindən bu il, həmçinin, ilk peşə-ixtisas təhsili müəssisələrinin infrastrukturunun inkişafına yönəlmiş və dövlət-biznes partnyorluğuna əsaslanan sosial xarakterli Müasir Azərbaycan Peşəkarları Layihəsinin icrasına başlanılmışdır. Layihə peşə təhsili sisteminin əhatə dairəsinin genişləndirilməsinə və kadr hazırlığı prosesinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu layihə çərçivəsində müxtəlif dövlət və özəl, o cümlədən xarici tərəfdaşlarla əməkdaşlıq quraraq bir sıra peşə məktəbinin bazasında müasir resurs mərkəzləri yaradılmışdır.

Uğurlarımız arasında “2007- 2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsilinə dair Dövlət Proqramı” üzrə layiqli namizədlərin seçilməsi prosesini qeyd etmək istərdim. Proqramın icra olunduğu 6 il ərzində ilk dəfə namizədlərlə tam şəffaf şəkildə təhsil alacaqları dildə ali təhsil müəssisələrinin, nazirliklərin, qeyri-hökumət təşkilatlarının əməkdaşlarından ibarət tərkibdə komissiyalar müsahibələr aparmış və obyektiv seçim etmişlər. Bu il əvvəlki illərlə müqayisədə sayca ən çox tələbə - 787 nəfər aparıcı xarici ali məktəblərdə təhsil almaq hüququ qazanmışdır.

Cari ildə təhsil sistemində dərin kök salmış neqativ hallarla mübarizə gücləndirilmişdir. Nazirliyin mərkəzi aparatında aparılmış struktur dəyişiklikləri nəticəsində daxili nəzarət şöbəsi yaradılmış və daxil olan siqnalların birbaşa həmin şöbədə araşdırılması təmin olunmuşdur. Edilən xəbərdarlıqlara baxmayaraq, son 6 ayda ciddi nöqsanlara yol vermiş 15 təhsil müəssisəsinin rəhbəri vəzifəsindən azad edilmiş, 21 şəxs barəsində digər intizam tənbehi görülmüşdür. İki hal üzrə toplanmış materiallar araşdırılmaq üçün hüquq-mühafizə orqanlarına göndərilmişdir. Bundan irəli gələrək bildirirəm ki, məktəblərdə baş verən mənfi hallara qarşı Təhsil Nazirliyinin mövqeyi barışmaz olacaq, təhsil sistemində mövcud olan neqativ hallarla mübarizədə sistemli yanaşma tətbiq ediləcəkdir.

Məktəb elə bir məkandır ki, burada biz uşaqlarımızın gələcəyinin əsaslarını qoyuruq. Məktəblərdə hökm sürən psixoloji mühit övladlarımızın həyat yoluna, mənəvi dəyərlərinə və əqidələrinə, milli identifikasiyasına və vətəndaşlıq hisslərinə bilavasitə təsir edir. Uşaq məktəbdə necə formalaşacaqsa elə də vətəndaş olacaq. Burada bumeranq prinsipi hökm sürür - hansı keyfiyyətlərə malik insanı biz məktəbdən buraxırıqsa, bir müddət sonra o, artıq öz keyfiyyətlərini inkişaf etdirmiş durumda qarşımıza çıxır. Bilikli, tərbiyəli uşaq hazırlayırıqsa - bir neçə ildən sonra



qarşımızda savadlı, peşəkar və vətənini sevən gənci gördükdə onunla və haqlı olaraq özümüzlə fəxr edirik. Ya da, əksinə, bisavad, mədəniyyətsiz və pis vərdişli şəxs məktəbdən buraxılırsa - bu adamın gələcəyi olmadığı üçün pis yola düşəndə, cinayətkar olaraq qarşımızı kəsəndə, onda yalnız özümüzü günahlandırmalı oluruq.

Müəllim peşəsinə ən şərəfli peşə adı ona görə verilib ki, ölkənin və cəmiyyətin gələcəyi dövlətin başçısından və ya hökumətdən daha çox Sizdən, müəllimlərdən asılıdır. Dövlətin əsası xalqdır, insanlardır, onların isə tam əksəriyyətinin həyatlarında keçdiyi yeganə sosial institut isə məktəbdir. Məktəblərimiz nə qədər keyfiyyətli təhsil, müəllimlərimiz isə nə qədər yaxşı tərbiyə verə biləcəklərsə, o qədər də cəmiyyətimiz və dövlətimiz güclü olacaq və daha da inkişaf edəcəkdir.

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Tarixi reallıq belədir ki, Azərbaycan son on ildə iqtisadi inkişaf sürətinə görə regionda lider ölkəyə çevrilmiş, dövlətimizin iqtisadi qüdrəti möhkəmlənmiş, dünyada siyasi nüfuzu artmış, ölkə daxilində bütün sahələrdə sabitlik tam bərqərar olmuşdur.

Hesab edirəm ki, bu inkişafın davamlı və dayanıqlı olması, xalqımızın xoşbəxt gələcəyi, dövlətimizin daha da möhkəmlənməsi, regionda lider dövlət imicinin qorunub saxlanması naminə Azərbaycanın bütün təhsil işçiləri və ziyalıları mənim bu çağırışıma həmrəylik nümayiş etdirərək ölkəmizin iqtisadi yüksəlişi və millətimizin rifahı, dövlət başçısının qarşımızda qoyduğu ali məqsədlərə, o cümlədən əzəli torpaqlarımızın düşmən tapdağından azad olunması naminə öz fəaliyyətini əsirgəməyəcəklər!

Ölkəmizdə təhsilin inkişafı bizdən, bizim fəaliyyətimizdən, üzərimizə düşən vəzifələri necə yerinə yeirməyimizdən birbaşa asılıdır. İnanıram k, Azərbaycan təhsili özünün zəngin ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərinə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcək, dünya təhsil sistemində öz layiqli yerini tutacaqdır. Bu yolda hamınıza yeni-yeni nailiyyətlər arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm!



Scanned with ACE Scanner

# AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIV QURULTAYININ QƏTNAMƏSİ

Azərbaycan müəllimlərinin XIV qurultayı müasir təhsil salnaməsinə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilən istiqamətlər üzrə qarşıya qoyulan hədəflərə çatmaq yollarının müəyyən olunduğu, təhsil quruculuğunda yeni mərhələyə start verildiyi əlamətdar bir tədbir, yaddaqalan hadisə kimi daxil olur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qurultaya təbrik məktubu dövlət başçısının təhsil sisteminə və təhsil işçilərinə göstərdiyi diqqət və qayğının parlaq təzahürü olmaqla yanaşı, müasir təhsil quruculuğunun aydın sabahına və uğurlu gələcəyinə nikbinlik duyğuları yaradır.

Azərbaycan Respublikası təhsil nazirinin məruzəsində Dövlət Strategiyasının məzmunu, məqsədi, islahatın əsas strateji istiqamətləri, qarşıya qoyulan strateji hədəflər və tədbirlərin reallaşdırılması yolları aydınlaşdırılmış, təhsil islahatının perspektiv üçün əsas fəaliyyət istiqamətləri dəqiq müəyyənləşdirilmişdir.

Qurultay Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təbrik məktubunda irəli sürülən konseptual müddəaları və ideyaları müasir təhsil quruculuğunda əsas proqram sənədi kimi qəbul edərək məruzədə qarşıya qoyulan vəzifələri, eləcə də məruzə ətrafındakı çıxışlarda səslənən təklifləri nəzərə alaraq qeyd edir ki, son illərdə təhsil sahəsində nəzərə çarpan uğurların əldə olunması bilavasitə ölkənin modernləşməsinə yönəlmiş sosial-iqtisadi siyasətlə bağlı olmuşdur. Ötən dövrdə təhsilin infrastrukturunun müasirləşdirilməsi və təhsilin məzmunca yeniləşdirilməsi istiqamətində önəmli addımlar atılmış, təhsilin informasiyalaşdırılması sahəsində irəliləyişə nail olunmuş, Azərbaycan təhsilinin Avropa təhsil məkanına inteqrasiyası yönündə tədbirlər həyata keçirilmişdir. Lakin buna baxmayaraq, hazırda dünyada gedən proseslərə uyğun təhsildə yeni yanaşmalara tələbat yaranmışdır. Belə ki, hazırda sürətlə inkişaf edən və yayılan informasiya-kommunikasiya texnologiyaları, bununla bağlı geniş vüsət almış qloballaşma prosesləri ölkənin sosial-iqtisadi və mədəni həyatına ciddi şəkildə təsir etməkdədir. Ölkənin İnkişaf Konsepsiyasında deyildiyi kimi, belə bir şəraitdə Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriliyə yol verməməkdən, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaqdan, onun innovasiya əsaslı irəliləyişini təmin etməkdən, biliklərə əsaslanan iqtisadiyyatın həlledici amili olan insan kapitalının adekvat inkişafını ön plana çəkməkdən ibarətdir. Bu çağırış ölkəmizdə müasir təhsil sisteminin formalaşdırılmasını tələb edir. Bu baxımdan sürətlə modernləşən Azərbaycanda təhsilin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi üçün yeni, daha təsirli addımların atılmasına ehtiyac vardır.

Qurultay hesab edir ki, təhsilin Dövlət Strategiyası perspektivdə təhsil sahəsində aparılacaq islahatlarda təhsil işçilərinə yol göstərən konseptual sənəd kimi yüksək dəyərləndirilməli, irəli sürülən hər bir ideya təhsil işçiləri tərəfindən dərindən öyrənilməli, onların gerçəkləşdirilməsi yolunda bilik və bacarıqlarını əsirgəməməli, təhsili idarəetmə qurumları isə ölkənin intellektual potensialını bu mühüm dövlət sənədində müəyyənləşdirilmiş strateji hədəflərə çatmağa səfərbər etməlidir.

Qurultay təhsil prosesində məzmunun həlledici amil, təməl prinsip olduğunu vurğulayaraq hesab edir ki, Dövlət Strategiyasında təhsilin məzmunca yeniləşdirilməsinə müasir yanaşmalar milli mütərəqqi ənənələrə, beynəlxalq təcrübəyə,



ölkənin sosial-iqtisadi inkişaf tələblərinə, modernləşmə meyillərinə tamamilə uyğun olaraq səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir.

Qurultay tədris prosesində təhsilverənin fenomenal rolunu, insan kapitalının ahəngdar inkişafının müstəqil dövlətçilik fəlsəfəsinin əsas hədəfi olduğunu xüsusi vurğulayaraq qeyd edir ki, aparılacaq islahatlar təhsil prosesində innovativ təlim metodları və texnologiyalarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına, müəllim peşəsinin nüfuzunun yüksəldilməsinə imkan verəcəkdir.

Qurultay hazırda təhsili idarəetmə sahəsində ciddi problemlərin olduğunu, təhsilin nəticələrinə görə cavabdehliyin artırılması, təhsilin keyfiyyətini ölçən göstəricilər sisteminin təkmilləşdirilməsi, təhsilin maliyyələşdirilməsinin onun keyfiyyətinə yönəldilməsi sahəsində islahatlara ciddi ehtiyac olduğunu xüsusi qeyd edərək bəyan edir ki, Dövlət Strategiyasında yer alan nəticələrə görə cavabdeh, şəffaf və tənzimlənən mexanizmlərə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes əməkdaşlığına əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması istiqamətində atılacaq addımlar Azərbaycan təhsilində idarəetmənin Avropa təhsil standartlarına uyğunlaşdırılmasına güclü təkan verəcək, təhsildə keyfiyyətin yüksəldilməsinə kömək edəcəkdir.

Qurultay təhsil quruculuğunda müasir tələblərə cavab verən infrastrukturun yaradılması və təhsilin maliyyələşdirilməsinin yeni mexanizminin qurulması ilə bağlı Strategiyada yer alan strateji istiqamətlər və hədəflərin ölkənin iqtisadi potensialına söykəndiyini və reallıqları əks etdirdiyini qeyd edərək bildirir ki, göstərilən istiqamətlərdə nəzərdə tutulan islahatların gerçəkləşdirilməsi Azərbaycan təhsilinin inkişaf etmiş ölkələrin təhsil sistemlərinə uyğunlaşdırılmasına, ömür boyu təhsili təmin edən infrastrukturun və təhsilin iqtisadi cəhətdən dayanıqlı yeni maliyyələşdirmə mexanizminin yaradılmasına imkan verəcəkdir.

Qurultay əmin olduğunu bildirir ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın reallaşdırılması təhsilin məzmunu, kadr hazırlığı, təhsili idarəetmə sistemi, təhsilin infrastrukturu və təhsilin maliyyələşdirilməsinin beynəlxalq təcrübəyə və ölkənin İnkişaf Konsepsiyasına uyğun olaraq yenidən qurulmasına imkan verəcək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü, ölkənin davamlı və rəqabətqabiliyyətli inkişafını təmin edəcək, müstəqil Azərbaycan Respublikasının dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri arasında layiqli yer tutmasına xidmət edəcəkdir.

Qurultay dövlət başçısına qurultay iştirakçılarına ünvanladığı səmimi təbriklərə və xoş sözlərə görə minnətdarlığını, hörmət və ehtiramını bildirir, bu yaxınlarda keçirilən Prezident seçkilərində qazandığı möhtəşəm qələbə münasibəti ilə Zati-alilərini səmimi qəlbdən təbrik edir, müstəqil Azərbaycanın xoşbəxt gələcəyi, təhsilimizin işıqlı sabahı naminə daha böyük uğurlar arzulayır, təhsil işçilərinin hər zaman onun daxili və xarici siyasətini dəstəklədiyini bəyan edir.

Azərbaycan müəllimlərinin XIV qurultayı böyük inam və nikbinliklə bəyan edir ki, ölkəmizin təhsil işçiləri əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil quruculuğu prosesini Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirəcək, Strategiyada qarşıya qoyulan bütün hədəflərə çatmağa nail olacaq, müasir təhsil sisteminin qurulması kimi tarixi zəfərə imza atacaqlar.



Scanned with ACE Scanner

# SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATININ ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİ

## *(YENİ BAXIŞ)*

**Təyyar SALAMOĞLU,**
**filologiya elmləri doktoru, professor**

Sovet siyasi rejimi zamanında Azərbaycan ədəbiyyatının çağdaş dövrü "Azərbaycan sovet ədəbiyyatı" kimi müəyyənləşdirilmişdi. Milli müstəqillik vaxtı 20-ci illərdən sonrakı dövrün ədəbiyyatını necə adlandırmaq məsələsi ortaya çıxanda "Azərbaycan Sovet ədəbiyyatı" anlayışının "Sovet dövrü Azərbaycan ədəbiyyatı" və ya "Müasir Azərbaycan ədəbiyyatı" anlayışları ilə əvəz olunması daha çox məqbul göründü. Bu mexaniki bir əvəzlənmə olmayıb ciddi metodoloji səciyyə daşıyırdı. "Sovet dövrü Azərbaycan ədəbiyyatı" və ya "Müasir Azərbaycan ədəbiyyatı" anlayışları "Azərbaycan sovet ədəbiyyatı" anlayışından fərqli olaraq 20-ci illərdən sonra yaranan ədəbiyyatı ancaq "sovet ədəbiyyatı" kimi yox, sovet dövtründə yaranan Azərbaycan ədəbiyyatı kimi dərk və qəbul etməyə metodoloji əsas verirdi. Məsələ burasındadır ki, 20-ci illərdən sonra yaranan Azərbaycan ədəbiyyatı ancaq sovet ədəbiyyatı nümunələrindən ibarət deyildi. Bu ədəbiyyatın sırf milli ədəbiyyat qolu da var idi. Həmin ədəbiyyat bilavasitə milli varlığı özünün inikas obyekti kimi götürür və bu hayatın bədii tərcümanı olurdu. Ədəbiyyat tariximizdə 20-ci illərin "ədəbi mübarizələr" dövrü kimi səciyyələnməsinin əsas mahiyyəti də bununla izah olunmalıdır. Bu illərdə bir çox sənətkarların başına endirilən "qırmızı sovet çəkicləri" həmin sənətkarları milli ədəbiyyat platformasından çıxarıb proletar platformasına keçirmək məqsədi daşıyırdı. Siyasi rejim milli ədəbiyyata qarşı mübarizəni nə qədər barbar üsullarla aparsa da, milli ədəbiyyat yaranır və ədəbi prosesin faktına çevrilirdi. Bu gün 20-30-cu illərin tarixi ədəbi prosesinin mənzərəsini həmin milli ədəbiyyat nümunələrindən kənarda bütöv təsəvvür etmək qeyri-mümkündür. 20-30-cu illərin mühacirət ədəbiyyatı və 20-30-cu illərin repressiya ədəbiyyatı kimi şərti adlarla təsnif olunan ədəbi nümunələr əslində sovet dövrü Azərbaycan ədəbiyyatının tərkib hissəsi və ya qolu kimi yaranır, inkişaf edirdi. Bu mənada sovet dövrü Azərbaycan ədəbiyyatı Azərbaycan sovet ədəbiyyatı, Azərbaycan repressiya ədəbiyyatı və Azərbaycan mühacirət ədəbiyyatının (təbii ki, bu ədəbiyyatın uyğun mərhələsi) məcmusu kimi düşünülməlidir. Tarixi dövrün ədəbi mənzərəsini yalnız bu halda bütöv təsəvvür etmək mümkündür.

Bu gün millilik və azərbaycançılıq ideologiyası kontekstində 20-ci illərdən təşəkkül tapmağa başlayan Azərbaycan sovet ədəbiyyatına obyektiv elmi münasibət nə qədər zəruridirsə, mühacirət və repressiya sənətkarlarının yaradıcılığını həmin tarixi mərhələnin tərkib hissəsi, qolu kimi öyrənib, tarixi



mərhələnin elmi mənzərəsini bütövləşdirmək bir o qədər zəruridir. Sovet dövrü ədəbiyyatı isə öz mahiyyəti etibarilə kifayət qədər mürəkkəb, ziddiyyətlidir və bu günkü siyasi-ictimai atmosferdə, ədəbi-mədəni mühitdə bu dövrün ədəbi təsərrüfatına münasibət birmənalı deyil. Münasibət müxtəlifliyi həm də ondan doğur ki, sovet dövrünün siyasi-ictimai atmosferinə də yanaşma birmənalı deyil. Çağdaş ictimai-siyasi və ədəbi-mədəni düşüncədə sovet dövrünə müstəmləkəçi rejim prizmasından da baxış var, bu rejimin "mədəni inqilabı"na mədəni sıçrayışın təkamül aktı kimi yanaşmalar da. Bir-birini inkar edən bu siyasi-elmi yanaşmalar "sovet ədəbiyyatı"na müstəqillik zamanının elmi düşüncəsində dualist baxış formalaşdırmışdır. Hamımız yaxşı bilirik ki, sosrealizm ədəbiyyatı Azərbaycanda milli estetik təfəkkür hadisəsi kimi yaranmamışdı. İndi artıq müasir ədəbiyyatşünaslığın dönə-dönə vurğuladığı kimi, onun "estetik prinsipləri" "Moskvanın-Mərkəzin siyasi partiya- MK mətbəxində hazırlanıb əvvəlcə rus ədəbi mühitində "dequstasiya" edildikdən sonra yerlərə göndərilirdi" (B.Əhmədov). Milli təfəkkürün məhsulu olmayan və ona yad olan hadisə heç şübhəsiz "milli təfəkkürün güclənməsi"ndə də rol oynaya bilməzdi. Əksinə, sosrealizm öz "qəti normativləri" (T.Əlişanoğlu) çərçivəsində və dövründə (50-ci illərin ortalarına qədər) milli şüurun inkişafı yolunda analoqu olmayan buxova çevrilmişdi. Estetik düşüncə həmişə milli şüurun inkişafına təkan vermişdir. XX əsrin əvvəllərində "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbləri milli şüurun intibahı uğrunda mübarizəni özlərinin əsas estetik amallarına, ideallarına çevirmişdilər. Ədəbi-mədəni fikrin ictimai şüura təsir imkanları çox genişlənmişdi. Fikrimizi sübut üçün təkcə Sabirin poeziyasının milli şüurun intibahında oynadığı rolu xatırlamaq kifayətdir. Və Sabir təkcə "İran inqilabına bir ordudan artıq xidmət etməmişdi". Onun poeziyasının milli şüurun intibahında oynadığı rol intəhasız idi. Sabirin poeziyasının "əzəl mübtədası" sovet ədəbiyyatşünaslığında vurğulandığı kimi, heç də "fəhlə" sözü deyildi. "Sabir millətdən ötrü çalışırdı" (A.Səhhət). Sabirlərin, Mirzə Cəlillərin, Ə.Hüseynzadələrin, Ə.Haqverdiyevlərin, Hadi və Cavidlərin, Səhhət və Şaiqlərin, Y.V.Çəmənzəminlilərin milli intibah, milli özünüdərk uğrunda mübarizə hərəkatını, bir qədər sonra Ə.Cavad, M.Müşfiq, A.İldırım, Gültəkin, Əmin Abid kimi təpədən dırnağa istiqlal düşüncəsinə köklənmiş sənətkarların başladığı işi davam etdirməyə sovet rejimi mane oldu. Estetik düşüncədə milli intibah hərəkatının yeni dalğası ədəbiyyatın sosrealizmin "qəti normativlər" çərçivəsini dağıtmaq imkanı əldə etdiyi 50-ci illərin sonu, 60-cı illərdə başladı. Bu mərhələnin ədəbiyyatı isə sovet dövrü ədəbiyyatı olsa da, sosrealizmin çərçivəsindən demək olar ki, çıxmışdı.

"Sosrealizm dövründə Azərbaycan ədəbiyyatının inkişafı bu ədəbiyyatın tarixində çox mühüm və prinsipial bir mərhələ təşkil edir və biz bunu da görməli, tədqiq etməli, elmi-nəzəri təsnifatını verməli, əldə edilmiş bədii-estetik dəyərləri qiymətləndirməyi bacarmalıyıq" (Elçin. "Sosrealizm bizə nə verdi?" məqaləsi). Bəli, sovet dövrünün "bədii-estetik dəyərlərini qiymətləndirmək" üçün bu gün həmin əsərlərdəki obrazları tərs mövqelərdən



Scanned with ACE Scanner

şərh etməyə ehtiyac yoxdur. Amma həmin əsərlərin sözün müstəqim mənasında yenidən oxunmasına və dərkinə ehtiyac var. Bizi sovet dövründən 20 illik bir zaman kəsiyi ayırır. Gənc nəsil sosrealizm ədəbiyyatı – xüsusən 20-50-ci illərin ədəbiyyatı ilə bəlkə də tanışdır, amma onu oxumayıb. Bu ədəbiyyat haqqında onun bildikləri orta və ali məktəblərdə ona öyrədilənlərdən, eşitdiklərindən ibarətdir.

Orta və yaşlı nəsil bu ədəbiyyatı sovet dövründə mütaliə edib və yaxud da bu əsərlər haqqında dövrünün dərsliklərindən (istər orta, istərsə də ali məktəb dərsliklərindən) məlumat alıb. Bədii əsərlər haqqında fikirlərin formalaşmasında tənqid və ədəbiyyatşünaslıqda yer alan təhlillər aparıcı rol oynayıb. Beləliklə, bizim düşüncəmizdə bədii əsərin özü yox, həmin bədii əsər haqqında sovet tənqid və ədəbiyyatşünaslığının rəyi – yaratdığı obraz yer alıb. Bu gün biz həmin əsərlər haqqında danışarkən, onlara münasibət bildirərkən birbaşa bədii materialdan çıxış etmirik, sovet tənqid və ədəbiyyatşünaslığının həmin material, əsər, yaxud yazıçı, şair haqqında formalaşdırdığı rəydən çıxış edirik. Biz inersiya ilə mülahizə yürüdür, mövqe nümayiş etdiririk. Hər hansı bir sənətkar haqqında, əsər haqqında söylədiklərimiz bizim fərdi idrakımızın nəticəsi deyil, sovet dövrü ədəbiyyatının önündə gedən, onun haqqında rəy formalaşdıran tənqid və ədəbiyyatşünaslığın qənaətləridir. Biz inersiyal qiymətləndirmə və təhlilə son qoymalıyıq. Biz sosrealizmin ziddiyyətlərinə, "obyektiv elmi nəzər-mövqe" (Elçin) ortaya qoymalıyıq. Burdakı "biz" anlayışı artıq professional tənqid və ədəbiyyatşünaslığı nəzərdə tutur. Bilavasitə bədii mətnə üz tutmalıyıq. Postmodernist estetika sənətkarı əsərin yox, bədii mətnin müəllifi hesab etməkdə və həmin mətnin "öz strukturu etibarı ilə bitib-tükənməz məna potensialı doğurması" (geniş bax: Quliyev Q. Postmodernizm. "Azərbaycan" jurn., 2005, № 9) haqqında danışanda çox haqlıdır. Postmodernist tənqidin bu tipli estetik prinsipləri, nə qədər qəribə səslənsə də, bizim üçün sosrealist ədəbiyyata yanaşmanın elmi-metodoloji meyarı ola bilər. Məgər bizə aydın deyil ki, inqilabi mövzuda, kolxoz quruculuğu və yaxud istehsalat problemləri mövzusunda yazılmış əsərlər yalnız bu problemlərin bədii inikasından ibarət deyil? Məgər bizə aydın deyil ki, sovet tənqidi bu əsərlərdəki "çox zəngin məna potensialı"ndan məhz zamanın, mühitin, siyasi rejimin təbiətinə uyğun gələn ancaq birini – misal üçün, sovet hakimiyyəti uğrunda gedən mübarizəni qabardırdı? Məgər "Bir gəncin manifesti" ancaq Mərdanın, "Səhər" ancaq Bayramın "romanı"dır? Niyə "Səhər"i Bayramın inqilab uğrunda mübarizə romanı kimi qəbul edirik, ancaq əsərə milli tarixi varlığımızı təcəssüm etdirən İsgəndərin, Pəri arvadın romanı kimi dəyər verməyə çətinlik çəkirik? Axı "Bir gəncin manifesti"nin yenidən oxunuşu və dərki bizə inqilab uğrunda mübarizə ideyasına qarşı qoyulan "müstəmləkəçi rejimə qarşı mübarizə" idealı da təlqin edir. Əsərdə çox əhəmiyyətli yer tutan Sona – Vağzal ingilisi qarşıdurması metaforik – simvolik planda bu idealın bədii təsdiqinə xidmət etmirmi? Bu məna potensiallarının şərhi həmin əsərlərin müasirliyini şərtləndirmirmi?

"Sosrealizm bizə nə verdi?" məqaləsində Elçin sovet dövrünün ədəbi məhsullarına analitik elmi təfəkkürlə qiymət verməyi vacib hesab edir, həmin



əsərlərdə ilk baxışda nəzərə çarpmayan gizli məna qatlarının açılmasını, şərh edilməsini və müasir oxucuya çatdırılmasını zəruri sayır. Onun Mir Cəlalın "Bir gəncin manifesti", İ.Əfəndiyevin "Bahar suları" əsərlərində "istedadın təhriki ilə sosrealizmin tələblərinə o qədər də doğma olmayan bədiyyat tələblərini" önə çəkməsində də bu cəhət qabarıq görünür. Tənqidçi yazır: "Bir gəncin manifesti" (Mir Cəlal) romanını xatırlayaq: bir tərəfdən fon olaraq inqilabi mövzu, o biri tərəfdən, misal üçün Bahar kimi neçə-neçə nəsillərin sevimlisi olan Azərbaycan Qavroşunun bədii-emosional təsir gücünə malik faciəsi. Yaxud "Bahar suları" (İlyas Əfəndiyev) pyesini xatırlayaq: bir tərəfdən fon olaraq kolxoz quruluşu, o biri tərəfdən isə kolxoz sədri Alxan kişinin zəngin daxili aləminin bədii-psixoloji təhlili".

Deyilə bilər ki, axı sosrealizm ədəbiyyatının hamısında bu çür zəngin məna potensialı yox idi. Bəli, bu da həqiqətdir. Sovet rejimində istedadın gücü ilə bərabər, ideologiyanın yaratdığı şəraitdən istifadə edib bədii yaradıcılığa gələnlər vardı. Qələmini istedad yox, rejimin tələbləri idarə etdiyi üçün onlar sosrealizmin tələblərinə axıra qədər əməl etməyə çalışır, bədii həqiqətin əsasına həyat həqiqətini yox, sosialist "gerçəkliyi"ni qoyurdular. Bu "gerçəkliy"in isə həyat həqiqəti ilə əlaqəsi olmadığından və yaxud çox zəif olduğundan, illuzial təsvir aparıcı xüsusiyyətə çevrildiyindən həqiqi sənət əsəri yox, "istedadsız konyuktura" (Elçin) meydana çıxırdı və bu hesaba da, vaxtilə görkəmli tənqidçinin yazdığı "Tənqid və nəsr" adlı çox qiymətli monoqrafiyasında görkmli tənqidçimiz Elçinin sərrast ifadə etdiyi kimi "ədəbiyyatımızda sadəcə insan olmağa vaxtı çatmayan surətlər silsiləsi" baş alıb gedirdi. Sovet dövrü ədəbiyyatındakı bir sıra çox ciddi qüsurlar bədii yaradıcılıq metodu kimi sosrealizmin öz təbiətindən irəli gəlirdi. Bunu deyərkən biz hansı cəhətləri nəzərdə tuturuq?

Əgər 30-40-cı illərin tənqidinə nəzər yetirsək, görərik ki, tənqidi ən çox narazı salan cəhət bədii əsərlərdə özünü qabarıq surətdə biruzə verən sxematizm halları olmuşdur. Tənqid ayrı-ayrı sənətkarların yaradıcılığında müşahidə olunan bu cür qüsurları bədiiliyə xələl gətirən xüsusiyyətlər kimi göstərəndə tamamilə haqlı idi. Lakin ədəbi tənqid "sxematizm"i sırf fərdi yaradıcılıq qüsuru, subyektiv keyfiyyət kimi qələmə verəndə, "sxematizm"ə təkan verən obyektiv səbəbləri sərf-nəzər edəndə yanılırdı. Çünki "sxematizm" ayrı-ayrı sənətkarların yaradıcılığına, oradan isə ümumi ədəbi prosesə, ilk növbədə, proletar-sovet ədəbiyyatının yaradıcılıq metodunun öz təbiətindən gəlirdi. Bu metod həyat həqiqətini əks etdirməyi əsas yaradıcılıq prinsiplərindən biri elan etsə də, elə ordaca "həyat həqiqəti"ni "inqilabi varlığımızın həqiqəti"nə tabe tutmaqla ədəbiyyatın həyatı əks etdirmək funksiyasına sinfi məzmun verir, elan etdiyi prinsipə tendensiyalı məzmun aşılayır, təsvir predmeti kimi seçilən hadisələrə sinfi mövqedən bədii həll verməyi bir tələb və məqsəd kimi yazıçının qarşısına qoyurdu. Bu cəhət isə mövzunun bədii həllində tendensiyalılığa yol açır, hadisələri təbii yolla inkişaf etdirmək imkanını heçə endirir, məsələləri qeyri-obyektiv olaraq aşağı sinfin mənafeyi nöqteyi-nəzərindən həll etməyi qaçılmaz edirdi. 30-50-ci illər ədəbiyyatında baş alıb gedən sxematizmin bir səbəbi bu idi.



Scanned with ACE Scanner

İkincisi, sosialist realizmi "varlığı həqiqi inkişafda, mübarizədə alıb təsvir etmək və göstərmək" prinsipini də əsas yazıçı məqsədlərindən biri elan edirdi. Lakin bu prinsipin də alt qatında, mahiyyətində həyatın inkişaf dialektikasını açmaq yox, hadisələri sinfi zəmində inkişaf etdirmək məqsədi dayanırdı. Tənqidin və ictimai-siyasi mühitin təlqinləri ilə yazıçılar həyat materialını təbii inkişaf məntiqindən kənara çıxarır, "sinfi zəmində inkişaf"ı əsərlərinin aparıcı pafosuna çevirirdilər.

Digər tərəfdən, tənqid sənətkara "millətçilik, vətənçilik, dinçilik" (Ə.Nazim) mövzularında yazmağı yasaq edir, tarixi mövzulara, fərdi yaşantının bədii ifadəsinə, insanın təbiətlə təmasına tənqidi yanaşır, qəm-qüssə, kədər motivini, xüsusən ictimai kədəri sənətə yaxın buraxmır, romantik xəyalın məhsulunu qəbul etmir, başqa sözlə, sənətkarın düşüncə və xəyalını məhdud bir çərçivəyə salaraq siniflər mübarizəsi, sosializm quruculuğunun xarüqələri, proletar beynəlmiləlçiliyini tərənnümə istiqamətləndirirdi. Nəticə etibarı ilə sənət bədii düşüncə müxtəlifliyindən, məzmun, ideya rəngarəngliyindən, metod və üslub axtarışlarından məhrum olur, ortaya "boz bir ədəbiyyat" qoyulurdu.

Fikrimizcə, sosrealizm ədəbiyyatını dəyərləndirmədə söhbət "boz bir ədəbiyyat"dan yox, ancaq bədii istedadın gücü ilə "zamanın əsən yellərinə sinə gərən" (Ç.Aytmatov) əsərlərdən getməlidir. Ədəbi təsərrüfata "vahid axın" prinsipi ilə yanaşmaq indiki halda bizə yaxşı heç nə vəd etmir. Düşünürük ki, bu gün Azərbaycan ədəbiyyatşünaslığı və tənqidi taleyüklü bir missiya qarşısındadır. Müasir ədəbiyyatşünaslıq epoxal bir dövrün ədəbiyyatının "namus yükü"nü çəkməyə, həqiqi sənətkarla konyukturaçını, həqiqi sənətlə qeyri-sənət nümunəsini bir-birindən ayırmağa hazırdırmı? Həm bədbin, həm də nikbin proqnozlar səsləndirməyə kifayət qədər əsasımız var. Bədbin düşünməyə əsas verən səbəblərdən biri budur ki, hətta son illərdə çap olunmuş bir sıra ali məktəb dərslikləri, monoqrafik tədqiqatlardakı elmi təhlillər belə stereotip ədəbiyyatşünaslıq düşüncəsi ilə aparılır. Tənqidçi və ədəbiyyaşünasların bir çoxu sovet ədəbiyyatşünaslığının ideoloji meyarlarının, sosioloji yanaşma prinsiplərinin təsirindən çıxa bilmirlər. Ədəbiyyatşünaslıq və tənqidi düşüncə estetik düşüncədən çox vaxt geri qalır.

Bugünkü ədəbiyyatşünaslıq həyat materialını bədii inikasda, bədii həqiqətin ifadəsində istedadın və konyukturanın sərhədlərini dəqiq təyin etməyə borcludur. Ədəbiyyatşünaslıq sənətkarın bir çox məqamlarda istedadının təlqinlərini arxa plana keçirməyə, konyuktura arxasınca getməyə məcbur qaldığı məqamları da görməlidir. Xüsusən 20-30-cu illərin ədəbiyyatına münasibətdə heç bir sənətkarın yaradıcılıq yolunu birmənalı yanaşma ilə qiymətləndirmək olmaz. Burada sənətkarın yaradıcılığına siyasi-ictimai mühitin birbaşa "diktə"lərinin konturlarını dəqiq müəyyənləşdirmək lazımdır. Hələ ki, ədəbi-elmi qiymətləndirmədə bu cür dəqiqliyə varmağa ədəbiyyatşünaslığımız çətinlik çəkir. Hələ ki, müasir ədəbiyyatşünaslıq Ə.Cavadın "Səsli qız" və "Pambıq dastanı" poemalarına sovet dövründə yazılmış əsərlər kimi yanaşaraq onları eyni müstəvidə təhlil edir. Halbuki yazılış tarixləri arasındakı fərqin cəmi bir-iki il olmasına baxmayaraq həmin



əsərlər Ə.Cavad yaradıcılığının sovet dövrünün fərqli mərhələlərinə məxsus əsərlərdir. Fərqli mərhələlərin məhsulu kimi ideya-bədii cəhətdən onların arasında zəmini-asiman qədər fərq vardır. Hələ ki, Azərbaycan tənqid və ədəbiyyatşünaslığı əksər hallarda İ.Əfəndiyevin "Üçatılan" povestini 30-40-cı illərdə yazılmış "kolxoz romanları" ilə eyni müstəvidə təhlil edir. "Kollektivləşmə uğrunda mübarizə"dən bəhs edən əsərlə "kollektivləşmə uğrunda mübarizə dövrünün həqiqətləri"ni obyektiv bədii təhlil müstəvisinə gətirən əsəri bir-birindən ayırmağın vaxtı çatmışdır. Bu fərqin kökünə varmadan, mahiyyətini aydınlaşdırmadan həmin əsərləri təhlil müstəvisinə çıxarmaq bir elm kimi ədəbiyyatşünaslığa heç bir divident qazandıra bilməz.

Müasir ədəbiyyatşünaslıq bədii inikasda sosrealizmin bir metod kimi təbiətindən gələn məhdudluqları riyazi dəqiqliklə ayırmağa borcludur. Sovet dövründə, xüsusən 20-50-ci illərdə bir çox hallarda ədəbiyyatşünaslıq buna bilərəkdən və yaxud məcbur olaraq göz yumurdusa, və yaxud bunu çox vaxt sənətkarın fərdi yaradıcılıq axtarışlarının zəifliyində axtarırdısa, müasir ədəbiyyatşünaslıqda bu tip səhvlər materiala səthi və məsuliyyətsiz yanaşmadan, daha çox isə nəzəri təfəkkür kasıblığından qidalanır.

Müasir ədəbiyyatşünaslıq sosrealizm ədəbiyyatını dəyərləndirməyə borcludur. Elçinin qeyd etdiyi kimi, "biz sosrealizmə (və Sistemə!) qarşı kin-küdurəti, qərəzi bir tərəfə qoyub, onun ədəbi irsini obyektivcəsinə təhlil etməli, elmi-nəzəri təsnifatdan keçirməliyik". Bu təhlillər, elmi-nəzəri təsnifatlar total münasibətdən sərf-nəzər olunmalıdır. Elmi-nəzəri və metodoloji qiymətləndirmə və təhlillərimizdə konkretliyə, obyektivliyə və analitikliyə nail olmalıyıq. Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri akademik R.Mehdiyevin məsələlərə konseptual yanaşması diqqətdən yayına bilməz: "Hər nəyi isə tənqid ediriksə, həmin tənqid mövcud olanların köklü inkarına yönəlməməli, islahedici xarakter daşımalıdır. Əks təqdirdə o, inkişafı əngəlləyən amilə çevrilə bilər" (R.Mehdiyev, "İctimai və humanitar elmlər: Zaman kontekstində baxış" məqaləsi). Üzərimizə düşən missiyanı gerçəkləşdirmək üçün bu, vacib şərtdir.

**OXUCULARIN NƏZƏRİNƏ**

*Jurnalımıza 2014-ci il üçün abunə yazılışı davam edir.*

*Bakı şəhəri üzrə abunə yazılmaq istəyənlər aşağıdakı mətbuat yayımı firmalarına müraciət edə bilərlər:*

1. *"Qasid". Ünvan: Cavadxan, 21; telefon: 4-93-16-43; 4-30-02-24*
2. *"Səma". Ünvan: H.Cavid, 9, mənzil 63; telefon: 4-94-09-59; 4-94-02-52*
3. *"Kaspi". Ünvan: Mətbuat pr., 25; telefon: 5-10-61-96*
4. *"Qaya". Ünvan: Akademik H.Əliyev küç., 82 "q"; telefon: 5-64-63-45; 4-65-67-13*

*Rayonlarda isə abunəni Azərbaycan Mətbuat Yayımı İstehsalat Birliyinin yerli yayım şöbələri aparır.*



Scanned with ACE Scanner

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ FƏAL/İNTERAKTİV METODLARDAN YARADICI İSTİFADƏ İMKANLARI

**Bilal HƏSƏNLİ,**
**AMİ-nin dosenti, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, respublikanın əməkdar müəllimi**

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirilməsi, milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü, rəqabət qabiliyyətli, ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazır kadrlar yetişdirilməsi təhsil sisteminin başlıca vəzifələri kimi müəyyənləşdirilmişdir.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında təhsil sistemində fəal/interaktiv təlim metodlarının tətbiqi məsələsinə xüsusi diqqət yetirilməsi təqdirəlayiqdir. Strategiyada qeyd edildiyi kimi, təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur.

Bununla yanaşı, bu mühüm dövlət sənədində haqlı olaraq qeyd edilir ki, əksər müəllimlərin tədris prosesində tətbiq etdiyi metodlar müasir tələblərdən geri qalır. Bir çox hallarda şagirdlərə əldə etdiyi bilikləri tətbiq etmə və müstəqil yaradıcı düşünmə qabiliyyətləri aşılanmır.

Araşdırmalar, məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, müəllimlərin xeyli hissəsi fəal/interaktiv təlim probleminin mahiyyətindən xəbərsizdir. Elmi-metodik ədəbiyyatın dərindən öyrənilməməsi, qabaqcıl iş təcrübəsi nümunələrinə laqeydlik bəzi müəllimlərdə fəal/interaktiv təlim barədə yanlış təsəvvürün yaranmasına səbəb olur. Bunun bir səbəbi də odur ki, bəzən məktəb təcrübəsində öz səmərəsini göstərməyən, uğursuz dərslər bəzən mətbuatda, internetdə interaktiv təlim nümunəsi kimi təqdim olunur, ədəbiyyat fənni üçün səciyyəvi olmayan interaktiv metodlara müraciət olunur, müəllimi çaşdıran dərsliklər, məqalələr yazılır, tövsiyələr verilir.

Digər bir nöqsan isə ədəbiyyat müəllimlərinin yeni təlim



texnologiyalarından (fəal/interaktiv təlim metodlarının tətbiqi, informasiya kommunikasiya vasitələrindən istifadə və s.) dərsdə istifadə zamanı metodik baxımdan ciddi qüsurlara yol verməsidir. Məsələn, dərsdə tədqiqat səciyyəli problemli tapşırıqlar müəyyənləşdirilir, qrupların həmin tapşırıqlar üzrə işi təşkil edilir. Lakin tapşırıqlar yerinə yetirildikdən sonra geniş müzakirə, informasiya mübadiləsi, demək olar ki, aparılmır. Müəllim qrupların cavabları olan vərəqləri özü oxuyur, şərh edir, qiymətləndirmə aparır. Beləliklə, şagirdin təlim prosesinin bərabərhüquqlu iştirakçısı olması, onun bütün mərhələlərində idraki fəallığı təmin edilmir.

İnteraktiv metodların tətbiq olunduğu elə dərslər də müşahidə etmişik ki, mövzu ilə əlaqəsi olan-olmayan hər şeydən danışılır, "əllərin fəallığı" yaradılır, bədii əsərin mətni, obrazlı söz üzərində iş, əsərin ideyasının, sənətkarın niyyətinin aydınlaşdırılmasına yönəlmiş idrak fəallığının yaradılması isə unudulur. Dərsə hazırlıq mərhələsində şagirdlərlə teatr tamaşasına hazırlıq məşqini xatırladan iş aparılması da təlim prosesində fəallığın görüntü xarakteri daşımasına gətirib çıxarır. Bir sıra hallarda fəal/interaktiv metodlardan istifadə yalnız şou xarakterli açıq dərslərə hazırlıq zamanı yada düşür, müəllim yeni təlim texnologiyalarını sistemli, ardıcıl, məqsədyönlü tətbiq etmək əvəzinə, açıq dərsdə şagirdlərlə bir ay ərzində gərgin məşqlərin nəticəsi olan "nailiyyətlərini" nümayiş etdirməklə kifayətlənir. Halbuki qabaqcıl müəllimlərin təcrübəsi göstərir ki, yeni təlim texnologiyalarından bütün ədəbiyyat dərslərində - sənətkarın həyat və yaradıcılığının, ədəbiyyat nəzəriyyəsi və tarixi materiallarının, ayrı-ayrı bədii əsərlərin öyrədilməsi, ifadəli oxu, inşa yazı və esseyə hazırlıq dərslərində məqsədyönlü istifadə etmək mümkündür. Bu baxımdan hər bir ədəbiyyat dərsi üçün mövzuya uyğun təlim metodları seçərkən diqqətli olmaq, metodik ədəbiyyata yaradıcılıqla yanaşmaq lazım gəlir.

Yeni təlim texnologiyalarının tətbiqi ilə bağlı aktual problemlərdən biri də bilavasitə ədəbiyyat təlimi üçün səciyyəvi olan, bəzilərinin "ənənəvi" damğası vuraraq məktəb təcrübəsindən kənarlaşdırmaq istədiyi metodlara münasibətlə bağlıdır. Belə ki, son zamanlar ənənəvi təlimə birtərəfli yanaşma, onun müsbət cəhətlərini də bir kənara qoymaq kimi ifratçı meyil özünü göstərməkdədir. Yaddan çıxarılmamalıdır ki, uzun illər ərzində ənənəvi təlim metodları üzrə pedaqoji, metodik aspektdə ciddi tədqiqatlar aparılmış, problemli təlim, şagirdin müstəqilliyi, fəallığı, təşəbbüskarlığının əhəmiyyəti, idrak fəallığı, fərdi xüsusiyyətlərinin, maraq və qabiliyyətlərinin nəzərə alınmasının zəruriliyi dönə-dönə göstərilmiş, müvafiq metodik tövsiyələr işlənilmişdir. Həmin tədqiqatların nəticələrinin praktikaya tətbiqi nəticəsində ənənəvi ədəbiyyat dərslərində məktəblilərin tədqiqatçılıq fəaliyyətinə cəlb edilməsi, evristik müsahibə, problemli şərh, problem – situasiyanın yaradılması, müqayisə, fərdi, cütlərlə, kollektiv işin uzlaşdırılması sahəsində qabaqcıl iş təcrübəsi nümunələri yaranmışdır. Lakin ənənəvi dərslərdə müəllim-şagird əməkdaşlığı, məktəbliyə bu prosesin obyekti deyil, subyekti kimi yanaşılması tələb kimi qoyulmur, fəal təlim sahəsində müsbət iş təcrübəsi geniş yayılmır, dərsdə şagirdlərin idrak fəallığının, əməkdaşlığının



Scanned with ACE Scanner

təmin edilməsi üzrə iş ardıcıl və sistemli aparılmırdı. Bu problemi dərindən araşdırmış Y.Kərimov, Ə.Ağayev, S.Hüseynoğlu, Z.Veysova haqlı olaraq mövcud şəraitdə reallıqdan çıxış etməyin, ənənəvi təlimin zamanın sınağından çıxmış cəhətlərini, əldə edilmiş müsbət təcrübəni qoruyub saxlamaqla fəal, interaktiv təlimin imkanlarından bəhrələnməyin daha məqsədəuyğun olduğunu vurğulayırlar. "Ənənəvi təlimi bir kənara atmaq,tamamilə gərəksiz saymaq qeyri-mümkündür. Ənənəvi təlimdə bu gün, eləcə də sabah üçün faydalı çox şey var; bunları sadəcə olaraq, yaşatmağı, yeni təlimi yanaşmalarla uzlaşdırmağı bacarmaq lazımdır". (Bax: Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Müəllim üçün vəsait. Bakı, 2009. s.30). Təcrübə göstərir ki, müasir ədəbiyyat təlimində N.İ.Kudryaşevin müəyyənləşdirdiyi və məktəb təcrübəsinin sınağından çıxmış yaradıcı oxu, evristik, tədqiqatçılıq, reproduktiv (bərpaedici) metodlardan da istifadə məqsədəuyğundur. Yaradıcı oxu metodu ədəbiyyat təlimi üçün daha çox səciyyəvidir. Bütün fənlər üçün eyni olan interaktiv metodların heç biri ədəbiyyat təlimində mühüm yer tutan yaradıcı oxu metodunu əvəz edə bilmir. Bu metodun tətbiqi zamanı şagirdin bədii qavramasının fəallaşdırılması, bədii meyil və qabiliyyətlərin formalaşdırılması, obrazlı, bədii təfəkkürün inkişafı məqsədi qarşıya qoyulur. Yaradıcı oxu metodu şagirdi bədii sözü duymağa, ondan zövq almağa, ifadəli oxumağa, bədii yaradıcılıqda özünü sınamağa sövq edir. Bu metod əsər öyrənilməyə başlarkən və əsər təhlil edildikdən sonra tətbiq edilə bilər.

Yaradıcı oxunun şəxsi təəssürat üzrə yaradıcı tapşırıq, ifadəli oxu, söhbət, şərhli oxu kimi üsulları, şagirdlərin oxu, əzbərləmə, plan tərtibi, nağıletmə, rəy söylənilməsi kimi iş üsulları bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Evristik metod (evrika yunanca axtarmaq, tapmaq, kəşf etmək deməkdir) vasitəsilə əsərin dərindən təhlili, ədəbiyyatşünaslıq üzrə elementar biliklərin mənimsənilməsi həyata keçirilir. Problemin həlli üçün axtarış aparılır, əsərdə təsvir edilən hadisələrin səbəb-nəticə əlaqələri müəyyənləşdirilir, qəhrəmanların xarakteri, qarşılıqlı münasibətləri aydınlaşdırır. Təlim prosesində bu metod özünü evristik söhbət şəklində büruzə verir. Müəllim şagirdləri mənəvi, ictimai, fəlsəfi problemləri, onların həlli yollarını əsərdə tapmağa sövq edən sual və tapşırıqlardan istifadə edir, təhlil priyomlarını öyrədir. Sual və tapşırıqlar sisteminin məntiqi ardıcıllığın düzülməsi, problemin qoyuluşu bu metodun üsulları, əsərdən nümunələr, sitatlar seçmək, təhlil elementləri ilə nağıletmə, epizodun təhlili, surətlərin təhlili, inşa, çıxış üçün plan tərtibi isə şagirdlərin iş növləridir.

Sual olunur: Motivasiya, problemin qoyuluşu, tədqiqat sualının müəyyənləşdirilməsini adından göründüyü kimi, şagirdlərdən axtarıb tapmağı tələb edən evristik müsahibə olmadan təsəvvür etmək mümkündürmü? Məgər fəal/interaktiv təlimdə müzakirə metodlarının (diskussiya, debat, müzakirə xəritəsi, klassik dialoq ( Sokrat dialoqu) əsasında ənənəvi damğası vurulmuş evristik müsahibə durmurmu?

Digər metod- tədqiqatçılıq metodu da fəal/ interaktiv təlimin mahiyyəti, xüsusiyyətləri ilə səsləşir. Məlumdur ki, fəal/interaktiv dərslərdə müəllim



bələdçi, şagird tədqiqatçı kimi çıxış edir. İnteraktiv təlim şagirdlərin biliyi yaradıcı, tədqiqatçılıq fəaliyyəti nəticəsində əldə etməsinə əsaslanır. Dərsdə problem situasiyasının yaradılması, şagirdlərin onun həllinə yönəlmiş tədqiqatçılıq fəaliyyəti nəticəsində təlim materialları dərindən mənimsənilir, fakt və hadisələrin səbəb və nəticə əlaqələrini, qanunauyğunluqlarını, müəyyənləşdirmək, nəticə çıxarmaq bacarığı inkişaf etdirilir.

Tədqiqatçılıq metodu şagirdləri müstəqil axtarıcılıq fəaliyyətinə cəlb etməklə bədii əsəri müstəqil təhlil etmək, tədqiqatçılıq bacarığını inkişaf etdirir. Müəllim dərsdə tədqiq edilən problemin kollektiv, qruplar üzrə, fərdi araşdırılmasını təşkil edir, tövsiyələr, məsləhətlərlə şagirdləri mövzu, problemin həllinə istiqamətləndirir.

Problemli sualın qoyuluşu, tədqiqat səciyyəli tapşırıqlar bu metodun üsulları, əsərin bütövlükdə və ya bir hissəsinin müstəqil təhlili, tamaşanın, filmin qiymətləndirilməsi isə şagirdlərin iş növləridir.

Reproduktiv (bərpaedici) metodun tətbiqi materialın şagird tərəfindən mexaniki, ehkam kimi mənimsənilməsini nəzərdə tutmur. Məktəblinin biliyi şüurlu şəkildə mənimsəməsi, təfəkkürünün inkişaf etdirilməsi üçün materialın problemli şərhinə, fikri fəaliyyətin stimullaşdırılmasına xüsusi diqqət yetirilir. Müəllim materialı problemli şərh edərkən onun mahiyyəti ilə bağlı müxtəlif fikirlərə münasibət bildirir, ardıcıl şəkildə, dəlillər gətirərək həlli yollarını göstərir. Müəllim kiçik həcmli əsərin, epizodun, qəhrəmanın müstəqil təhlilini aparmaqla şagirdlərə təhlil yollarını öyrədir. Bu zaman material yalnız hazır şəkildə mənimsənilmir, ümumiləşdirmə, yekunlaşdırma da aparılır.

Göründüyü kimi, bilavasitə ədəbiyyat təlimi üçün səciyyəvi olan yaradıcı oxu, evristik, tədqiqatçılıq, reproduktiv (bərpaedici) metodlar fəal/interaktiv metodlarla ziddiyyət təşkil etmir, əksinə, həmin metodlar bir-biri ilə əlaqəlidir, biri digərini tamamlayır, inkişaf etdirir.

Ümumtəhsil məktəblərində kurikulum üzrə dərslərin iki tipindən geniş bəhs olunur : İnduktiv dərs, deduktiv dərs. İnduktiv dərsdə şagirdlər xüsusidən, konkret fakt və hadisələrdən çıxış edərək ümumi nəticəyə gəlir, qanunauyğunluğu aşkara çıxarırlar. Ədəbiyyat dərslərində induksiya əsasında evristik müsahibə, əsərin mətni üzrə müşahidələr, araşdırmalar aparılır. Şagirdlər bədii əsərin mövzusunu, obrazlarını, bədii xüsusiyyətlərini təhlil edərək sənətkarın niyyəti, əsərdəki başlıca ideya haqqında nəticə çıxarırlar. Deduktiv dərsdə isə şagirdlər yeni biliyə müşahidə olunmuş faktların ümumiləşdirilməsi nəticəsində yox, öyrənilən mövzu, problemə xas olan daha ümumi qanunauyğunluqların, modellərin əsasında yiyələnirlər. Yeni biliyin mənimsənilməsi prosesi və ya hər hansı idraki tapşırığın yerinə yetirilməsi ümumi müddəalardan başlayır və onların konkret mətnə, mövzuya tətbiqi ilə yekunlaşır. Məsələn, şagirdlər bədii əsərdə süjetin mərhələləri haqqında nəzəri biliklərə yiyələnir, sonra hər dəfə yeni süjetli əsərləri keçəndə əvvəlki nəzəri biliklərə istinad edərək konkret mətndə süjetin mərhələlərini müəyyənləşdirirlər.

Təlim prosesində induksiya və deduksiya bir-biri ilə üzvi əlaqədə olur.



Scanned with ACE Scanner

Odur ki, dərsdə induksiya ilə deduksiyanın bir-birindən təcrid edilməsindən yox, qarşılıqlı tətbiqindən danışmaq daha məqsədəuyğundur.

Məlumdur ki, fəal/interaktiv dərsin səmərəliliyi müəllimin planlaşdırma və bələdçilik (fasilitasiya) bacarıqlarından asılıdır. Hələ XIII əsrdə C.Rumi yazırdı ki, insanlar iki cürdür: bilikli və nicat yoluna girib bilik öyrənməyə çalışan. Bilikli bələdçiyə bənzəyir: yola çıxanların işinə yarayır. (Mövlanə Cəlaləddin Rumi. Eşq pərvanəsi. Bakı: Nurlar, 2009.s.108). Müəllim dərsin bütün mərhələlərində görüləcək işləri dəqiq planlaşdırmalı, ciddi hazırlıq işləri görməlidir. Dərsə hazırlıq zamanı qarşıya qoyulan təlim məqsədlərinin (öyrədici, inkişafetdirici, tərbiyəetdirici məqsədlər) düzgün müəyyənləşdirilməsi, hansı idraki bacarıqlar üzrə iş aparılacağı (tətbiq etmək, tərkib hissələrinə ayırmaq, əlaqələndirmək, müqayisə etmək, ümumiləşdirmək, nəticə çıxarmaq və s.) aydınlaşdırılmalıdır. Təlimin məqsədləri müəyyənləşdirilərkən dərsin mövzu üzrə dərslər sistemində yeri, təlim materialının xarakteri, şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınır.

Müəllim öyrəniləcək proqram materialının məzmununu, hansı təlim metodlarından istifadə ediləcəyini, dialoq, əməkdaşlıq, tədqiqat mühitini necə yaradacağını, hər mərhələdə və yekunda qiymətləndirməni necə aparacağını dəqiq bilməlidir. Bu məqsədlə sual və tapşırıqlar, iş vərəqləri, qiymətləndirmə vərəqi və cədvəlləri, əyani, texniki vəsaitlər, əlavə mənbələr (ensiklopediya, sorğu kitabı və s.), testlər hazırlanır.

Fəal/interaktiv dərslərdə şagird tədqiqatçı kimi fəaliyyət daşıyır. Onun yeni bilik və bacarıqlara yiyələnməsi tədqiqatın aparılması qanunlarına əsaslanmaqla keçirilir. Bu dərslərdə şagirdlərin tədqiqatçılıq, müzakirə olunan məsələdə əsas və ikinci dərəcəli cəhətləri seçmək, başlıca fikri müəyyənləşdirmək, təhlil aparmaq, qruplaşdırmaq, müqayisə etmək, ümumiləşdirmək, nəticə çıxarmaq, təqdim etmək bacarıqları inkişaf etdirilir. Məktəblilər yeni bilik və bacarıqlara şüurlu yiyələnir, onu əvvəl qazanılmış bilik və bacarıqlarla əlaqələndirir, təcrübədə tətbiq edirlər.

Fəal/interaktiv təlim zamanı məktəblilərin yaddaşının gərəksiz, ona həyatda heç vaxt lazım olmayacaq müxtəlif informasiyalarla, biliklərlə yüklənməsinin qarşısı alınır, biliyin müstəqil şəkildə mənimsənilməsi, artırılması üzrə bacarıqlar formalaşdırılır, öyrənməyi öyrətmək niyyəti ön plana çəkilir. Necə deyərlər, insanın tox olması üçün ona bir balıq vermək kifayət deyil, balıq tutmağı öyrətmək lazımdır. Şagird bu prosesdə dərslikdəki hazır hökmləri əzbərləyib dil-dil ötərək öz fikri kimi təqdim etmir, qarşıya qoyulan problemi həll etmək üçün axtarışlar aparır. Bu zaman şagirdə nəyi və nə üçün, necə öyrənmək lazım gəldiyi, həmin fəaliyyətin yekunu olaraq hansı nəticələr əldə etməyin mümkünlüyü aydın olmalıdır. Bu prosesdə bilik və bacarıqlar müstəqil, yaradıcı fəaliyyət nəticəsində əldə edildiyi üçün məktəblilərin şəxsiyyət kimi formalaşmasının mühüm amilinə çevrilir.

Dərsdə bələdçi kimi çıxış etmək üçün də müəllim bir sıra bacarıqlara malik olmalıdır. Bununla əlaqədar, müəllimin bütün şagirdləri diqqətlə dinləməsi, əməkdaşlıq şəraitində düşünməyə, tədqiqatçılıq fəaliyyətinə sövq etməsi, təfəkkürünü stimullaşdırması, problemin həllində dəstək verməsi.



müxtəlif üsullarla rəğbətləndirməsi, səmimiyyət və ehtiram göstərməsi, tənqidi qeydlərini həssaslıqla çatdırması zəruridir. Bir çox müəllimlər yeni mövzu üzrə işi yekunlaşdırarkən şagirdlərdən soruşur: "Yeni mövzunu başa düşdünüzmü?". Sualın belə qoyuluşu əslində yeni biliyin mənimsənilməməsində şagirdlərin özlərinin günahkar olması qənaətini doğurur. Görkəmli alim Azad Mirzəcanzadə isə lisey şagirdləri ilə keçdiyi dərslərdə problem üzrə söbbət apararkən onlara belə bir sualla müraciət edirdi: "İzah edə bildimmi? Deyə bildimmi?".

Deməli, mövzunun şagirdlər tərəfindən mənimsənilməsi müəllimin metodik bacarıqlara malik olması, öyrənmə prosesini düzgün təşkil etməsindən asılıdır. A.İ.Gertsenin yazdığı kimi, çətin elm yoxdur, onun çətin, yəni həzm edilməyən şərhi vardır.

Fəal/interaktiv dərsin mərhələləri ilə bağlı məsələ də dəqiqləşdirmə tələb edir. Son illərdə metodik ədəbiyyatda Z.Veysovanın "Fəal/interaktiv təlim" vəsaitinə istinad edərək fəal/interaktiv dərsin 7 mərhələsindən (1.Motivasiya. 2.Tədqiqatın aparılması. 3.İnformasiya mübadiləsi. 4. İnformasiyanın müzakirəsi və təşkili. 5. Nəticələr və ümumiləşdirmə. 6. Yaradıcı tətbiqetmə. 7. Özünüqiymətləndirmə və refleksiya) bəhs edirlər. Bəzi metodistlər və müəllimlər, dərslikləri qiymətləndirən ekspertlər bu mərhələlərə ehkam kimi yanaşır, onları toxunulmaz sayırlar. Halbuki Z.Veysova özü bu məsələyə yaradıcı yanaşaraq, 2-ci sinif üçün "Azərbaycan dili" dərsliyi üzrə metodik vəsaitdə fəal/interaktiv dərsin 6 mərhələsindən (1.Motivasiya. 2.Tədqiqat sualı. 3.Tədqiqat işi. 4.Məlumatın mübadiləsi, müzakirəsi və təşkili. 5. Nəticənin çıxarılması. 6. Yaradıcı tətbiqetmə. Ev tapşırığı.) bəhs edir. (Veysova Z., Məcidova A. Müəllim üçün metodik vəsait. Azərbaycan dili – 2. Bakı: Çaşıoğlu, 2009, s.20).

"Həyati bacarıqlara əsaslanan təhsil" V-IX siniflərdə müəllim üçün tədris vəsaitində (Bakı: Mütərcim, 2006) fəal dərsin 8 mərhələsindən bəhs edilir, sinfin fəallaşdırılması xüsusi mərhələ kimi qeyd edilir.

Görkəmli psixoloq Ə.Əlizadə interaktiv dərsin mərhələlərindən danışarkən yazır: "Son nəticədə yaxşı olar ki, şagirdlərə kəşf etdikləri biliklərin yaradıcı tətbiqinə dair çalışma verilsin. Bu halda həmin bilik onların şüuruna həmişəlik həkk olunar. Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərslə məhdudlaşmaya da bilər, yəni onun həyata keçirilməsi sonrakı dərslərdə də mümkündür". (Əlizadə Ə. Müasir dərsin konseptual modeli məsələsinə dair. "Kurikulum" jurnalı, 2012 №4, s.20).

S.Hüseynoğlunun tədqiqatları, məktəb təcrübəsində sınaqdan çıxardığı interaktiv dərs nümunələri yaradıcı tətbiqetmənin ev tapşırığının verilməsi mərhələsi ilə əlaqələndirilməsinin səmərəliliyini sübut edir. Tədqiqatçı haqlı olaraq bu qənaətə gəlmişdir ki, istər bədii əsərin məzmununun öyrənilməsi, istərsə də təhlili üzrə dərslər bir-birini davam və inkişaf etdirir, əvvəlki dərsdə qaldırılmış ideya-estetik problemə, verilmiş yaradıcı tapşırığa növbəti dərsin müxtəlif mərhələlərində yenidən qayıdılır.

Aparılmış tədqiqatlar və məktəb təcrübəsi sübut edir ki, bir çox hallarda fəal/interaktiv təlimin bütün mərhələlərinə əməl edilməsi, məsələyə yaradıcı



Scanned with ACE Scanner

yanaşılmaması dərsdə vaxt çatışmazlığı problemi yaradır. Fikrimizcə, müasir ədəbiyyat dərsində sinfin təşkili, ev tapşırığının yoxlanılmasına (fəallaşdırmaya) ilk mərhələ kimi 3-5 dəqiqə vaxt ayrılmasına ehtiyac vardır. Müasir pedaqoji ədəbiyyatda interaktiv dərsin bu mərhələsi haqqında bəhs edilməsə də, kurikulum üzrə 5-ci sinif dərsliyi üzrə (Müəllifləri S. Hüseynoğlu, B.Həsənli, Ə.Səfərova, Ə.Quliyev. Bakınəşr, 2012.) dərslərin təşkili təcrübəsi belə bir mərhələnin zəruriliyini sübut edir. Fəal/interaktiv təlim zamanı şagirdlərdə idrak fəallığının yaradılması, problem həll edilənədək qorunub saxlanılması bir sıra amillərdən asılıdır. Metodik ədəbiyyatda təlimin səmərəliliyini təmin edən bir sıra psixoloji amillərin də nəzərə alınmasının zəruriliyi qeyd edilir.

İndi hamı bu həqiqəti qəbul edir ki, şagird eşitdiyini bir müddət sonra unudur, gördüyünü müəyyən vaxt ərzində yadda saxlayır, lakin yalnız özü tapdığından, öyrəndiyindən, kəşf etdiyindən həmişə bəhrələnir. İnteraktiv metodların tətbiq olunduğu dərslər elə təşkil olunmalıdır ki, məktəbli yeni biliyin "kəşfində", həqiqət axtarışlarında fəal iştirak etsin, əsərdə təsvir edilənləri "yaşamağı", oradakı hiss və duyğuları özününküləşdirməyi bacarsın.

İnteraktiv təlim zamanı şagirdlərdə idraki maraq, problemin həlli üçün tədqiqat aparmağa tələbat yaradılmalıdır. İstənilən tədqiqat isə ilk növbədə problemli vəziyyətin yaradılması, öz həllini gözləyən problemin qoyuluşu ilə başlanır.Bu məqsədlə dərsdə birmənalı cavabı olmayan, müxtəlif fərziyyələr, ziddiyyətli fikirlər yaradan, maraq doğuran, şagirdi bir növ yol ayrıcında qoyan suallardan istifadə edilir. Tədqiqat sualı şagirdlər üçün güccatan səviyyədə olmalı, tədqiqat aparmağa, bilik və bacarıqları yeni situasiyada tətbiq etməyə imkan verməlidir.

Müşahidələr göstərir ki, bəzi müəllimlər fəal/interaktiv dərsdə tədqiqat sualının müəyyənləşdirilməsində çətinlik çəkirlər. Bəzən tədqiqat sualı kimi əhəmiyyətsiz bir məsələ seçilir, sualın cavabını şagirdlər heç bir tədqiqat aparmadan tapa bilirlər. Tədqiqat sualının müəyyənləşdirilməsi müəllimdən öyrənilən mövzunun, əsərin dərin bələdlik, bədii əsərin təhlili üzrə bacarıqlar tələb edir. Bu baxımdan bəzən ədəbiyyatşünaslıqda, dərsliklərdə verilən hökmlərə tənqidi yanaşmaq lazım gəlir. Məsələn, ədəbiyyat dərslərində C.Cabbarlının "Oqtay Eloğlu" əsərinin təhlili zamanı şagirdlərdə Oqtayın yalnız milli teatr yaratmaq uğrunda mübarizə aparması təsəvvürü yaradılır. Halbuki, Oqtay cəmiyyətdəki pul, var-dövlət hərisliyinə, haqsızlığa, rəzalətə etiraz edən üsyankar bir qəhrəmandır.

Əsərin təhlilinə həsr olunmuş dərsdə tədqiqat sualı müəyyənləşdirilərkən Oqtayın dediyi aşağıdakı səhnəyə diqqət yetirilir: Oqtay Eloğlu Aslan bəyin təklif etdiyi pulları onun üzünə çırparaq deyir: "Bəli! Budur səbəb, bu! Yüksək bir eşqi alçaq bir oyuncağa çevirən, üç ildə iki söz deməkdən utanan məsum bir yavrunu qramafonlar kimi söylədən budur, bu! Düşünən beyinlər, çırpınan ürəklər bunlara satılır... Fəqət mühit irəliləyir. Çəkməz çox zaman ki, taleyi ilə oynadığınız bu zavallı xalq özü əməlpərvər gənclər, böyük qəhrəmanlar, mübarizlər yetirəcək, mühit sizi qabaqlayacaq və gərəksiz əski



parçaları kimi işıqlıqda qaranlıqlar, aydınlıqda kölgələr deyə diri ikən tarixin arxivlərinə atacaqdır. Əsərin sonunda Oqtay öz arzularınıdan, apardığı mübarizənin məqsədindən söz açır: "elə bir həyat qurulmalıdır ki, orada hər söz bir qanun, hər şey bir həqiqət olsun. Hər şey göründüyü kimi deyil, olduğu kimi görünsün... Mən dünyada ədalət divanı adına bir şey tanımıram. Hamısı yalandır. Mən ancaq bu zavallı xalqı tanıyır, ona müraciət edirəm".

Əsərin ideya-məzmununun, eləcə də yuxarıda qeyd etdiyimiz sitatların təhlili tədqiqat sualının müəyyənləşdirilməsinə zəmin yaradır: Oqtayı cəmiyyətdəki pul, var-dövlət hərisliyinə, haqsızlığa, rəzalətə etiraz edən üsyankar bir qəhrəman saymaq olarmı?

H.Cavidin "İblis" mənzum faciəsinin də yalnız müharibə əleyhinə yazılmış əsər kimi təqdimi də tədris prosesində özünü doğrultmur. Tədqiqat sualının düzgün müəyyənləşdirilməsi təlim prosesində əsərdə qoyulmuş dərin fəlsəfi, ictimai, mənəvi problemlərin fəal şəkildə müzakirəsi üçün zəmin yaradır. Problemin qoyuluşu zamanı aparılan müsahibə zamanı qeyd edilir ki, əsərin əvvəlində Arif başərin səadəti haqqında gözəl arzularla yaşayan bir gəncdir. Yer üzündə insanların düşdüyü faciələri, ədalətsizliyi, zülmü görmək istəməyən Arif sarsıntı keçirir, böhranlı hallar yaşayır. O, Allaha yalvarır ki, insanların acı fəryadlarını eşitməmək, həyatdakı faciələrdən qurtulmaq üçün onu göylərə qaldırsın. Arif Allahın dərd içində əzilən, məhv olan insanların fəryad dolu sədalarını, yalvarışlarını səbirlə seyr etməsinə heyrətlənir, bunun səbəbini başa düşə bilmir. Lakin yaşadığı mühitin, sərvət, şərab, silahın pozucu təsiri ilə Arif özü də dəyişir, ülvi arzularla yaşayan bir gəncdən qardaşı Vasifin və bir zamanlar sevdiyi Xavərin qatilinə çevrilir.

Müzakirə nəticəsində tədqiqat sualı müəyyənləşdirilir: Arifin mənəvi iflasında, faciəsində günahkar kimdir?

Qruplara müxtəlif tapşırıqlar verilir: 1. Müəllif əsərdə "İblis kimdir yox, nədir?" deyir, bu obraza nə üçün canlı varlıq kimi yanaşmır?

- İblis nədir?
- Cümlə xəyanətlərə bais.
- Ya hər kəsə xain olan insan nədir?
- İblis.

2-ci qrupa verilən tapşırıq İblisin əsərin sonundakı monoloqu ilə bağlıdır.

3-cü qrupa verilən tapşırıq əsərdə müəllif mövqeyini dəqiqləşdirməyə xidmət edir: Dramaturqun insan xislətindəki qüsurlardan söz açmaqda niyyəti nədir? Bu tipli tapşırıqların müzakirəsi zamanı şagirdlərə aydın olur ki, müəllif bu qüsurları acı təəssüf hissi ilə göstərməklə onların insana yabançı, dağıdıcı mahiyyətini açmaq, oxucunu, tamaşaçını ayıltmaq, düşündürmək istəmişdir. Sənətkarın fikrincə, xeyirxahlığın da, şərin də mənbəyini göylərdə deyil, cəmiyyətdə, insanların daxilində axtarmaq lazımdır. İnsanlığın çıxış yolu birləşib şərə qarşı mübarizəyə qalxmaqdadır. Adətən bunu insan əməli kimi yox, onu yoldan çıxaran İblisin əməli kimi yozurlar. H.Cavid isə bütün bəlaların mənbəyi hesab edilən İblisi rəmzi səciyyə daşıyan surət kimi təqdim edir. Sənətkarın fikrincə, baş verən faciələrdə, ədalətsiz müharibələrdə, insanların törətdikləri saysız-hesabsız cinayətlərdə mifik obraz olan İblis



Scanned with ACE Scanner

deyil, nəfsə uyan, şər ehtiraslarının quluna çevrilən insanların özü günahkardır. Problemli səciyyə daşıyan tədqiqat sualı bərpaedici səciyyəli suallardan bir sıra xüsusiyyətləri ilə fərqlənir: 1. Problemli tədqiqat sualında şagirdlər üçün həlli çətinlik törədən, bəzən ziddiyyət formasında müəyyən mürəkkəblik olur. 2. Tədqiqat sualı şagird üçün cəlbedici olmalı, onu maraqlandırmalı, tələbatlarına cavab verməli, eyni zamanda əsərin ideya-məzmununa uyğun olmalıdır. 3. Problemli tədqiqat sualı yığcam olsa da, təkcə bir fakt üzərində qurulmamalı, bütün əsəri, öyrənilən geniş materialı əhatə etməlidir.

Məktəb təcrübəsi informasiya mübadiləsi və informasiyanın müzakirəsi mərhələlərini bir-birindən ayırmağa ehtiyac olmadığını sübut edir. Həmin mərhələlərin birləşdirilərək "Qazanılmış biliklərin (tədqiqatın nəticələrinin) mübadiləsi və müzakirəsi" adlandırılması daha məqsədəuyğundur.

Yaradıcı tətbiqetmə mərhələsi də yeni yanaşma tələb edir. Təcrübə qazanılmış bilik və bacarıqların yaradıcı tətbiqinin bir sıra hallarda təlim prosesinin məntiqindən çıxış edərək ev tapşırığı şəklində (inşa, esse və s.) verilməsinin səmərəliliyini sübut edir.

Fəal/interaktiv dərsdə ev tapşırıqlarının verilməsi məsələsi də mübahisələrə səbəb olur. Bəziləri fəal/interaktiv yeni mövzunun dərsdə öyrənilməsinin zəruriliyini vurğulayır, ev tapşırığının verilməməsini yeni texnologiyalarla keçilən dərsin başlıca xüsusiyyəti hesab edirlər. Lakin unudulur ki, yeni təlim texnologiyalarının tətbiq olunduğu Almaniyada ev tapşırığı ləğv olunan məktəblərdə ikiqat dərslər keçirilir. Ev tapşırığı məktəbdə günortadan sonra keçilən məşğələlərdə müəllimin nəzarəti altında yerinə yetirilir. Bu halda, müəyyən bir mövzuda geri qalan şagirdlər əlavə biliklərə də yiyələnə bilirlər.

Respublikamızın qabaqcıl müəllimləri hər dərsin sonunda şagirdlərə biliyi müstəqil tətbiq etmək, təqdimat, çıxış hazırlamaqla bağlı müəyyən ev tapşırıqları (yaradıcı tətbiqetmə) verirlər. Həmin tapşırıqlar növbəti dərsin ilk mərhələsində az vaxt ərzində seçmə yolla yoxlanılır. Məlum həqiqətdir ki, ev tapşırığının icrası vəziyyəti yoxlanılmırsa, onu verməyə də dəyməz. Çünki müəllimin ev tapşırığına, yaradıcı tətbiqetməyə laqeyd münasibətini görən şagird tədricən həmin tapşırıqları yerinə yetirməyəcəkdir. Bu mərhələdən bəhs edərkən dərsin əvvəlində müəllimin müəyyən təşkilati işlər görməsi, şagirdləri qruplara ayırması zərurəti də nəzərdən qaçırılmamalıdır.



# İCMAL MÖVZULARININ TƏDRİSİNDƏ YENİ TEXNOLOGİYALARIN TƏTBİQİ

**Fəxrəddin YUSİFOV,**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent**

Onuncu sinifdə icmal mövzularının tədrisi üçün standartlar müəyyən edilməmişdir. Ola bilsin ki, gələcəkdə bu cür mövzuların tədrisi nəzərdə tutulmasın. Amma köhnə proqramın tələbinə əsasən hələlik bu mövzular 5 il tədris olunacaqdır. Bunu, fəal (interaktiv) təlim və yenilik arzusu ilə işləyən müəllimlərimizin ehtiyaclarını nəzərə alaraq X sinif üçün belə bir dərs nümunəsini təqdim edirik.

**Mövzu:** "Qədim dövr Azərbaycan ədəbiyyatı" (1-ci saat).

**Dərsin təlim nəticələri (təlim məqsədi):**

1. Qədim dövr Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətlərini bilir.
2. Ədəbiyyatın inkişaf meylini izah edir.
3. Ədəbi nümunələrdə əksini tapan müsbət keyfiyyətlərə, dəyərlərə münasibət bildirir.
4. Fakt və hadisələrə əsaslandırılmış münasibət bildirir.

**İş forması:** böyük və kiçik qrupda iş

**Dərsin tipi:** induktiv.

**Üsul:** suallar, müzakirə, beyin həmləsi.

**Təchizat:** iş vərəqləri, dərslik və s.

**Dərsin mərhələləri və təxmini vaxt bölgüsü:**

1. Motivasiya ........................................................ 4 dəq.
2. Tədqiqatın aparılması ...................................... 10 dəq.
3. Məlumat mübadiləsi ........................................ 10 dəq.
4. Məlumatın müzakirəsi və təşkili ....................... 8 dəq.
5. Nəticələrin çıxarılması ..................................... 3 dəq.
6. Yaradıcı tətbiqetmə .......................................... 7 dəq.
7. Refleksiya ......................................................... 3 dəq.

Cəmi: 45 dəq.

## Dərsin gedişi

**I. Motivasiya (4 dəq.).** Dərsin başlanğıcında mövzunun tapılması üçün müxtəlif variantlar seçilə bilər. Onlardan üçünü diqqətinizə təqdim edirik. Hər üç variant keçərlidir. Dərs zamanı onlardan birini istifadə etmək lazımdır.

1. Müəllim dərsin başlanğıcında mövzunun tapdırılması üçün belə bir cümləni səsləndirir: **Zaman onlardan uzaqlaşdıqca, onlar xalqına, onun mənəviyyatına daha yaxın olurlar. Klassiklərimizə tale məhz belə bir mənalı ömür bəxş etmişdir.** Sonra müəllim şagirdlərə müraciət edir. **Eşitdiyiniz cümlənin mənasına və məzmununa münasibətinizi bildirin.** Şagirdlərin təəssüratları alındıqdan sonra yenidən onlara müraciət olunur: -



Scanned with ACE Scanner

**Uşaqlar, sizcə bu gün biz nədən söhbət açacağıq?** Təbiidir ki, şagirdlər klassiklərimizdən, qədim dövrdə yaşayıb yaradan böyük sənətkarlarımızdan söhbət açıla biləcəyi fikrini irəli sürürlər. Müəllim onların fikrini təsdiqləyərək dərsin mövzusunu dəqiq şəkildə lövhəyə qeyd edir: "Qədim dövr Azərbaycan ədəbiyyatı".

2. Müəllim klassik irsimizin ədəbiyyatımızın inkişafında rolu barədə maraqlı bir fikri şagirdlərin nəzərinə çatdırır: **Azərbaycan bədii və ictimai fikir tarixi özündən sonra gələn yazarlar və mənsub olduğu xalq üçün həmişə qürur və iftixar mənbəyi olmuşdur.** Şagirdlər fikri dinlədikdən sonra onlardan soruşurlar. **Bu fikri necə qəbul edirsiniz? Ona münasibət bildirin.** Şagirdlərin mülahizələri dinlənilir. Sonra müəllim onlara ikinci bir sual ünvanlayır: **Necə bilirsiniz, biz bu gün nədən söz açacağıq?** Şagirdlərdən "qədim ədəbiyyat", "klassik ədəbiyyat" sözləri alınan kimi mövzunun adı dəqiq formada lövhəyə qeyd olunur: "Qədim dövr Azərbaycan ədəbiyyatı".

3. Müəllim S.Vurğundan belə bir misraları xatırladır:

*Ölməz könül, ölməz əsər,*
*Nizamilər, Füzulilər,*
*Əlin qələm, sinən dəftər,*
*De gəlsin hər nəyin vardır,*
*Deyilən söz yadigardır.*

- **Uşaqlar, bu şeir parçasının haradan götürüldüyü Sizə yaxşı məlumdur. Gəlin bu parçaya münasibət bildirək. Burada nədən söhbət gedir? Bu misralar Sizə hansı hissləri aşılayır? Birinci iki misranın məzmununa, sonra isə digərlərinə diqqət yetirin. Onlarda nədən söhbət açılır? ...Sizcə, bu gün biz nədən söhbət açacağıq?** Şagirdlərdən belə bir cavablar alına bilər: **ədəbiyyatımızın yaradıcılarından, klassik sənətkarlarımızın irsindən** və s. Müəllim onların fikirlərinin düzgün olduğunu söyləyir və məzmunu dəqiq şəkildə lövhəyə qeyd edir.

Mövzu tapdırıldıqdan sonra tədqiqat sualı ortaya qoyulur və o, lövhəyə yazılır: - **Sizcə, qədim dövr Azərbaycan ədəbiyyatı mövzu və janr baxımından hansı keyfiyyətlərə malik ola bilərdi?** Şagirdlərin ilkin ehtimalları alınır və lövhəyə qeyd olunur.

**II. Tədqiqatın aparılması (10 dəq.).** Şagirdlər qruplara bölünür. Hər qrupa müvafiq tapşırıq verilir, tədqiqatın vaxtı və qiymətləndirmə meyarları elan edilir.

*1-ci qrup: "Avesta" haqqında məlumatları və əsas məqamları qeyd edin.*

*2-ci qrup: Azərbaycanın qədim inancı, həmin inancın fəlsəfəsi barədə məlumatları toplayın və yazın.*

*3-cü qrup: "Dədə Qorqud" dastanı, onun əsas ideyası ilə bağlı məlumatları seçin. Onun bu günümüz üçün əhəmiyyəti barədə fikirlərinizi qeyd edin.*

*4-cü qrup: Azərbaycan ədəbiyyatının qədim dövrdə hansı dillərdə, hansı janrlarda yaranmasına dair məlumatları toplayın. Səbəbini göstərməyə çalışın.*



*5-ci qrup: Yazılı ədəbiyyatımızın nümayəndəsi kimi Qətran Təbrizi barədə məlumatlara nəzər salın. Onun irsinin əhəmiyyəti barədə fikirlərinizi qeyd edin.*

***III. Məlumat mübadiləsi (10 dəq.).*** *Vaxt bitdikdən sonra qrup liderləri tədqiqatlarının nəticələri ilə digər yoldaşlarını tanış etməyə başlayırlar. Müəllim reqlamenti elan edir (hər çıxışa 2dəq.) və təqdimatlara başlanılır. Hər bir təqdimata sinifdən sual verilə bilər. Sonda təqdimatlara ümumi məlumat verilir.*

***IV. Məlumatın müzakirəsi və təşkili (təsnif olunması, qruplaşdırılması) (8 dəq.).*** *Müəllim iş vərəqlərindəki məlumatların müzakirəsini həyata keçirməyə başlayır. Onlar arasında əlaqələr qurur, oxşar cəhətləri tapdırır. Əsas fikri həmin dövrdəki ədəbi nailiyyətlərin dəyərinin düzgün tutulmasına yönəldir. Bu zaman aşağıdakı yardımçı suallardan da istifadə oluna bilər:*

- *Həmin dövrü səciyyələndirən hansı xüsusiyyətlərlə tanış olduq?*
- *Bu dövrün ədəbi nailiyyətləri hansılar idi? Onların dəyəri nədən ibarət idi?*
- *Ədəbiyyatımızın fərqli dillərdə yaranmasına səbəb nə idi?*
- *"Avesta" və "Dədə Qorqud" dastanını hansı cəhətlər birləşdirə bilər?*
- *Qətran Təbrizi irsinin bizim üçün dəyəri nə ola bilər?*

***V. Nəticənin çıxarılması (3 dəq.).*** *Bu mərhələdə yekun qənaətlərlə motivasiya mərhələsində irəli sürülən tədqiqat sualı və ona verilən ilkin cavablar (fərziyyələr) müqayisə edilməyə başlanır. Nələrin üst-üstə düşdüyü, nələrin yeni olduğu ortaya çıxarılır.*

***VI. Yaradıcı tətbiqetmə (7 dəq.).*** *Bu mərhələdə şagirdlərə təklif edilir ki, onlar bu dövr ədəbiyyatını başqa cür necə görmək istədiklərini qeyd etsinlər. Tapşırığın icrasına vaxt verilir və vaxt bitəndən sonra 5-6 nəfərin yazısı oxunur.*

***VII. Refleksiya (3 dəq.).*** *Bu mərhələdə biliklərin necə əldə olunması yoluna nəzər salınır, ev tapşırıqları elan olunur və dərs yekunlaşır.*

***Diqqət! Diqqət!***

*Biz Sizə – zəngin pedaqoji iş təcrübəsinə malik orta məktəb müəllimlərinə, elmi-metodik tədqiqatlarla məşğul olan alimlərə müraciət edirik. Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə bağlı iş təcrübələrinə, metodikaya dair yazılara ehtiyacımız var. Jurnalımızla yaxından əlaqə saxlayın və onu məqalələrinizlə təmin edin. Unutmayın ki, o, Sizin jurnalınızdır.*

***Redaksiya.***



Scanned with ACE Scanner

# QRAMMATİKANIN TƏDRİSİNDƏ QARŞIYA ÇIXAN BƏZİ PROBLEMLƏR

**Sədaqət HƏSƏNOVA,**
**filologiya elmləri doktoru, professor**

İndi müstəqil Azərbaycan Respublikası inkişafın fərqli bir mərhələsini yaşayır. Belə ki, inkişafın bütün istiqamətlərində bəşəri dəyərlərə həmişəkindən daha artıq əhəmiyyət verilir. Ölkəmizdə milli təhsil də inkişafın belə dəyərlərə uyğunlaşan bir mərhələsindədir. Sözsüz ki, milli dilimiz də bu inkişafdan kənarda qala bilməz. Dilimizin bir sıra sahələrdə yeni inkişaf meyilləri onun tədrisinə də təsir edir və bununla da, müəllim və tələbələrin xüsusi diqqət və bacarığına ehtiyac duyulur. Ona görə ki, dildə bəşəri dəyərlərə yiyələnmək prosesində hədsizlik bəzən özgələşməyə yön alır və bu, dilin saflığına və düzgün inkişafına əngəl törədir. Əslində, bəşəri dəyərlər milli dəyərlərin iflasına gətirib çıxartmaq demək deyil, onlar dünyadakı ən optimal metod, ən gözəl analiz, ən dərin elmi-nəzəri və metodik araşdırma nəticələrinə yiyələnmək, milli dəyərlər əsasında yenilikləri tətbiq etməkdən ibarət olmalıdır. Belə olduqda, həm milli dəyərlərimiz qorunar, həm də onlar bəşəri dəyərlərin mənəviyyatımıza uyğun olanlarından istifadə ilə zənginləşərək yeni inkişaf mərhələsinə qədəm qoyar. Təəssüf ki, bəzən "müasirləşmək", "bəşəri dəyərlərə malik olmaq" adı ilə yabançılaşmağa yönəlirik və bu, bəzi elm sahələrində, o cümlədən Azərbaycan dilinin qrammatikasında da özünü göstərir.

Elmdə yabançı meyilləri yalnız çağdaş dövrlə bağlamaq düzgün deyil, çünki Azərbaycan dilinin qrammatikasının sovet dönəmindən başlayaraq rus dilçiliyinin təsiri altında olması məlumdur. İndi isə dilçilik əsərlərində Avropa dilçiliyinin təsiri özünü göstərməkdədir və rus dilçiliyinin təsiri də ömrünü başa vurmayıb. Bu isə dildə sünilik yaradır, yabançılığa meylin çəkisini ağırlaşdırır. Ona görə də milli dilin qrammatik qayda-qanunları əsasında yazılan yeni ədəbiyyatlara, xüsusilə də dərsliklərə, metodik vəsaitlərə ehtiyac duyulur. Bəzən dildə elə bir faktla qarşılaşırıq ki, həmin fakt haqqında ya yazılmayıb, ya yazılanlar çağdaş zamanla ayaqlaşmır, ya da onlar haqqında formalaşan fikirlər həqiqətlərə uyğun deyil. Təəssüf ki, belə məqamlarda müəllimlərin çoxu "kitabda belə yazılıb" deməklə yaxasını kənara çəkir. Əsl müəllim yaradıcı olmalı, elmi-nəzəri fikirlərə münasibət göstərməli, problemli məsələlərin həllində faktik materiallardan istifadə etməyi və onları düzgün qiymətləndirməyi bacarmalıdır. Bu, xüsusilə də ali məktəb müəllimlərinə aiddir.

Azərbaycan dili qrammatikasında bir sıra mübahisəli və qaranlıq məqamlar vardır. Xüsusilə də, qrammatikanın morfologiya bölməsində özünü göstərən problemli mövzuların tədrisi zamanı müəllim və tələbələr müəyyən çətinliklərlə qarşılaşırlar ki, onların aradan qaldırılması zəruridir. Bu çətinlik,



ilk növbədə, bəzi dil faktlarının məqamının müəyyənləşdirilməməsində və ya elmi baxımdan indiyə qədər əsaslandırılmamasında özünü göstərir.

Beləliklə, qrammatikanın morfologiya bölməsinin tədrisində bir sıra mövzulara aydınlıq gətirilməsi zəruri məsələlərdən biridir. Bu baxımdan, "tərkibi" adı verilən mürəkkəb quruluşlu nitq hissələrinin tədrisi maraqlıdır. Həmin mövzudakı problemlərlə üzləşən müəllim vəziyyətdən çıxmaq üçün tələbələri düzgün məlumatlandırmaq naminə yalnız dil faktlarına müraciət etmək yolunu seçməlidir.

Tərkib məsələsi, əslində, sintaksisə aiddir. Lakin morfologiyada da tərkiblər var və onlar müstəqil bir nitq hissəsini təşkil edir. Məlumdur ki, ayrı yazılan mürəkkəb sözlər tərkibi nitq hissəsi hesab olunur. Say mövzusuna qədər tərkibi nitq hissələri haqqında bəhs edə bilmirik. Çünki mürəkkəb quruluşlu isim və sifətlərin içində iki (və ya daha çox) sözdən ibarət olub ayrı yazılan örnək yoxdur. Saydan başlayaraq, tərkibi nitq hissələri ilə tanış oluruq. Morfologiyada sözlərin birləşərək tərkib əmələ gətirməsi qrammatikanın iki bölməsinin qarşılıqlı əlaqələrinin güclənməsi ilə bağlıdır. Bir tərəfdən də bu, dildə faktların bir-birinin yerinə keçməsi hadisəsi ilə əlaqəlidir. Hazırda dildə elə faktlar mövcuddur ki, onların düzgün qrammatik təhlili çətinlik törədir. Belə ki, tərkib şəklində olan həmin faktlar xırdalandıqda – onları təşkil edən sözlər bir-birindən ayrılıqda təhlil edildə bəzən bir yox, iki nitq hissəsi haqqında danışmaq zəruriyyəti yaranır. Halbuki morfologiyada hər bir söz ayrıca bir nitq hissəsi kimi izah olunmalıdır. Lakin hazırkı dil faktlarının bəziləri bu qaydaya uyğun gəlmir. Bu baxımdan, qeyri-müəyyən miqdar sayları diqqəti çəkir.

Dilçilik ədəbiyyatlarında qeyri-müəyyən miqdar sayları haqqında üç şəkildə qruplaşdırılmış faktlardan bəhs olunur. Bunların bir qrupu *az, çox, xeyli, bir qədər, bir neçə* kimi sözlərdən ibarət olan, ikinci qrupu *milyonlarla, onlarca* kimi saylardan ibarət olan, üçüncüsü isə *beş-altı, on-on beş* kimi təqribi saylardan ibarət olan qeyri-müəyyən miqdar saylarıdır. Lakin dildə mövzu ilə bağlı bir sıra digər faktlar vardır ki, elmi-nəzəri ədəbiyyatlarda onlar diqqətdən kənarda qalsalar da, dilimizdə fəal leksik-qrammatik örnəklər sırasına daxildir. Əslində, dil faktları imkan verir ki, qeyri-müəyyən miqdar sayları həmin mənada işlənən bütün faktları nəzərə alaraq tədris edilsin. Bu anlamda, həmin sayları aşağıdakı qruplara ayırmaqla tədris etmək daha düzgün və maraqlı olar:

1. Sözlə ifadə olunan qeyri-müəyyən miqdar sayları (*çox, bir qədər, xeyli, bir neçə, az*).
2. Şəkilçi (*-larla*$^2$, *-larca*$^2$) qəbul etmiş müəyyən miqdar sayları ilə ifadə olunan qeyri-müəyyən miqdar sayları (*milyonlarla, yüzlərlə, onlarca, minlərcə*). Bu şəkilçilər bütün saylara qoşula bilmir. Məsələn, *on beşlərlə, iyirmilərlə* və s. deyə bilmirik. Faktlar göstərir ki, *-larla*$^2$, *-larca*$^2$ şəkilçiləri riyaziyyat elmində "mərtəbə vahidləri" adlanan *on, yüz, min, on min, yüz min, milyon, on milyon, yüz milyon və bəzən də milyard* sözləri ilə işlənir.
3. "Təqribi saylar" (əslində, bu terminə də aydınlıq gətirmək lazımdır. Çünki bütün qeyri-müəyyən miqdar sayları təqribi və ya təxminidir, onlar konkret



Scanned with ACE Scanner

bir kəmiyyəti ifadə edə bilmir) adı ilə tanınan, birincisi kiçik, ikincisi ondan böyük kəmiyyət ifadə edən iki müəyyən miqdar sayının iştirakı ilə formalaşan qeyri-müəyyən miqdar sayları (*beş-altı, üç-dörd, əlli-altmış* və s.).

4. Çıxışlıq hal şəkilçisi qəbul etmiş müəyyən miqdar saylarının *çox, az, artıq* sözləri ilə işlənməsi nəticəsində formalaşan qeyri-müəyyən miqdar sayları (*20-dən artıq, otuzdan çox, 15-dən az* və s.).

5. Yönlük halda işlənən müəyyən miqdar saylarının "qədər", "yaxın" və şəkilçi formasında olan *-can*[2], *-dək* qoşmaları ilə işlənməsi nəticəsində formalaşan qeyri-müəyyən miqdar sayları (*20-yə yaxın, qırxa qədər, on beşəcən, otuzadək* və s.).

Sonuncu bölgü mübahisələrə səbəb ola bilər. Çünki quruluş baxımından mürəkkəb-tərkibi hesab etdiyimiz bu sayların tərkibində iki nitq hissəsi özünü göstərir, yəni *qədər, -dək və -can*[2] qoşma mövzusunda da öyrənilir və həmin köməkçi nitq hissəsinə aid örnəklərdir. Lakin bu da maraqlı və real faktdır ki, onlar yönlük halda işlənən müəyyən miqdar sayları ilə birlikdə qeyri-müəyyən miqdar saylarını əmələ gətirir. Bəs morfoloji təhlil prosesində qarşıya belə faktlar çıxan zaman müəllim nə etməli, vəziyyətdən çıxış yolunu necə tapmalıdır? Cümlədəki sözlərin nitq hissələri baxımından, yəni morfoloji təhlilində bir söz bir nitq hissəsi kimi izah olunmalı, daha doğrusu, sözlər ayrılıqda təhlil edilməli, hər bir sözün hansı nitq hissəsinə aidliyi müəyyənləşdirilməlidir. Sözügedən qeyri-müəyyən miqdar saylarının tərkibində isə iki nitq hissəsinin göstəriciləri vardır. Fikrimizcə, həmin dil faktlarının morfoloji təhlilində tərkibə daxil olan sözlər hər biri ayrıca müəyyənləşdirilməli, nəticədə onların hansı nitq hissəsini formalaşdırdığı aydınlaşdırılmalıdır. Məsələn, belə:

Auditoriyada *iyirmiyə qədər* tələbə əyləşmişdi.

Burada *iyirmi* saydır, ayrılıqda müəyyən miqdar sayıdır, sadədir, ismin yönlük hal şəkilçisini qəbul edib. Lakin özündən sonrakı *qədər* qoşması ilə birlikdə əvvəlki mənasından (müəyyən miqdar sayı olmaq anlamından) uzaqlaşır və qeyri-müəyyən say kimi işlənir. Belə olduqda onu sadə say hesab etmək mümkün deyil. Çünki o, təklikdə qeyri-müəyyənlik bildirmir, yalnız qoşmalarla işləndikdə qeyri-müəyyənlik mənası verir. Tərkibində iki söz iştirak etdiyi üçün onlar quruluşca mürəkkəb-tərkibi say kimi təhlil edilməlidir. Deməli, burada biri əsas, ikincisi köməkçi olmaqla, iki nitq hissəsinin örnəkləri vardır. Onların ikisi birlikdə miqdar saylarının bir növünü – qeyri-müəyyən miqdar saylarının bir hissəsini əmələ gətirir.

Buradan başqa bir məsələ də meydana çıxır. Məlumdur ki, *qədər* qoşması dilçilik ədəbiyyatlarında iki anlamda işlənən fakt kimi verilmişdir. Belə ki, o, bənzətmə qoşması (O da sənin *qədər* gözəldir) və məsafə bildirən qoşma kimi (Şagird məktəbə *qədər* qaçdı) izah olunmuşdur və ikinci mənada o, *-can*[2] və *-dək* qoşmalarının sinonimidir. Maraqlı faktdır ki, sözügedən qoşma yönlük halda işlənən saylara qoşularaq qeyri-müəyyən miqdar saylarının yaranmasına səbəb olaraq onların tərkibində işləndikdə nə məsafə, nə də bənzətmə mənası bildirir. Belə məqamlarda o, kəmiyyət mənası ifadə edir. Buradan belə bir nəticə meydana çıxır ki, "Qoşma" mövzusunun



tədrisində həmin qoşmadan danışarkən onun bu məqamını da aydınlaşdırmaq lazım gəlir. Və bu haqda nəzəri bilgilərin elmi ədəbiyyatlara daxil edilməsi önəmlidir.

Tədris prosesindəki çətinliklərin çoxu dərsliklərdəki problemlərlə bağlıdır. Çoxdan yazılmış dərsliklərin məzmunu bəzən çağdaş dövrün tələblərinə cavab vermir, problemli məsələləri həll etmək üçün bəzən onlarda kifayət qədər material tapmaq çətin olur. Ona görə də keçmiş dəyərli elmi-nəzəri fikirləri qoruyub saxlamaq və elmin inkişafı ilə bağlı faktik materialların əsaslandırdığı yenilikləri əlavə etməklə qrammatikamızın yenidən işlənməsinə böyük ehtiyac duyulur. Bunu dilimizin çağdaş inkişafı da tələb edir.

Dərsliklərimizdə morfologiyanın maraqlı mövzularından olan felin həm leksik, həm də qrammatik məna növlərindən danışılır. Və hardasa düzgün deyil ki, ümumi qrammatik mənasına görə hərəkət bildirən bu əsas nitq hissəsinin leksik məna növlərindən biri *hərəkət feilləri* adlanır. Bu, məntiq baxımından nə dərəcədə düzgündür? Bütün feillərin məzmununda hərəkət anlamı vardır. Hər bir feildən danışarkən onun hansısa bir hərəkəti ifadə etməsini düşünürük və bu, feilin leksik mənasıdır. Süni şəkildə feilləri leksik mənalara bölməyi düzgün hesab etmirik. Əgər feillərin leksik mənası *nitq feilləri, təfəkkür feilləri, iş feilləri, hərəkət feilləri, hal-vəziyyət feilləri* deyə növlərə ayrılırsa, onda nəyə görə digər əsas nitq hissələrinin leksik məna növləri haqqında danışmırıq. Əsas leksik mənadan başqa, onlarda da feillərdə olduğu kimi, müxtəlif məna çalarları vardır. Hərəkəti yerinə yetirməkdə orqanizmin hansısa üzvü fəaldır deyə, feilləri leksik baxımdan bir-birindən ayırmaq onun ümumi hərəkət anlamına xələl gətirir və əgər belə qəbul edilirsə, o zaman onun tərifi, ümumi qrammatik anlamına görə nəyi bildirməsi yerinə düşmür. Ona görə də "felin leksik məna növləri" terminine aydınlıq gətirmək lazımdır. Bundan başqa, "felin qrammatik məna növləri" termininin tərkibində "qrammatik" sözü vardır, lakin həmin növlərin şəkilçiləri leksik şəkilçilər hesab edilir. Bu məsələyə də aydınlıq gətirilməsinə ehtiyac vardır.

Maraqlı mövzulardan biri də qarşılıq-birgəlik feillərdır. Əslində, bunlar morfoloji əlamətləri (şəkilçiləri) eyni olan, lakin məzmunca fərqlənən ayrı-ayrı növlərdir. Belə ki, qarşılıq feillərdə hərəkət (iş) qarşı-qarşıya icra edilir. Birgəlik feillərdə isə iş hamı (həmin prosesdə iştirak edənlər) tərəfindən yerinə yetirilir. Məchul feillərlə qayıdış feillər arasındakı fərq nə qədərdirsə, qarşılıq və birgəlik feillər arasındakı fərq ondan da çoxdur. Belə olduqda, nə üçün məchul və qayıdış feillər ayrı-ayrı növlərə daxil edilir, qarşılıq və birgəlik feillər isə eyni növ daxilində verilir? Halbuki, doğrudan da, məchul və qayıdış feillərin arasındakı fərq qarşılıq və birgəlik feillər arasındakı fərqdən azdır. Belə ki, şəkilçi baxımından və təsirli feildən əmələ gəlməsinə görə məchul və qayıdış feillər eynidir, lakin onlar mənasına görə bir-birindən seçilir. Qarşılıq və birgəlik feillərdə isə yalnız şəkilçi eynidir. Həm məna fərqlidir, həm də onların yarandığı qaynaq ayrıdır. Belə ki, qarşılıq feillər təsirli feilllərdən, birgəlik feillər isə təsirsiz feillərdən yaranır. Belə



Scanned with ACE Scanner

olan təqdirdə nə üçün onlar eyni növ hesab edilsin? Qrammatiklər bu cəhətə diqqət etməli və yeni dərsliklərin tərtibində bunlar nəzərə alınmalıdır.

İcbar növ feillər haqqındakı biliklərə də aydınlıq gətirmək lazımdır. Belə ki, onların təsirli feillərdən əmələ gəlib təsirli olan feil kimi səciyyələndirilməsi bəzi dil faktlarına uyğun gəlmir. Heç olmasa, həmin feillərin tərifində "əsasən" sözünü işlətmək yerinə düşər. Məsələn, "təsirli feildən əmələ gəlib təsirli olan feillər, əsasən, icbar məzmunu bildirən feillərdir". Deyəndə ki, "icbar feillər felin digər qrammatik məna növlərindən fərqli olaraq təsirli feillərdən düzəlir və təsirli olaraq qalır", onda şagird və ya tələbə düşünür ki, belə feillərin hamısı icbar feillərdir. Dilimizdə bu qaydaya tabe olan elə feillər vardır ki, onlar icbar məzmunundan tamamilə uzaqdır. Məsələn, *bildir(mək)* feli. Bu feil təsirli feildən düzəlir və nəticədə təsirli olur. Lakin icbar feillərə aid deyil, məlum növdə olan feil örnəklərindən biridir. Ona görə də tədris prosesində ən yaxşısı budur ki, icbar feillərlə digər feilləri seçmək üçün müəllim diqqəti başqa bir cəhətə yönəltsin. Yəni belə demək olar ki, əgər işi birinci, ikinci və üçüncü şəxsin özü görürsə, bu feillər məlum feillərdir, əgər işi şəxsin özü görmür, başqası yerinə yetirirsə və bu işin əmr verəni, xahiş, təkid edəni, nəsihət edəni və s. varsa, o, icbar feildir.

Feil mövzusu ilə bağlı bir sıra şəkilçilər də diqqəti çəkir. Dilçilik ədəbiyyatlarının çoxunda onlar hərtərəfli şəkildə izah edilməyib. Belə şəkilçilərdən biri qrammatik *–mış*[4] şəkilçisidir. Bu şəkilçi həm feli sifətin, həm də feli bağlamanın tərkibində işlənir. Lakin onun işlənmə məqamları arasında fərq vardır. Belə ki, həmin şəkilçi həm ayrılıqda, həm də *-ma*[2] inkar şəkilçisi ilə birgə feli sifət formalaşdıra bilir. Məsələn, *dərilmiş çiçək, içilməmiş çay* və s. Lakin o, ayrılıqda feli bağlama yarada bilmir. Yalnız *–ma*[2] inkar şəkilçisi ilə birlikdə feli bağlama formalaşdıra bilir. Məsələn:

O, nəfəsini *dərməmiş* sözə başladı.

Ümumiyyətlə, feil mövzusuna yenidən baxmaq əhəmiyyətli olar. Çünki mövzu ilə bağlı terminlərin çoxunun alınma olması və bəzilərinin çağdaş şagird və tələbələr tərəfindən anlaşılmaması bunu əsaslandırır. Məsələn, fikrimizcə, *şühudi* sözü dilə yatan söz deyil və şağdaş qrammatikamız və öyrənənlər üçün onun qarşılığı ola biləcək, həmin mənanı əks etdirə biləcək başqa bir sözə ehtiyacımız var – *yaxın keçmiş* və ya yeni yaradılacaq başqa bir termin kimi. Dildə elə sözlər (*hava, zəhmət* və s.) var ki, onlar uzun illər, hətta on illər, yüz illər işlənərək, dilimizin fonetik qayda-qanunlarına tabe olaraq vətəndaşlıq hüququ qazanmışdır. Onları dildən çıxarmağın faydası yoxdur. Lakin elə sözlər də var ki, istifadə tarixi uzun zaman olsa da, dilimizə uyğunlaşa bilmir. Həmin sözlər, xüsusilə də, terminlər haqqında düşünməyə dəyər. Bu, dilimizə xeyir gətirər.

Bütün bu göstərilənlər tədris prosesində problemlərə səbəb olur və onların aradan qaldırılması diqqət, savad və məsuliyyət tələb edir. Problem yaradan məsələlər içərisində dərsliklərlə bağlı olanların da sayı az deyil. Onların qarşısını almaq üçün bütün dillərin təsirindən uzaq, milli dilimizin qrammatikasını doğru, düzgün əks etdirən yeni qrammatik əsərlərin, xüsusilə də dərsliklərin yazılması zəruridir.



# ƏNVƏR MƏMMƏDXANLININ BƏDİİ DÜNYASI

**İfrat ƏLİYEVA,**
**filologiya elmləri doktoru, professor,**
**respublikanın əməkdar müəllimi**

***Açar sözlər:*** *Ənvər Məmmədxanlı, publisistika, bədii nəsr, hekayə.*

*Ənvər Məmmədxanlı ədəbi prosesə həmişə təravət gətirən əsərləri ilə xalqımızın bədii-mədəni fikir xəzinəsinin zənginləşməsinə xidmət göstərmişdir. Onun yaradıcılığı ana dilimizə həssas yazıçı yanaşmasının parlaq nümunəsidir.*

***(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamından).***

Azərbaycanın XX əsr ictimai fikrində görkəmli yer tutan, dramaturgiya sahəsində öz dəsti-xətti olan Ənvər Məmmədxanlı zəngin ədəbi irs qoyub getmişdir. Məlum olduğu kimi, əsrin 19-30-cu illərində insanların böyük əzmkarlığı, yeni həyatın müxtəlif sahələrində bir sıra müvəffəqiyyətləri ilə yanaşı, hələ də insan psixologiyasında kök salan bəzi adət və ənənələr ümumi işlərimizə mane olurdu. Ona görə də onlara fəal yazıçı laqeyd qala bilməzdi.

1936-cı ildə ədibin "Bakı gecələri" kitabında toplanan əsərlər, sonralar yazdığı "Anamın nəziri", "Kiçik məktub" və "Qaralmaz günəş" əsərləri göstərdi ki, Ə.Məmmədxanlı bir yazıçı kimi bədii yaradıcılıq yollarında cəsarətlə irəliləyir və kamilləşir. Müəllifin "Qaralmaz günəş" hekayəsində əliqabarlı, sıravi əmək adamlarının bədii tərənnümü verilmişdir.

Zəngin və məhsuldar yaradıcılıq yolu keçən yazıçının müharibə illərində qələmə aldığı əsərlərini təsirsiz oxumaq mümkün deyildir. Bu hekayələrin əsas mövzu və ideyası günün təxirəsalınmaz tələbləri, adamlarımızın müqəddəs vəzifəsi Vətən torpağına, ana yurduna olan məhəbbətinin canlı boyalarla əks olunmasıdır. Artıq müəllif öz təsvir obyektinə çox yaxınlaşır, qələmə alınan hadisələrə fəal münasibət bəsləyir, şairanə, bədii sətirlər arasından yazıçının alovlu qəlbi boylanır, üsyan edir, "Vətən yandı" (S.Rüstəm) – deyə haray çəkirdi. Buna görə də ədibin üslubunda təmkinli hekayəçiliklə, müharibə, döyüşən, odlu publisistika vəhdət təşkil edirdi: "Qərb cəbhəsindən məktub", "Analar yollara çıxdılar", "Yeni ilin hökmü", "Qərbə atəş", "Silahlı dağlar", "Qanlı möhür", "Buz heykəl", "Anamın ölümü", "Ulduz" və s.

Ənvər Məmmədxanlı "Buz heykəl" (1944) əsərində minlərlə ana və övladları öz isti yuvasından vicdansızcasına ayıraraq boranlı səhraların amansız qoynuna atan müharibənin tükürpərdici dəhşətlərindən birini romantik boyalarla böyük müvəffəqiyyətlə göstərə bilmişdir.



Scanned with ACE Scanner

Doğma yurdunu tərk edən ana körpəsini bağrına basaraq şaxtalı bir gecədə Şərqə tərəf qaçır. O, necə olsa balaca körpəsini – sevgilisinin ilk yadigarını xilas etməlidir. Şaxta ananın çiyninə işlədikcə bütün paltarını bir-bir cıraraq uşağına bürüyür, özü isə çılpaq qalır. (Fikir verin: düz 70 il sonra isti yurd-yuvasından şaxtalı qış günlərində qovulmuş, başı bədənindən ayrılmış günahsız insanların, körpələrimizin diri-diri borulara doldurularaq məhv edilməsi, yandırılması, öldürülməsi, 613 nəfərlik Xocalı soydaşlarımızın faciəsi deyilmi? Aman Allah, nə dözülməz dəhşət!).

"İndi onun yarıçılpaq vücuduna amansız qış gecəsi başqa bir don biçir, başqa bir örtük geyindirir, şaxtanın buz barmaqları ona ulduzlu naxışlardan zərif bir libas toxuyur..." (səh.11-12).

Tənqidçi alim C.Abdullayev bu münasibətlə yazır: "Bu, adi hekayə deyil, başdan ayağa müharibəyə, faşizmə nifrət, anaya, həyata və günəşə dərin məhəbbət fəlsəfəsidir" (səh.331).

"O mahnılarda qaldı" (1944) hekayəsində belə bir əhvalat verilir. Dilarə iki ildir ki, sevgilisi Əjdərdən məktub almır. O, bir xəbər bilmək məqsədi ilə kəndə – gələcək qayınanasının yanına gedir. Dilarənin müəllimlik etdiyi kənd məktəbinin qarşısından keçərkən eşitdiyi mahnılar qızın qulaqlarında cingildəyir. O, sözləri diqqətlə izləyir, məlum olur ki, bu el mahnıları onun cəbhədə qəhrəmanlıqla həlak olan sevgilisi Əjdərin haqqındadır.

Yazıçının "Boyunbağı", "Karvan dayandı", "Baş xiyabanda", "Qızıl qönçələr" və s. əsərləri Cənubi Azərbaycan həyatından bəhs edir. Məlum olduğu kimi, Böyük Vətən Müharibəsi illərində sovet ordusu heyətinin sıralarında Ə.Məmmədxanlı İranda olmuş və orada xalqın ağır güzəranını öz gözləri ilə görmüşdür. Şübhəsiz ki, bu mövzuda yazdığı əsərlər oradakı təəssüratın nəticəsidir. "Baş xiyabanda" (1945) hekayəsinin maraqlı süjeti vardır. Təbrizin baş xiyabanında çoxlu dilənçi və yoxsulun içərisində müəllifin diqqətini bir uşaq daha çox cəlb edir. Bu qəribə, qaradinməz uşaq diləndiyi çörəkləri aparıb küçə itlərinə paylayırmış. Sən demə uşaq bunu itlərə onlara yazığı gəldiyindən deyil, soyuqdan donmamaq üçün edərmiş. "O hər gecə üşüməsin deyə büzüşüb həmin itlərin arasında yatarmış" (səh.47).

Ə.Məmmədxanlı həm bədii, həm də publisistik əsərlərində müharibənin bütün dəhşətlərini, onun doğurduğu hicran və nisgilləri ürək yanğısı ilə qələmə alırdı. Bu əsərlərdə təhkiyə elə qurulurdu ki, sanki ədib şahidi olduğu, özünün bilavasitə başına gələn əhvalatları canlı bir dillə başqalarına danışır. Müxbir kimi tez-tez cəbhə bölgələrində, döyüş xətlərində döyüşçülərlə yaxın təmasda olması yazıçının əsərlərinin reallığını, tipikliyini təmin etmiş olurdu.

Ənvər Məmmədxanlının hekayələrində təsdiqedici romantika ilə yanaşı, həm də dərin bir lirizm vardır. Bunlarda lakonik, yığcam forma, rəvan poetik dil, incə duyğular vardır. "Afaq", "Qaralmaz günəş", "Bakı gecələri", "Karvan dayandı", "Buz heykəl" və b. əsərlərində güclü romantika, sağlam xəyal, poetik dil hakimdir.

Ə.Məmmədxanlının əsərlərində zamanın, dövrün xüsusi möhürü vardır. Onun əsərlərində zamanın koloriti çox aydın duyulur.



Müəllif hadisənin yerini və məkanını son dərəcə koloritli, mənalı təsvir edir, obyektin təcəssümü ilə oxucuda müəyyən assosiasiyalar yarada bilir, oxucunun diqqətini həmin obyektə yönəldərək ya nifrət, ya məhəbbət doğurur. Məsələn, o, müharibənin dağıtdığı bir şəhərin təsvirini belə verir: "Elə bil, əfsanəvi bir yırtıcı heyvan qaranlıq bir gecədə qəflətən bu binaların üzərinə atılaraq, onları gəmirmiş, parçalamış, sonra da sümüklərini buraxaraq uzaqlaşıb getmişdir" (səh.23).

Faşizmin talançı təbiətini göstərmək üçün bundan yaxşı, bundan tutarlı bir müqayisə tapmaq çətin ki, mümkün olsun. Ədibin "O mahnılarda qayıtdı" hekayəsindən yenə ibrətli bir misal kimi burada gətirmək olar. Ə.Məmmədxanlı ananın dərd və kədərinin dəhşətli dərəcədə ağır olduğunu göstərmək üçün belə bir üslubdan istifadə etmidir:

"Dilarə başın qaldırıb ananın gözlərinə baxdı. Güllü xala ağlamırdı. Onun gözləri quru idi. Lakin onun gözləri altında üzüaşağı yanaqlarına doğru uzanan bir cüt işıqlı iz vardı. Bunu yalnız gecələr axıdılan gizli və odlu göz yaşları açə bilərdi" (səh.33).

Ə.Məmmədxanlı həm öz təhkiyəsində, həm də surətlərin söhbət və monoloqlarında fəal, çevik publisistik ifadə tərzindən məharətlə istifadə edir. Ədibin "Haralısan əsgər qardaş" hekayəsində döyüşçü belə deyir: "İndi mən özüm də bilmirəm haralıyam, mən o şəhərlərin hamısını öz doğma şəhərim kimi müdafiə etdim, düşməndən geri aldım. İndi Odessaya qayıtsam, məni bir oğul kimi qucaqlamazmı? Sevastopol mənə qollarını açmazmı? Yox, indi mən həm Şuşalıyam, həm də Sevastopolluyam".

Ona görə də Böyük Vətən müharibəsində bizim qələbəmizi şərtləndirən bu böyük hiss – vətənpərvərlik duyğusu hər şeyə qadir idi.

Akademik M.Arif yazmışdır: "Tanka qarşı tank çıxarmaq mümkündür. Təyyarəyə qarşı təyyarə istehsal etmək çətin deyildir. Lakin şir ürəkli tanrıya qarşı Tanrı yaratmaq asan deyildir" (səh.81).

Ənvər Məmmədxanlı eyni zamanda dramaturqdur. Onun "Şərqin səhəri" (1947) pyesi uzun müddət repertuardan düşməmişdir. Əsərdəki hadisələr Bakı və Həştərxanda cərəyan edir. Pyes inqilabi hərəkatın bədii, həm də təbii əksi baxımından da maraqlı bir əsərdir. Dramaturq müsbət planda göstərdiyi Fərhad, İldırım, Bayram kimi inqilabçıların hər birinin daxili, özünəməxsus keyfiyyətlərini orijinal bir üslubda açır. İnqilabi işə özlərinə məxsus uzun-uzadı, tərəddüdlü yollarla gələn Dilarə, Bəhruz, Mustafa və s. surətlərin inkişaf və təkamülü də inandırıcı, sağlam bir məntiqlə verilmişdir. İnqilabi hərəkat bir məhəng daşı kimi müxtəlif silkin, müxtəlif sinfin, təbəqə və zümrənin nümayəndələrindən ibarət adamların təfəkkür və düşüncəsini, mənəviyyatını bir növ imtahana çəkmiş olur. Müxtəlif taleli bu adamlardan bəziləri inqilabi hərəkatın mahiyyətini böyük sarsıntılardan sonra dərk edə bilir. Ədib onları maneəsiz bir yolla yox, ağır əzab və əziyyətdən sonra inqilabın geniş yoluna çağırır. Bütün bunlar öz növbəsində dramatik konfliktik ictimai-siqlətini təmin etmiş olur və əsərin dinamikasını da şərtləndirir.



Scanned with ACE Scanner

Pyesdə İngiltərənin müstəmləkəçilik siyasətinin ifşası da əsas yer tutur. İngilis generalı Tomson açıqdan-açığa həyasızcasına deyir: "Əlahəzrət kraliçamızın tacında Hindistan ən dəyərli bir gövhər isə, Azərbaycan da o tacı bəzəyən incilərdən biri ola bilməzmi?" (səh.218).

Əsərdə bir sıra obrazlar içərisində diqqəti cəlb edən lirik planda verilən Bəhruz-Dilarə, neft sahibkarı milyoner Ağalarov, mühəndis Cavanşir bəy və surətlərin təsvirində ədibin realizmi özünü göstərməkdədir.

Pyesdə çox çətin verilmiş xarakterlərdən biri də Nəcəf bəydir. Bu, dramaturqun müvəffəqiyyəti sayıla bilər. O, yoxsul bəylərdəndir. Nəcəf bəy hadisələri lazımınca dərk etməsə də, general Tomson və digər qüvvələrin mənasız canfəşanlığını anlaya bilir və özü-özünə deyir ki, "sən hara gedirsən, yeddi dəyirman axtarsalar bir dənin tapılmaz".

"Şərqin səhəri" əsərindən bir neçə il sonra Ə.Məmmədxanlı "Od içində" (1950) pyesini yazır. Bu dəfə əsərin mövzusu Cənubi Azərbaycan həyatından götürülür. "Od içində" pyesində 1945-1946-cı illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı dağıldıqdan sonra cərəyan edən hadisələr təsvir olunur. Şahpərəstlər, ölkəni ingilislərə, amerikalılara satmaq istəyənlər mübariz bir xalqın əzmini qırmaq üçün hər cür alçaqlıqdan istifadə edirlər. Şahın xəfiyyələri Təbriz gizli təşkilatının qüvvələrini hər yerdə axtarır, bu təşkilatı dağıtmaq, onun Azər kimi başçılarını məhv etmək istəyirlər. Bu işdə ən çox fəaliyyət göstərən Sərhənd Ehtişamı və Baftandır. Ehtişamı çox qorxunc qəddar və amansız xaindir. O, azadlığın barışmaz düşmənidir. Ehtişamının əlləri çox fədainin qanını tökmüşdür. Onun bu sözləri xarakterinin nə qədər rəzil olduğunu sübut etməkdədir: "Ah, nə üçün insanın ümidini açmaq üçün mənim dar ağaclarım yoxdur?" (səh.210). Onu yalnız bir şey – rütbəsinin artması düşündürür.

"Od içində" pyesinin ən dəhşətli səhnələrindən biri Reyhanın Azərlə dar ağacı altında görüş səhnəsidir.

Azər yenidən ələ keçmiş və bu dəfə Təbriz meydançalarından birində qurulan dar ağacından asılmalıdır. Sərhənd Ehtişamının əmri ilə ana öz oğlu ilə bu mərasimdə məcburən görüşməli və oğlunu tövbə etməyə razı salmalıdır. Oğlunu görmək istəyən ana bu dəhşətli xəbərdən sarsılır, oğlu üçün qurulmuş dar ağacı altında onunla görüşmək istəyir – heç bir ana öz oğlu ilə bu meydanda görüşməsin, ya rəbbi, – deyir. Lakin bu dəhşətli görüş baş tutur.

Müəllif tarixi həqiqətə sadiq qalaraq amerikan-ingilis müstəmləkəçilərinin İrana ağalıq üstündə bir-birini didişdirməsi məsələsini də düzgün təsvir etmişdir. Onlar bütün yer kürəsində ağalıq etmək üçün Birləşmiş Dünya ştatları yaratmaq istəyirlər.

İmperialistlərin bu niyyətlərini ifşa edən dramaturq belə fikirdədir ki, İran iranlılarındır. İndi müvəqqəti olaraq məcburiyyətə uğrayan azadlıq hərəkatı gələcəkdə daha qüvvətlə alovlanacaq və "gəlmələri" birdəfəlik məhv edəcəkdir.

Dramaturq bu əsərdən yeddi il sonra (1957) mövzusu müasir həyatdan alınmış "Şirvan gözəli" komediyasını yazır. Akademik M.Arif bu əsərin



üslubu barədə yazmışdır: "Şirvan gözəli" ciddi lirik ünsürlərə malik komediya olsa da, komik-satirik məzmundan məhrum deyil. Burada lirik səhnələrlə yanaşı, tənqid də qüvvətlidir" (səh.89).

Yazıçı əsərdə elmi-tədqiqat işləri üzrə əmələ gələn ciddi, işgüzar, prinsipial səciyyə daşıyan problemləri, həm də ailə-məişət münasibətləri ilə bağlamağa çalışmışdır. Əlbəttə, dramaturq ailə çəkişmələrinə məqsəd yox, vasitə kimi baxmış, əsərin əsas qayəsini, ideyasını ifadə üçün priyom kimi müraciət etmişdir. "Şirvan gözəli" komediyasının əsas konflikti professor Vahidovla, professor Zakirovun ailələri arasında gedən ixtilaflar üzərində qurulmuşdur. Bu professorların hər ikisi həyatdan ayrı düşmüş, xırda hisslərlə yaşayan adamlardır. Bunlar akademik Mudrovun şəxsiyyəti qarşısında pərəstiş edir, təzə bir fikir, yeni bir təşəbbüs irəli sürə bilmirlər.

Kolxoz sədri Telli baş verənləri bunlardan yaxşı bilir, çünki o, həyat adamıdır. Mudrovun kəşf etdiyi şirin alması bu şəraitdə əmələ gələ bilmir, ona görə də Telli başqa alma növü təklif edir. Lakin professorlar akademikin elmi nüfuzundan qorxurlar. Necə yəni şirin alma növü pisdir? Akademik Mudrov kimi alimin elmi şəkildə əsaslandırdığı ixtiraya etiraz etmək mümkünmü? Lakin buna etiraz edən tapılır. Bu, öz dissertasiyasını müdafiəyə hazırlamış gənc aspirant Şeyda Zakirovdur.

Müdafiəyə təqdim edilmək üzrə olan bu dissertasiyada Şeyda hələ Vahidovun mövqeyində durudu. Lakin gənc alimin kəndə getməsi və yerli şəraitlə tanışlığı onu bu mövqedən əl çəkməyə məcbur edir. Nəticədə həyatı təcrübəyə əsaslanan Şeyda akademik Mudrova qarşı çıxaraq yerli şərait üçün son dərəcə səmərəli "Şirvan gözəli" alma sortunu yaradır.

Konflikt sevindirici şəkildə həll olunur.

Göründüyü kimi, dramaturq bu əsərində öz kabinetinə çəkilən, canlı həyatla hər cür əlaqəni üzən, görkəmli alimlərin elmi nüfuzuna kor-koranə pərəstiş edən və beləliklə də kənd təsərrüfatına böyük zərər vuran Vahidov və Zakirov kimi alimləri tənqid atəşinə tutur.

Müəllifin nifrət hədəfinə çevrilən adamlardan Fərəc və Sədəf kimi elmə təsadüfi yollarla gəlmək istəyən aspirantları da qeyd etmək lazımdır. Çox təəssüf ki, bu əsər 56 il bundan əvvəl yazılsa da, yenə ətrafımızda belə insanlar vardır.

Elmi işə çox məsuliyyətsiz yanaşan bu səriştəsiz adamlar arzularına eyni yolla nail olmaq istəyirlər. Belə ki, professor Vahidovun deputatı Fərəc öz elmi rəhbərinin qızı Fəridəyə evlənməklə arxasını dağa söykəmək və beləliklə də, alimlər cərgəsinə daxil olmaq istəyir. Aspirant Sədəf də bu işdə Fərəcdən geri qalmır. O da eyni məqsədlə öz elmi rəhbəri professor Zakirovun oğlu Şeydanı gözaltı eləmişdir. Lakin nəticədə hər ikisi gülünc vəziyyətə düşür. Sən demə, Fəridə ilə Şeyda çoxdan bir-birini sevirmişlər. Onların hər ikisi saf məhəbbətləri uğrunda əzmlə mübarizə aparıb arzularına çatırlar.

"Şirvan gözəli" əsəri son dövr dramaturgiyamızın dəyərli bir əsəri kimi qiymətləndirilməklə yanaşı, müasir dövrümüzlə də səslənməsini xüsusilə vurğulamaq lazımdır.



Scanned with ACE Scanner

Ənvər Məmmədxanlı özünəməxsus bədii sənətkarlıq xüsusiyyətləri və yaradıcılıq siması olan bir yazıçıdır. Onu bir sənətkar kimi həmişə həyatın romantik, şairənə cəhətləri daha çox maraqlandırır. O, götürdüyü mövzunu romantik yüksəklikdən təsvir edir. Müəllifin "Şərqin səhəri", "Od içində" pyesləri, kinossenariləri, hekayə və novellaları buna sübutdur.

Ənvər Məmmədxanlı bədii formaya xüsusi diqqət verən sənətkarlardandır. O, təsvir etdiyi hadisəyə mümkün qədər fəal müdaxilə edir, maraqlı kompozisiya yaradır, öz münasibətini ortaya çıxarır.

Onun "Babək" romanı və "Xürrəmilərin aş şahini" kimi dram əsəri də orijinallığı ilə seçilir. Ənvər Məmmədxanlı əsərlərinin dili sadə və anlaşıqlıdır. Bu dil o qədər şirin, o qədər axıcı və şairanədir ki, adam əsərləri oxuyarkən həqiqi poeziya təsiri duyur. Onu oxucuya sevdirən cəhətlərdən biri də budur.

### ƏDƏBİYYAT


*1. Əliyev İ. Ənvər Məmmədxanlının 100 illik yubileyinin keçirilməsi barədə Sərancam, "Azərbaycan dili və ədəbiyyatı tədrisi", 2013, № 1.*

*2. Ə.Məmmədxanlı. Seçilmiş əsərləri. Bakı, "Azərnəşr", 1960.*

*3. C.Abdullayev. "Ənvər Məmmədxanlı" (oçerk). "Müasir Azərbaycan ədəbiyyatı", 2 cilddə, I cild. BDU, 2007.*

*4. Ə.Məmmədxanlı. Seçilmiş əsərləri. Bakı, "Avrasiya", 2005.*

*5. Ə.Məmmədxanlı. Seçilmiş əsərləri. Bakı, "Azərnəşr", 1994.*

*6. Ə.Məmmədxanlı. Seçilmiş əsərləri. Bakı, "Avrasiya", 2005.*

*7. M.Arif. "Nəsrin poetikası". Bakı, Elm, 1990.*

*8. Ə.Məmmədxanlı. Seçilmiş əsərləri. Bakı, "Azərnəşr", 1994.*

*9. M.Arif. Seçilmiş əsərləri. Bakı, "Elm", 1970.*



### SUMMARY

*This article speaks about Anvar Mammadkhanli who has important sevices in the formation of literary –artistic and national-aestheticalsense in Azerbaijan. The originality of the talant of Anvar Mammadkhanli his different style of writing, deep humanism in his works, realism and pshchological depth, drew the attention of large mass of readers and literary-scientific public. He is the author of novels, tales and stories. His works call the people for moral ethical perfection.*

### РЕЗЮМЕ

*Один из знаменитых писателей Азербайджанской литературы XX века является Энвер Мамедханлы. В 1936 году пришедший в литературу мелкими рассказали, позже стал известный своими крупными произведениями. В статье говорится о богатом творчестве писателя.*




# M.TVENİN "FƏRASƏTLİ OĞLAN" ƏSƏRİNİN TƏHLİLİ


**Elnur ƏLİYEV,**
**Salyan rayonundakı S.Cəfərov adına**
**Yenikənd kənd tam orta məktəbin müəllimi**


V sinfin ədəbiyyat fənnindən yeni təhsil proqramında (kurikulumlarında) M.Tvenin "Fərasətli oğlan" əsərinin şagirdlər tərəfindən öyrənilməsinə iki saat vaxt verilmişdir. Onun birinci saatı əsərin məzmunu üzrə işə, ikinci saatı isə əsərin təhlilinə aiddir.

Məqalədə ikinci dərs saatında aparılan işlər əhatə olunmuşdur.

**Mövzu:** M.Tvenin "Fərasətli oğlan" əsərinin təhlili.

**Standart:** 1.2.2, 1.2.4, 2.1.2, 3.1.3.

**Məqsəd:** Şagird.

- obrazların xarakterindəki oxşar və fərqli xüsusiyyətləri şərh edir;
- əsərlə bağlı fikirlərini nümunələr göstərməklə şərh edir;
- əsərin mövzusunu, ideyasını müəyyənləşdirir, müstəqil münasibət bildirir;
- şəxsi münasibətini ifadə etməklə təqdim olunmuş mövzu üzrə yığcam esse yazır.

**İnteqrasiya:** A.d. 2.2.3, 3.1.2, 3.1.3, Az.t. 5.1.2, İnf. 3.3.2, H.b. 3.2.1.

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** kiçik qruplarda iş, bütün siniflə birgə iş.

**Metod və priyomlar:** əqli hücum, müsahibə, təqdimat, müzakirə.

**Təchizat:** - Ədəbiyyat. V sinif üçün dərslik (müəlliflər: S.Hüseynoğlu, B.Həsənli, Ə.Səfərova, Ə.Quliyev). B., 2012, səh. 104-112.

- Müəllim üçün metodik vəsait (müəlliflər: B.Həsənli, S.Hüseynoğlu, Ə.Səfərova, Ə.Quliyev). B., 2012, səh.31, 42-43, 165-166.
- Ədəbiyyat. V sinif üçün test tapşırıqları (müəlliflər: A.Quliyeva, M.Soltanov). B., 2011, səh.64-65.
- iş vərəqləri.

**Dərsin vaxt bölgüsü:**

| | |
|---|---|
| 1. Sinfin təşkili | 2 dəq. |
| 2. Keçmiş mövzunun soruşulması | 3 dəq. |
| 3. Motivasiya, problemin qoyuluşu | 2 dəq. |
| 4. Tədqiqatın aparılması | 15 dəq. |
| 5. İnformasiya mübadiləsi | 10 dəq. |
| 6. İnformasiyanın müzakirəsi və təşkili | 5 dəq. |
| 7. Nəticə, ümumiləşdirmə | 3 dəq. |
| 8. Qiymətləndirmə və refleksiya | 3 dəq. |
| 9. Yaradıcı tətbiqetmə | 2 dəq. |
| | Cəmi: 45 dəq. |



Scanned with ACE Scanner

## Dərsin gedişi

**Sinfin təşkili.** Şagirdlərin psixoloji durumunu, fəaliyyətə hansı səviyyədə hazır olduqlarını aşkara çıxarmaq məqsədilə yığcam müsahibə aparıram.

**Keçmiş mövzunun soruşulması.** Keçmiş mövzumuz Mark Tvenin "Fərasətli oğlan" əsərinin məzmunu üzrə iş olduğundan bütün sinfə "Əsərin məzmununun maraqlı olmasının səbəbi nədir?" sualı ilə müraciət edirəm və şagirdlər bu sualı aşağıdakı kimi cavablandırırlar:

- Aşağı siniflərdə oxuduğumuz "Tom özünü fəda edir" əsərini unutmamışıq. Tomun səmimiliyi, dəcəlliyi və cəsarətli hərəkətləri hələ də yadımızdadır.

Bizi yenə elə ilk cümlələrindən maraqlandıran əsərin məzmunu üzərində işləyən zaman Tomla yenidən görüşdük və onu daha yaxından tanıdıq. Hündürboylu, arıq, döşlük taxan, üzündən mehribanlıq və çaşqınlıq yağan Polli xalanı sevdik. Bu əsəri ona görə sevdik ki, həmyaşıdımız Tomun düşüncələri, hisləri, bəzi əməlləri bizimki ilə üst-üstə düşdü. Tomun tanımadığı uşaqla dalaşmasını, barını ağardarkən birdən-birə "varlanmasını" əks etdirən səhifələri oxuyarkən gülməkdən özümüzü saxlaya bilmədik.

**Motivasiya, problemin qoyuluşu:**

**Müəllim:** Sizcə, yazıçı Toma necə münasibət bəsləyir? Onun əməllərinə, hərəkətlərinə haqq qazandırır, yoxsa onları pisləyir?

Şagirdlərin cavabları dinlənilir. Fərziyyələr qeyd edilir.

**Tədqiqatın aparılması.** Tədqiqat aparmaq üçün şagirdlərə rəngli-qırmızı, sarı, göy kağızlar paylamaqla üç qrupa bölür və hər bir qrupa üzərində işləmək üçün dörd sualdan ibarət iş vərəqi verirəm.

### İş vərəqi №1

1. Bu bədii parça yazıçının hansı məşhur əsərindən götürülmüşdür?
2. Əsərdə Tom əksər vaxtlarda necə vəziyyətdən çıxır?
3. Əsərdə Tomun birinci günahı nə idi?
4. Əsərdə "Əlbət, gələn dəfə əlimə düşərsən, gör sənin başına nə oyun gətirəcəyəm" sözləri ilə kim kimi hədələyir?

### İş vərəqi № 2

1. Əsərdə haqqında danışılan Tom necə bir uşaqdır?
2. Əsərdəki Sid kimdir?
3. Əsərdə Tomun ikinci günahı nə idi?
4. Əsərdə Tomun ona tapşırılan işə-barını ağartmağa cəlb etdiyi uşaqlar kimlər idi?

### İş vərəqi № 3

1. Əsərdəki Polli xala necə bir qadındır?
2. Əsərdə Tomun tanımadığı uşaqla dalaşmasına səbəb nə idi?
3. Əsərdə Tomun üçüncü günahı nə idi?
4. Əsərdə Tom tanımadığı yad oğlanla harada dalaşıb onu əzişdirir?



**İnformasiya mübadiləsi.** Qruplarda iş başa çatdıqdan sonra hər qrupdan bir nəfər gəldikləri nəticəni təqdim edir.

**İnformasiyanın müzakirəsi və təşkili.** Dərsin bu mərhələsində həm də "Həyatda Tom kimi dostunun olmasını istərdinmi?" mövzusunun müzakirəsini təşkil edirəm. Müzakirə zamanı şagirdlərin diqqətini yazıçının Tomun istər xarici görkəmi, istərsə də mənəvi aləmi barədə oxucuda dolğun təsəvvür yaratdığına cəlb edirəm. Tom digər uşaqlardan fərdi xarakteri, nitqi, görkəmi, düşüncə tərzi ilə seçilir. Əsərdə Tom müsbət və mənfi cəhətləri ilə təsvir edilir. Bu da müzakirə zamanı fərqli fikirlərin söylənilməsi üçün zəmin yaradır.

**Nəticə, ümumləşdirmə.** Şagirdlər sonda bu qənaətə gəlirlər ki, dünyanın mürəkkəbliyini və ziddiyyətlərini uşaq anlamında "Tom Soyerin macəraları" ən çox oxunan əsərlərdəndir. Onu həm böyüklər, həm də uşaqlar maraqla oxuyur. Tomun Polli xalaya, Sidə, yaşıdlarına münasibəti müxtəlif səhnələrdə aydın görünür. Xasiyyətindəki bir çox cəhətlər Tomu yaşıdlarından fərqləndirir.

Tom balacaların sevimli qəhrəmanıdır.

**Qiymətləndirmə və refleksiya.** Qrupların dərsdəki fəaliyyətini aşağıdakı meyar cədvəlinə əsasən qiymətləndirirəm:

| Meyarlar | Qruplar | | |
|---|---|---|---|
| Əsərin mövzu və ideyasını aydınlaşdırır | I qrup | II qrup | III qrup |
| Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir | | | |
| Əsərlə bağlı fikirlərini ardıcıl şərh edir | | | |

Qrupların dərsdəki fəaliyyətlərindən asılı olaraq hər meyarın qarşısındakı "+" və ya "-" yazıb, sonda "+" və "-" hesablayıram.

**Yaradıcı tətbiqetmə.**

**Ev tapşırığı:** "Dərsdəki müzakirələr əsər barədə düşüncələrimə nə əlavə etdi?" mövzusunda yığcam esse yazın.



Scanned with ACE Scanner

# İDRAK FƏALLIĞINI ARTIRAN OYUNLAR ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ

Çingiz MURADLI,
İsmayıllı şəhərindəki 3 nömrəli tam orta məktəbin müəllimi

Dözümlülük, hörmət, əməkdaşlıq etmək – dərslərdə yaradıcı mühitin təşkili üçün vacibdir. Buna görə də bu keyfiyyətlərin şagirdlərdə formalaşdırılması üçün müəllim bütün bilik və bacarıqlarını səfərbər etməlidir.

Bu bacarıq və keyfiyyətləri formalaşdırmağa idraki oyunlar, yaradıcı müəllimlərin iş təcrübəsindən istifadə faydalı olar. Şagirdinin maraq və tələbatlarının ödənilməsini qarşısına məqsəd qoymuş müəllim yetirmələrinin idrak fəallığını artıracaq oyunlarla bağlı kitablardan yararlanmalıdır. Bu cür kitablarda, metodik vəsaitlərdə müəllimlər sadəcə oyunları deyil, həm də onların tətbiq edilməsi üçün məsləhətlərlə, oyunlardan sonrakı təhlil və əlavə çalışmalarla, tapşırıqlarla tanış olmaq imkanı qazanırlar. Bütün bunlar müasir dərs üçün müəllilmlərdə lazımi bilik və bacarıqları formalaşdırmağa kömək edər.

İdrak fəallığını artıran oyun və vasitələr birbaşa ədəbiyyat dərsləri üçün düşünülməsə də mən əminəm ki, onlardan yararlanmaq hər bir müəllimə fəal təlimin metod və priyomlarından səmərəli istifadə üçün zəmin yaradacaq, dərs və dərsdənkənar məşğələlərdə tapşırıqların, çalışmalarının həlli üçün istifadə etmək məqsədəuyğun olacaq.

İdrak fəallığının yüksəldilməsində əhəmiyyəti olan bu oyunların bəzilərinin qaydalarında dəyişikliklər aparmaqla onlardan öz dərslərimdə istifadə edirəm.

İdrak fəallığını artıran, təmin edən oyunlar məzmununa və tətbiq qaydalarına görə bir neçə qrupa bölünür. Bu qruplardan birini və həmin qrupa daxil olan oyunlardan bir neçəsini nəzərdən keçirək.

Bir-birini daha yaxşı necə tanımaq olar?!

Şagirdlərin əksəriyyəti bir neçə il eyni sinifdə oxusalar da, demək olar ki, bir-birini yaxşı tanımırlar. Kimin nə ilə məşğul olduğunu, kimin nəyi sevdiyini bəziləri uzaqdan-uzağa bilir. İnsan haqqında nəyisə bilmək – ona diqqət yetirmək deməkdir. Onun maraqlarını öz maraqlarınla müqayisə etmək – insanların müxtəlifliyi haqqında düşünmək deməkdir. Təqdim etdiyim oyunlar vasitəsilə şagirdlər bir-birini daha yaxşı tanıya biləcəklər.

### "Vizit kartı" oyunu

Yeni sinifdə işi bu oyun vasitəsilə başlamaq olar. Tədris ili ərzində bu oyunu bir neçə dəfə təkrar etmək də olar. Bu oyun iştirakçılardan bir-birinin sözlərinə - dediklərinə diqqətli olmağı və kimin nə dediyini yadda saxlamağı tələb edir.



İştirakçılar(şagirdlər) dairə halında otururlar. Birinci iştirakçı özündən ya sağdakı, ya da soldakı iştirakçıya özünə aid hansısa bir əşyanı verib özü haqqında qısa bir məlumat verir. Daha sonra əşyanı alan ikinci iştirakçı da yanında oturan digər iştirakçıya özü haqqında məlumat verir. Amma nəzərə almaq lazımdır ki, bu məlumatlar necə gəldi yox, xüsusi sxemə - qayda-qanuna əsasən olmalıdır.

Birinci iştirakçı – oyunçu öz adını deyir.

( - Mənim adım Vasifdir.)

İkinci iştirakçı da özünü təqdim edir və özü haqqında hansısa əlavə məlumat verir. Məsələn: adını və əlavə olaraq neçə yaşı olduğunu.

( - Mənim adım Türkandır, 11 yaşım var.)

Üçüncü iştirakçı öz adını, neçə yaşı olduğunu və əlavə olaraq özü haqqında daha fərqli məlumat verir. Məsələn, o, asudə vaxtlarında nə ilə məşğul olduğunu əlavə edir.

( - Mənim adım Sevgidir, 11 yaşım var. Mən asudə vaxtlarımda musiqiyə qulaq asmağı sevirəm.)

Dördüncü iştirakçı birinci və ikinci mərhələni olduğu kimi təkrar edir. Üçüncü mərhələyə rəy bildirib özü haqqında daha fərqli yeni məlumat verir.

( - Mən Anaram. Mənim 12 yaşım var. Mən asudə vaxtlarımda musiqiyə qulaq asmıram, amma velosipedimdə gəzməyi çox sevirəm.) və s.

Böyük siniflərdə bu oyunu iki və ya üç qrupda paralel aparmaq olar. Amma əvvəlcədən bir və ya iki könüllüdən ibarət köməkçi müəyyən etmək lazımdır.

Bu oyun vasitəsi ilə iştirakçılar(şagirdlər) bir-birini daha yaxşı tanıyacaq, bir-birinə diqqətli olacaq, ən əsası onlarda dözümlülük, hörmət, diqqətli olmaq, əməkdaşlıq etmək kimi bacarıq və keyfiyyətlər formalaşacaq.

Bu oyundan ədəbiyyat dərslərində necə istifadə etmək olar?!

Bu oyunun sxeminə əsasən hər hansı ədəbi əsərlər və ya ədəbi problemlər haqqındakı mülahizələri bölüşmək olar. Məsələn, sinifdənxaric oxu dərslərinin ilk saatında və ya yay tətili ərzində oxunmaq üçün verilmiş əsərlərlə bağlı müzakirə dərslərində istifadə məqsədə uyğun hesab olunur.

Bu, aşağıdakı kimi aparıla bilər:

- Mən tətildə S.S.Axundovun əsərini oxumuşam.

- Mən Ə.Haqverdiyevin əsərini oxumuşam. O əsər "Ayın şahidliyi" hekayəsi idi.

- Mənim oxuduğum kitabın müəllifi M.Tvendir. Bu onun "Tom Soyerin macəraları" əsəridir. Bu əsərin baş qəhrəmanı dəcəl, şıltaq və çoxbilmiş Tomdur.

Şagirdlər növbəti mərhələlərdə - addımlarda nə haqqında danışacaqlarını özləri müəyyənləşdirə bilərlər. Ya da ki müəllim məlumatların siyahısını əvvəlcədən tərtib edib lövhədən də asa bilər.

### "Hamı – bəziləri – yalnız mən" oyunu

Dairə halında düzülmüş oyunçuların ətrafına onların sayından bir ədəd az stullar qoyulur. Oyunçulardan biri aparıcı kimi ortada durur, digərləri isə



Scanned with ACE Scanner

stullarda əyləşirlər. Aparıcı hər hansı bir xüsusiyyət və ya əlamət səsləndirir. Səsləndirilən bu xüsusiyyət – əlamət dairədə oturmuş iştirakçıların hamısına, onların bəzilərinə və ya yalnız birinə aid ola bilər. O anda hər bir iştirakçı (eləcə də aparıcının özü də əgər ki səsləndirilən xüsusiyyət – əlamət onun özündə də varsa) dairənin mərkəzinə qaçır, daha sonra boş qalmış stullardan birində oturmağa çalışmalıdır. Çatdırıb stulda otura bilməyən aparıcı kimi fəaliyyətə başlayır.

Müəllim oyunu eyni və ya müxtəlif xüsusiyyətləri – əlamətləri olan şagirdlərlə aparmaqla başlada bilər:
"Kim ki bu gün dərsə gəlib" , "Kim ki söhbət etməyi xoşlayır" , "Kim ki məktəbli formasında deyil" və s.

Və ya oyunun aparıcısı öz sinif yoldaşlarını yaxşı tanıtdıra biləcək xüsusiyyət və ya əlamət seçərək başlaya bilər. Məsələn:

"Kim ki zəngin tez vurulmasını istəyir" , "Kim ki tənəffüsün dərsdən çox olmasını istəyir" və ya "Kim ki "Sehrli xalat" filmini xoşlayır" və s.

Bu oyundan ədəbiyyat dərslərində necə istifadə etmək olar?!

Oyunu müxtəlif əsərlərin surətləri əsasında təşkil etmək olar. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanının boylarının məzmununun nə dərəcədə mənimsənildiyini bilməkdən ötrü əsərin bütün qəhrəmanlarını iştirakçılar – şagirdlər arasında bölüşdürmək – paylaşdırmaq olar və onlarla bu oyunu keçirmək mümkündür. Aparıcı belə xüsusiyyət – əlamətlər səsləndirə bilər:

"Banuçiçəyin nişanlısı olan igid", "Acığı tutanda qara daşı kül eyləyən Oğuz igidi" və s.

## "Xəzinə – cəvahirat axtarışı" oyunu

Bu oyun zamanı hər bir iştirakçıda aşağıdakı şəkildə qeydiyyat kartoçkasının olması vacibdir.

| S/s | Ad | Oxşar | Fərqli |
|---|---|---|---|
| 1. | | | |
| 2. | | | |
| 3. | | | |
| | | | |

Oyunun iştirakçıları sinifdə sərbəst hərəkət edə və bir-biriləri ilə söhbətləşə bilərlər. Oyunçunun tapşırığı söhbətləşdiyi şəxslə özünün bir oxşar, bir fərqli xüsusiyyətini müəyyən etməkdir. (Təbii ki bunu qeydiyyat kartoçkasına yazır). İştirakçı nə qədər çox oyunçu ilə söhbətləşərsə, oxşar və fərqli cəhətləri müəyyənləşdirərsə, bu həm maraqlı, həm də yaxşı olar.

Oyunun əvvəlində müəllim oxşar və fərqli cəhətlərə – xüsusiyyətlərə aid nümunə göstərə bilər. Məsələn: - Mən və Azad eyni binada yaşayırıq, amma mənim balaca itim var, Azadın isə heç bir ev heyvanı yoxdur və ya mən, həm



də Aynur ali təhsil almaq istəyirik, amma mən iqtisadçı, Aynur isə həkim olmaq istəyir və s.

Bu oyundan ədəbiyyat dərslərində necə istifadə etmək olar?!

Digər oyunda olduğu kimi bu oyundan da ədəbiyyat dərslərində mənimsənilmiş bədii əsərlərin surətləri əsasında oxşar və fərqli cəhətləri müəyyənləşdirmək üçün istifadə oluna bilər.

Məsələn, yenə "Kitabi-Dədə Qorqud" dastanının surətləri əsasında bu oyunu aparmaq olar: həm Qazan xan, həm də Alp Aruz Oğuz igididir. Ancaq Qazan xan müsbət qəhrəman olduğu halda, Alp Aruz daxili düşməndir və s.

## "Mənim haqqımda beş fakt" və ya sadəcə "5 fakt" oyunu

Bu oyunda da aparıcının olması vacibdir. Belə ki, şagirdlərdən biri aparıcı olur. O, qısa vaxt ərzində özü haqqında beş fakt düşünüb müəyyənləşdirir. (Məsələn: "Mənim yaxşı səsim var", "Mən Şirvan şəhərində olmuşam", "Mənim qardaşım da bu il tələbə olub", "Mən mütaliəni sevirəm" , "Mən hər gecə 4 saat yatıram" və s.) Amma unutmaq olmaz ki, bu faktlardan dördü doğru, biri isə yanlış olmalıdır. Təbii ki, daha maraqlı faktlar müəyyənləşdirməyə çalışmaq lazımdır. Aparıcı özü haqqındakı faktları sinfə - iştirakçılara çatdırır. İştirakçılar isə aparıcının yanlış faktını müəyyən etməyə çalışırlar. Kim ilk olaraq və doğru olanları müəyyən edərsə, aparıcılıq ona keçir.

Bu oyundan ədəbiyyat dərslərində necə istifadə etmək olar?!

"5 fakt" oyunundan ədəbiyyat dərslərində sənətkarların həyat və yaradıcılığı eləcə də surətlərin təhlilində istifadə etmək mümkündür. Bu şagirdlərin idrak fəallığını daha da gücləndirə bilər. Məsələn: N.Gəncəvinin həyat və yaradıcılığı mənimsədildikdən sonra – N.Gəncəvi:

1. Heç bir sarayda yaşamayıb.
2. Azərbaycan ədəbiyyatında ilk sujetli poemanı yaradıb.
3. "Divanından 120 qəzəl, 30 rübai, 6 qitə günümüzə qədər gəlib çatıb.
4. Əməkçi insanlara böyük rəğbəti olub.
5. "Leyli və Məcnun" poemasında "Divan"ı haqqında da məlumat verib.

Diqqətli şagirdlər III məlumatın – faktın yanlış olduğunu dərhal biləcəklər. Yəni ki N.Gəncəvinin "Divan"ından günümüzə qədər 120 qəzəl, 30 rübai və 6 qitənın yox, 6 qəsidənin gəlib çatdığını müəyyənləşdirəcəklər.



Scanned with ACE Scanner

# ŞAGİRD BACARIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ ŞƏXSİYYƏTYÖNÜMLÜLÜYÜN ƏSAS ŞƏRTLƏRİNDƏN BİRİDİR

**Şövkət ASLANOVA,**
**Bakı şəhərindəki 285 nömrəli tam orta məktəbin müəllimi**

Əgər şəxsiyyət formalaşdırmaq qarşımızda bir vəzifə olaraq durursa,ədəbi-bədii materiallar üzərində şəxsiyyətyönümlü iş aparmalı, şagird bilik və bacarığının qiymətləndirilməsində çox diqqətli olmalıyıq. Çünki müasir təhsil prosesində şagirdlərə müstəqil düşünmək, qazandıqları bilikləri tətbiq etmək və təqdim etmək, mühakimə yürütmək, onu əsaslandırmaq, qarşılaşdıqları problemləri həll etmək, həyat hadisələri ilə ədəbi hadisələri müqayisə etmək, nəticələr çıxarmaq, ünsiyyət mədəniyyəti nümayiş etdirmək, nitq bacarıqları aşılamaq ədəbiyyat fənninin məqsəd və vəzifələrinə daxildir.

Mən bacarıqların monitorinqi məqsədilə hazırladığım qiymətləndirmə vasitələrindən, xüsusilə açıq tipli test tapşırıqlarından istifadə edərkən yeniliklərin tətbiqi ilə bərabər,şəxsiyyətyönümlülüyə xüsusi fikir verirəm. Bu zaman ədəbiyyat fənninin məzmun standartlarını əsas götürürəm. Açıqtipli test tapşırıqları yazılı şəkildə əsaslandırılma tələb edir. Burada təsadüfi yanaşmadan yox, intellektə əsaslanan yanaşmadan söhbət gedir.

Bir sualın bir neçə düzgün cavabı ola bilər. Şagirdlərə sərbəstlik verirəm, hər kəs düşündüyü cavabı yazır. Təbii ki, mətnli sual və tapşırıqlardan istifadə ədəbiyyat fənninə aid olan məzmun xətlərini: - ədəbiyyat və həyat həqiqətlərini; şifahi nitqi; yazılı nitqi əhatə edir, şagirdlərin həm fəndaxili, həm də fənlərarası inteqrasiya yaratmaq, tədqiq etmək, ardıcıllığı müəyyənləşdirmək və s. bacarıqlarını üzə çıxarır. Belə yoxlamanın nəticəsində aydın olur ki, hansı mövzunun tədrisinə əlavə vaxt ayırmalıyam, geriləmənin və ya uğurun səbəbi nədir, şagirdlər nəyi asan, nəyi çətin bacarırlar, hansı forma və məzmunda olan yoxlama və qiymətləndirmə vasitələri daha əlverişlidir.

5-ci sinifdə ədəbiyyatdan Hikmət Ziyanın "Hər kəsin öz yerişi var" təmsili əsasında apardığım ikivariantlı qiymətləndirmənin nümunəsini təqdim edirəm:

*Bir Tısbağa Dovşana*
*Söylədi yana-yana:*
*-Sən nə yaman qaçırsan?*
*Lap elə bil uçursan!*
*Gəl dost olaq bu gündən,*
*Mənə də öyrət bunu.*
*İnan ki,tərifləram*
*Səni ömrüm uzunu.*
*Dovşan dedi:-Əzizim,*
*Bu xəyala düşmə sən!*
*Bu addımla, yerişlə*
*Məgər qaça bilərsən?!*
*İnad etdi Tısbağa:*
*-Yox, mən də qaçacağam,*
*Öyrətmirsən, öyrətmə.*
*Lap quştək uçacağam.*
*Deyə o, bir tərəfdən*
*Üzüaşağı endi.*
*-Qaçma, yavaş!-söyləyib,*
*Dovşan xeyli deyindi.*
*Amma sözə baxmayıb*
*Tısbağa yumbalandı.*
*Dəyib daşa,kəsəyə,*
*Bir anda parçalandı.*
*Dovşan vurdu dizinə:*
*"Sənə demədim yavaş!*
*Hər kəsin öz yerişi*
*Var, a Tısbağa qardaş!"*



**Sual və tapşırıqlar**
**I variant**

1. **Təmsilin məzmunu üzrə plan tərtib edin.**
1) Tısbağanın dovşana təklifi.
2) Dovşanın cavabı.
3) Tısbağanın inadkarlığı və yumbalanması.
4) Dovşanın təəssüflənməsi.

2. **Aşağıdakı parçada hansı bədii təsvir vasitəsi işlənmişdir?**
*Yox, mən də qaçacağam,*
*Öyrətmirsən,öyrətmə.*
*Lap quştək uçacağam.*

**Təşbeh**

3. **Əsərə daha hansı ad vermək olar?**
"İnadkar Tısbağa".

4. **Altından xətt çəkilmiş sözü sinonimi ilə əvəz edin.**
Amma sözə baxmayıb Tısbağa yumbalandı.

**Diyirləndi**

5. **Hansı atalar sözü Tısbağanın başına gələn hadisəyə uyğundur?**
A) Çətin günün omrü az olar.
B) Sonrakı peşmançılıq fayda verməz.
C) Dost dar gündə tanınar.
D) Dostunu mənə gostər, deyim sən kimsən?

6. **Tısbağanın xasiyyəti necədir?**
A)Təvazökar, sadə.
B) Sözə baxmayan inadkar.
C) Qorxmaz,igid.
D) Mehriban,vəfalı.

7. **Dovşanın Tısbağaya məsləhətinə münasibət bildirin:**
Dovşan tisbağaya ağıllı dost məsləhəti verirdi. Bu təmsildir. Müəllif insanlara çatdırmaq istəyir ki, insan bacardığı işin dalınca getməlidir, gözüyumulu hər işdən yapışmamalıdır..

8. **Nümunədəki fikir ifadəli oxu zamanı hansı intonasiya ilə çatdırılmalıdır?**
*Yox, mən də qaçacağam,*
*Öyrətmirsən, öyrətmə.*
*Lap qustək uçacağam.*
A) Sevinc.
B) Təəssüf.
C) Lovğalıq.
D) Təəccüb.

9. **Əsərin ideyası hansı misralarda əks olunub?**
*Hər kəsin öz yerişi*
*Var, a Tısbağa qardaş!*

10. **Əsərin sonluğunu fərqli təsvir edin.**
Tısbağa Dovşanın sözünə baxıb öz yerişi ilə yeriyərdi, məhv olmazdı. Onların da dostluğu davam edərdi.

Scanned with ACE Scanner

**II variant**

**1. Hansı surətin nitqi daha ötkəm səslənir? Müqayisə edin.**

Tısbağanın nitqi. Dovşan onu nə qədər təmkinlə başa salır, amma Tısbağa deyir ki:

*Öyrətmirsən, öyrətmə,*
*Lap quştək uçacağam.*

**2. Mətndə altından xətt çəkilmiş sözlərdən fərqli tələffüz olunanını müəyyən edin və onun qarşısında cavab verdiyi sualı yazın.**

(Qaşma) – nə etmə?
(Söylüyüb) – nə edib?

**3. Hansı surətin dilindən deyilən sözləri daha həvəslə oxuyursunuz?**

- Tısbağanın.
- Dovşanın.

**4. Təmsildə hansı surətə haqq qazandırdığınızı əsaslandırın.**

Mən Dovşana haqq qazandırıram. İnsanlara aid olan xasiyyət və əməllər heyvanların üzərinə köçürülüb.Onlar insan kimi danışırlar.Müəllif Dovşanın diliylə demək istəyir ki, insan bacardığı işdən yapışmalı, boş-boşuna özünü öyməməli, lovğalanmamalıdır. Belələrinin sonu Tısbağa kimi olur, yəni məhv olur.

**5. Müəlliminiz təmsildəki surətlərdən birinin nitqini səsləndirməyi sizə təklif etsə, hansını seçərdiniz? Niyə?**

1-ci cavab: Dovşanın- ağıllı, təmkinli danışır.
2-ci cavab: Tısbağanın- çünki daha ötkəm, təsirli ifa etmək olur.

**6. Yoldaşlarınıza təmsilin məzmunu ilə bağlı hansı sualları verərdiniz?**

-Sən həyatda belə hadisəyə oxşar hadisəylə rastlaşmısanmı? Nəticəsi nə olub?

-Əsərin ideyası hansı misralarda əks olunub?

**7. Siz özünüzə dost seçəndə nələri əsas götürürsünüz? Üç nümunə yazın.**

Təvazökar.
Sədaqətli.
Ağıllı.

**8. Altından dalğalı xətt çəkilmiş sözü hecalara ayırın və onun düzgün tələffüz formasını yazın.**

Ad-dım-la [a d d ı m n a n. ]

**9. Təmsilin məzmunundan çıxardığınız nəticəni bir cümlə ilə yazın.**

Atalar sözü:"Ördək qaz yerişi yerimək istədi, öz yerişini də itirdi".

İstedadı, məntiqi olan şagirdlər fərqlənirlər. Elə şagirdlər var ki, hər gün təqdimatlar hazırlayır, illüstrasiya çəkir, sualları cavablandırır, internet səhifələrindən müəyyən araşdırmalar aparır və yüksək fəallığa görə alqışlanır və s. Summativ qiymətləndirmədə isə o qədər də yaxşı nəticə göstərmirlər. Amma hər gün fəallığı ilə diqqəti cəlb etməyən elə şagirdlər var ki, summativ qiymətləndirmədə düzgün, məntiqli cavabları ilə ən yüksək bal qazanırlar.Yekun qiymət də, təbii ki, summativ götürülür. Məncə, qiymətləndirmədə müəyyən dəyişikliklər etməyin zamanıdır.



# BƏDİİ ƏSƏRİN MƏZMUNUNUN KURİKULUMUN TƏLƏBLƏRİ ƏSASINDA ÖYRƏDİLMƏSİ

**Rəsmiyyə KƏRİMOVA,**
**Bakı şəhərindəki 55 nömrəli orta məktəbin müəllimi**

Beşinci sinifdə fənlərin kurikulum əsasında tədrisi müəllimləri ciddi axtarışlara, səmərəli yaradıcılığa istiqamətləndirir. Artıq məktəbdə müəyyən təcrübə qazanılsa da, fikir mübadiləsi aparmağa ehtiyac duyulur. Elə bu məqsədlə bədii əsərlərin məzmununun öyrənilməsi üzrə dərslərimdən bir nümunəni oxucuların diqqətinə çatdırıram.

**Mövzu:** Ə.Cəmil. Can nənə, bir nağıl de!

**Birinci saat:** Əsərin məzmunu üzrə iş.

**Məqsəd:**

- şeirdə tanış olmayan sözləri müstəqil müəyyənləşdirir, mənasını lüğət vasitəsilə aydınlaşdırır;
- şeirdə işlənən bədii təsvir vasitələrini müəyyənləşdirir;
- mənasını yeni öyrəndiyi sözlərdən şifahi təqdimatlarda istifadə edir;
- Əsərlə bağlı fərqli fikirlərini mətndən seçdiyi nümunələrlə aydın, ardıcıl şərh edir.

**Dərsin tipi:**

- induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, cütlük şəklində iş, bütün siniflə birgə iş.

**Metod və priyomlar:** əqli hücum, müsahibə, ikihissəli gündəlik.

**Təchizat:**

- Ədəbiyyat. 5-ci sinif üçün dərslik (müəlliflər S.Hüseynoğlu, B.Həsənli, Ə.Şərifova, Ə.Quliyev).
- Bədii söz ustasının ifasında "Can nənə, bir nağıl de!" şeirinin lent yazısı
- İş vərəqləri.
- Kinofilmdən fraqment izləmək üçün kompüter.

**Dərsin gedişi**

**Problemli vəziyyətin yaradılması və problemin qoyuluşu**

Şagirdlərə məşhur "Qaynana" filmindən nənə və nəvənin münasibətlərini əks etdirən kiçik bir fraqment nümayiş etdirirəm. Bu maraqlı fraqmenti şagirdlər diqqətlə izləyirlər. Onlarda xoş bir təəssürat yaranır. Sonra şagirdlərə filmdəki nənə və nəvənin münasibəti ilə bağlı öz fikirlərini bildirmələrini xahiş edirəm. Çox tezliklə şagirdlər yerbəyerdən öz fikirlərini bildirirlər. Şagirdləri tədqiqat sualının müəyyənləşdirilməsinə və tədqiqata hazırlamaq məqsədilə aşağıdakı sualların əsasında müsahibə aparıram:

1. Siz nənə və babanızın sevgisini qazana bilmisinizmi?
2. Nənənizdən sizə nağıl söyləməsini tez-tezmi xahiş edirsiniz?
3. Nənə ilə birgə yaşamaq sizə xoşdurmu?
4. Sizin bu mehriban münasibətlərinizi özündə əks etdirən atalar sözü, bayatı bilirsinizmi?



Scanned with ACE Scanner

Müsahibə bitdikdən sonra şagirdləri tədqiqat sualının formalaşmasına yönəltmək üçün mühüm saydığım sualı verirəm: - Nənə və babalar ailədə məhz siz nəvələr üçün hansı yerdə dayanır? Şagirdlərin fikirlərini dinləyirəm və bundan nəticə çıxararaq sualı müəyyənləşdirirəm.

**Tədqiqat sualı:**

Nənənin nəvəyə olan qayğısı onun tükənməz sevgisini ifadə edə bilirmi?

Sinfə müraciət edirəm:

Bu sualı cavablandırmaq üçün tədqiqat aparmalısınız. Bunun üçün vasitə Ə.Cəmilin "Can nənə, bir nağıl de!" şeiri olacaq. Bu əsəri mükəmməl mənimsəməklə nənə və nəvə münasibətləri barədə çox mətləbləri anlayacaqsınız. Bu sizin gündəlik həyatınıza da öz təsirini göstərə bilər. Siz öz nənələrinizi daha yaxşı anlaya bilərsiniz. Gəlin ilk növbədə həmin şeirdən bir parçanı dinləyək.

Kompüterdən İ.Əsgərovun ifasında şeirdən bir parça dinlənilir. Sonra şagirdlərə şeirin bütövlükdə məzmunu ilə tanış olmağı təklif edirəm. Oxu fərdi qaydada, səssiz mütaliə şəklində həyata keçirilir, oxuya ayrılan vaxt başa çatdıqdan sonra cütlərin fikir mübadiləsi aparmalarına şərait yaradıram. Sonra şagirdlərdən onlara tanış olmayan söz, ifadə, fikir barədə sual verməlrini xahiş edirəm. Şagirdlər "hənir", "sazaq", "düyünçə" sözlərinin mənalarını aydınlaşdırmağı, "Kirpiklərin lap qovuşub", "Həsrət qonan gözlər", "Həsrət dolu gözlərindən uçdu qəm", "Öpdü onun xəyalını indi özgə bir aləm" ifadə və misralarındakı fikirləri izah etməyimi xahiş edirlər.

Bunu müsahibə aparmaqla həyata keçirirəm. Cavabları onlardan almaq üçün istiqamətləndirici suallardan, sinonim sözlərdən istifadə edirəm. Sonra şagirdlərə əvvəlcədən hazırladıqları ağ vərəqi şaquli xətlə iki yerə ayırmağı təklif edirəm. Şagirdlər vərəqin sol tərəfində "Əsərdə diqqətimi daha çox cəlb edənlər" (bu şeirdə ifadə olunmuş fikir, obrazlı lövhə, ifadə, təsvir və s. ola bilər) ifadəsini yazırlar, sağ tərəfdə nə üçün məhz bu qeydi apardıqlarının səbəbini izah edirlər. Bunun **ikihissəli gündəlik** olduğunu onlara başa salıram. Tapşırıq üzərində çalışan şagirdlərin işini diqqətlə müşahidə edir və hər biri haqqında aydın təsəvvür qazanmağa səy göstəririəm. Açıq-aşkar hiss olunur ki, şagirdləri daha çox düşündürən nənənin nəvəsinə olan nəvazişi, eyni zamanda səngərdə döyüşən atasını bir an belə yaddan çıxarmayan uşağın şirin xəyallarıdır. Bu da ondan irəli gəlir ki, şagirdlər tədqiqat sualı ilə tanışdırlar və onlar bu sualı daha dolğun araşdırmağa çalışırlar. Şagirdlər yazdıqları qeydləri dönə-dönə nəzərdən keçirir, bəzən dəyişir, daha maraqlı təqdimat hazırlamağa çalışırlar. Bu isə onların mətnə tez-tez müraciət etmələrinə və nəticədə mətnin məzmununu dərindən mənimsəmələrinə kömək edir.

| *Sıra* | *Əsərdə diqqətimi daha çox cəlb edənlər* | *Bunun səbəbi* |
|---|---|---|
| *1* | *Evimizdə səndən savay, gör heç varmı bir oyaq?*<br>*Gecə keçir, ev soyuyub, hənir gəlmir ocaqdan,*<br>*Taxt üstündə məstan pişik, odur yatır bayaqdan.*<br>*Ört üstünü, dərdin mənə, bax eşikdə yel əsir* | *Burada nənənin nəvəsinə olan qayğısı, məhəbbəti diqqətimi daha çox cəlb etdi* |
| *2* | *Elə yağır...sazaq qılınc tək kəsir* | *Bu misrada təşbehdən istifadə edilmişdir. Təsirlidir.* |
| *3* | *Bir gizilti duyur uşaq vücudunda bu ara,*<br>*Həsrət qonan gözlərini zilləyərək divara,*<br>*Çarpayının baş ucunda öz əliylə asdığı*<br>*Şəklə baxır, fikrə gedir, qucaqlayır yastığı* | *Uşağın həsrəti gözəl ifadə olunub* |



Ayrı-ayrı şagirdlərin şərhlərinin dinlənilməsi dərsin növbəti mərhələsində həyata keçirilir.

**Qazanılmış biliklərin mübadiləsi.**

Çıxış edən şagirdlərin bütün sinif tərəfindən diqqətlə dinlənilməsinə çalışıram. Bu, dərs zamanı ən vacib mərhələ sayılır. Bu zaman şagirdlər fikir mübadiləsi aparmalı, bütün şagirdlər sual vermək imkanından istifadə etməlidirlər. Bu zaman ən zəif şagird belə sual verməkdə maraqlı olur. Bu şərhdə daha nələr yaddan çıxıb? Bu parça diqqətimi niyə daha çox cəlb etdi? Bu izahda daha çox nələri görmək istərdik? Və s.

Çatışmayan cəhətlərin aradan qaldırılması, təsəvvürlərin aydınlaşması dərsin növbəti mərhələsində reallaşdırılır.

**Qazanılmış biliklərin müzakirəsi və formalaşdırılması.**

Müzakirə üçün istifadə etdiyim aşağıdakı suallar şagirdlərin bütövlükdə şeir haqqındakı təsəvvürlərini dolğunlaşdırmaq və təəssüratlarını tamamlamaq məqsədini güdür.

1. Nənənin nəvəyə olan sonsuz məhəbbəti hansı hissədə daha parlaq əks olunmuşdur?
2. Şair bu şeirdə nənə ilə nəvənin hansı həsrətindən söhbət açırdı?
3. Bu görüşü uşaq öz xəyalında necə təsəvvür edir?

Bu suallar əsaslandırılmış nəticənin çıxarılmasına istiqamət verir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.**

Şagirdlər qeyd edirlər ki, nənə ilə nəvənin münasibətlərindən aydın olur ki, onlar bir-birinə bağlı olan insanlardır. Burada gözəl bir ailə münasibəti əks olunmuşdur. Bu əsərdə kiçik qəhrəmanın düşüncələri, hissləri, başqalarına münasibəti, cavab axtardıqları suallar və s. geniş əksini tapmışdır...

**Qiymətləndirmə.**

Bu dərsdə qiymətləndirməni aparmağı şagirdlərin özlərinə həvalə edirəm. Onların hər birinə aşağıdakı formada qiymətləndirmə vərəqi verir və qeyd olunan tələbləri əsas götürməklə öz fəaliyyətinə cədvələ uyğun qiymər verməlırini xahiş edirəm.

**Özünüqiymətləndirmə cədvəli**

| **№** | ***Meyarlar*** | ***Nail oldum*** | ***Qismən nail oldum*** | **Nail olmadım** |
|---|---|---|---|---|
| *1* | *Fikrimi aydın çatdırmağa çalışdım* | | | |
| *2* | *Fikrimi əsərdən nümunələrlə şərh etməyə çalışdım* | | | |
| *3* | *Çıxışımın inandırıcı olmağına çalışdım* | | | |
| *4* | *Qurduğum cümlələrin düzgünlüyünə diqqət yetirdim* | | | |
| *5* | *Yersiz söz və ifadələr işlətmədim* | | | |
| *6* | *Məsələnin mahiyyətini aydınlaşdırmaq üçün müqayisələr apardım* | | | |
| *7* | *Öyrəndiyim yeni sözlərdən istifadə etdim* | | | |
| *8* | *Doğru nəticə çıxardım* | | | |
| *9* | *Mövzunu əhatə etməyə çalışdım* | | | |

**Yaradıcı tətbiqetmə.**

**Ev tapşırığı:**

"Əsər məndə hansı hislər yaratdı?" mövzusunda yığcam inşa yazmağı təklif edirəm.



Scanned with ACE Scanner

# SİNİFDƏNXARİC İŞLƏR TƏHSİLDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİNİN MÜHÜM AMİLİ KİMİ

**Əsmər BƏDƏLOVA,**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent**

***Açar sözlər:*** *Sinifdənxaric iş, "Kitabi –Dədə Qorqud", prinsiplər, şagird təşəbbüskarlığı, Biliyə Əsaslanan Cəmiyyətdə Müəllim Kompetensiyaları, beynəlxalq konfrans.*

Sinifdənxaric iş həmişə təhsil sistemində vacib, ehtiyac hiss olunan bir prosesdir. O, illər ərzində davam edən zəhmətli təlim-tərbiyə işinin keyfiyyətlə tamamlanmasına kömək edir. Ayrı-ayrı fənlərin spesifik cəhətlərinə uyğun proqram materialına dair əlavə biliklər verməyə, müəyyən problem məsələlər ətrafında geniş və hərtərəfli iş aparmağa, fənnə xüsusi meyl göstərənlərlə digər qrup şagirdlər arasında dərs prosesində mümkün olmayan məşğulluq həddini tənzimləməyə imkan yaradır, fənnin həm üfüqi, həm də şaquli istiqamətdə keyfiyyətlə mənimsənilməsinə, asudə vaxtın səmərəli təşkilinə fayda verir.

Sistemli, elmi əsaslar üzərində qurulmuş təhsilin mövcudluğu tarixində təbii ki, sinifdənxaric işlər də olmuşdur. Qabaqcıl və yenilikçi müəllimlər sinifdənxaric işlərdən daim istifadə etmişlər. Bu barədə zəngin elmi-pedaqoji ədəbiyyatda vardır və fundamental tədqiqatlar aparılmışdır. Lakin zaman dəyişdikcə tələbatlar da dəyişir; bu gün bütün dünyada qloballaşma prosesi gedir. Bir zaman mövcud olmuş dövlətlər indi xəritədə yoxdur. Təbii ki, baş verən proseslər gənc nəsllə bağlı qarşıya qoyulan tələbləri də dəyişir. İndi ümumdünya təhsil sisteminin modeli yaranmaqdadır. Bütün bunlar sinifdənxaric işlərə, onun təşkili və aparılmasına da yeni baxış tələb edir.

Sinifdənxaric iş təlimin təşkili formalarından biri olmaqla olduqca zəngin məzmuna malikdir. Qeyd etdiyimiz kimi,onun faydası onilliklərlə əvvəl həm təcrübədə, həm də elmi-pedaqoji cəhətdən sübuta yetirilmişdir. Məlumdir ki,şagirdlərin təlim və tərbiyəsi işi dərslə tamamlanmır. Dərsdən sonrakı vaxtı düzgün tənzim etməklə təlim –tərbiyə işi elmi əsaslar üzərində davam edərsə, asudə vaxtdan səmərəli istifadə olunarsa, insanın yüksək intellektli, zəngin mənəviyyatlı şəxsiyyət kimi formalaşmasına fayda gətirər. Bu baxımdan sinifdənxaric işlər təlim –tərbiyənin keifiyyətinin yüksəlməsinə müsbət təsir göstərən, ona fayda verən, ümumpedaqoji işi tamamlayan mühüm vasitədir.

Qeyd etdiyimiz kimi,sinifdənxaric işlərin həm təlim, həm də tərbiyə baxımından nə dərəcədə faydalı olduğu pedaqoji elmdə sübut edilmişdir. Təhsil ocaqlarında ondan hər fənnin özünün spesifik xüsusiyyətlərinə uyğun şəkildə istifadə təcrübəsi mövcuddur. Sinifdənxaric işlər istənilən proqram materialına dair əlavə biliklər verməyə, müəyyən problem məsələlər ətrafında geniş və hərtərəfli iş aparmağa imkan yaradır. Ona görə də məktəbdə aparılan təlm və tərbiyə işinin bu yönümü hər zaman diqqət mərkəzində olmuşdur.

Keşmiş Sovetlər dövründən sinifdənxaric işlərlə bağlı istər bir küll halında, istərsə də onun ayrı –ayrı növləri ilə bağlı çox sayda tədqiqatlar və məktəb təcrübəsi məlumdur. Lakin iş bununla tamamlanmayıb və tamamlanmayacaq. Çünki həyat inkişafdadır və o, pedaqoji prosesi, təlim və tərbiyə işini daim özünə tabe



etmişdir və edəcəkdir. Tarixin ən qədim qatlarından günümüzədək olan mərhələləri nəzərdən keçirsək, bunun şahidi olarıq.

Baxmayaraq ki, tarixdə sinif-dərs sistemi çex pedaqoqu Yan Amos Komenskinin adı ilə bağlıdır, amma ən qədim dövr məktəbləri belə əsas verir deyək ki, kahinlər, ustadlar, öyrədənlər uşaqlara haradasa oturaq bir yerdə təlim verirdilərsə, yəqin ki,onlara təlim hücrəsindən kənardakı faktları da göstərməyə çalışır və göstərirdilər.

"Kitabi –Dədə Qorqud" dastanlarında ("Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy") Qazan xan oğlu Uruza baş kəsib qan tökmək, haqqın alıb ad qazanaq təcrübəsinin olmamasını irad tutur. Uruz cavabında deyir ki, sən məni haçan götürüb kafir sərhəddinə çıxdın, baş kəsib qan tökdün ki, mən də səndən öyrənəm. Qazan razılaşır və oğlunu götürüb ova gedir.

Dastanın ümumi məzmunundan bəllidir ki, qədim oğuzlar həm oğlanlara, həm də qızlara mükəmməl tərbiyə verməklə bərabər, həm də onların təlimlərinə xüsusi diqqət yetirirdilər. Heç olardımı ki, Qazan xan tək mötəbər şəxsin oğlu təlimdən, tərbiyədən kənarda qalsın? Bu mümkün deyildi. Əgər belə olsaydı, Qazan yay çəkib ox atmağı, at çapmağı, qılınc işlətməyi bacarmayan bir cavanla necə ova gedərdi? Olardımı? Xeyr. Uruz, şübhəsiz, mükəmməl təlim və tərbiyə almışdı; çatışmayan "sinifdənxaric" yönüm idi: atanın onu daha da kamilləşdirmək üçün özü ilə səfərlərə, ovlara, döyüşlərə aparmaması. Əgər ata şəxsiyyətin formalaşmasında bu istiqaməti unutmasaydı, sabahkı gün özü dünyada olmayanda oğlunun bacarıqsızlığı səbəbindən taxt –tacın ona verilməyəcəyindən narahat olub ağlamazdı.

Deməк, böyüyən nəslin şəxsiyyət olaraq həm ailəsi və nəslinin, həm mənsub olduğu xalqın, həm də dövlətin layiqli, güvəncli təmsilçisi, davamçısı olması üçün mükəmməl təlim və tərbiyə prosesi olmalıdır. Bu prosesi tamamlayan, ona qüvvə verən iki bir -birindən ayrılmaz xətt var:

1) sinif -dərs prosesi;
2) sinifdənxaric işlər.

Sovet məktəblərində olduqca geniş sinifdənxaric iş şəbəkəsi mövcud idi. Böyüməkdə olan nəsli öncə sovet vətənpərvərliyi, kommunist əxlaqı ruhunda tərbiyə etmək və təlim materiallarının tədrisi zamanı verilən bilikləri daha da inkişaf etdirmək üçün rəngarəng sinifdənxaric tədbirlərdən istifadə olunurdu. İstər kənd, istər şəhər məktəblərində sinifdənxaric işlərə müraciət birmənalı idi və öz bəhrəsini verirdi.

Bildiyimiz kimi, hərtətərəfli inkişaf etmiş şəxs kamıl insan sayılır. Deməк, sinifdənxaric işlər insanı yetişdirib püxtələşdirən, onu həyata hazırlayan, əqli-mənəvi imkanlarını cilalayan yollardan biridir. Sinifdənxaric işin başlıca vəzifəsi məktəblilərin maraq, meyl və bacarıqlarının inkişafına, boş vaxtlarının ağıllı, səmərəli təşkilinə kömək etməklə sinif – dərs çərçivəsindən kənara çıxaraq şagirdlərin çox vaxt nə müəllimə, nə də valideynlərə məlum olmayan imkanlarını üzə çıxarmaq, onların şəxsiyyət kimi özünəməxsusluqlarını tapıb inkişaf etdirməkdir.

Sinifdənxaric işin böyük təlim əhəmiyyəti vardır. Elm o qədər zəngin, insan hazırlığına həyati tələblər o qədər intəhasızdır ki, çox vaxt dərsdə mövzu ilə bağlı bütün təfərrüatlara varmaq olmur. Bu zaman sinifdənxaric iş köməyə gəlir. Həm müəllim istədiyini əlavə edə bilir, həm də şagirdləri maraqlandıran suallar geniş təhlil olunur, müzakirədən keçirilir, məntiqi nəticələr tapılır.



Scanned with ACE Scanner

Bəs müasir şəraitdə sinifdənxaric iş təlim və tərbiyənin keyfiyyətini necə yüksəldə bilər? Suala cavab verməzdən əvvəl müasir şəraiti səciyyələndirmək gərəkdir.

İndi müəllimin pedaqoji fəaliyyətinə istər-istəməz təsir edən çox sayda amillər var. Onlardan biri və birincisi informasiya – kommunikasiya texnologiyalarıdır. Bu gün hansı şagirdin mobil telefonu yoxdur və hansı telefonda internet şəbəkəsi, "başqatan" oyunlar, müxtəlif proqramlar mövcud deyil? Hansı evdə televizordan, kompüterdən istifadə edilmir? Hansı televiziya kanalı sutka ərzində ancaq ağla, intellektə, mənəviyyata xidmət edən verilişlər göstərir? Çox az.

2011-ci ilin dekabrında Bakıda "Biliyə əsaslanan Cəmiyyətdə Müəllim Kompetensiyaları: Siyasət, Pedaqogika və Sosial Vərdişlər" mövzusunda beynəlxalq konfrans keçirildi. Dünyanın müxtəlif yerlərindən konfransa gəlmiş mötəbər iştirakçıların çıxışlarından belə nəticə hasil oldu ki, bugünkü rəqəmsal dünya müəllim sözünə, müəllim səriştəsinə güclü təsir göstərir. İndi şagird əvvəlki şagird deyil; o çox mətləbləri müəllimdən əvvəl, kompüterdən öyrənə bilir.

Sözə qüvvət üçün deyək ki, bu gün təlim –tərbiyə işi ilə məşğul olan hər kəs – psixoloqlar, humanitar sahə mütəxəssisləri, ağıllı ziyalılar kompüter texnologiyalarının təsiri nəticəsində uşaqların özlərini cəmiyyətdən təcrid etməyə çalışdıqlarını, aqressiyaya meylliliklərini, mənəvi dəyərləri başa düşmədiklərini, yaxud da başa düşmək istəmədiklərini qeyd edib həyəcan təbili çalırlar.

Müasr şəraitdə ailədə uşaqların tərbiyəsinə valideyn münasibəti də birmənalı deyil. Bəzi valideynlər nəzərə almırlar ki, uşaqlar televizorda gördüklərini həyatda baş verənlərdən fərqləndirə bilmirlər. Onlar üçün ekranda göstərilən hər şey,məsələn, atəş açaraq ekrandakı fiquru öldürmək maraqlı və cəlbedicidir. Belə bir cazibənin nəticəsində onlar özlərini ekran qəhrəmanları kimi hiss edirlər. Beləliklə, televizor və kompüter asılılığı onlarda başqalarının əzablarına acımaq qabiliyyətini itirir.

Biz dünyanın bir parçası olmaqla Müstəqil Azərbaycan Respublikasının vətəndaşlarıyıq. Məmnunluqla qeyd etmək lazımdır ki, bu gün Azərbaycan həqiqətləri, Azərbaycanın milli-mənəvi dəyərləri ən yüksək səviyyədən dünyaya tanıdılır və təbliğ olunur. Neft kapitalını insan kapitalına çevirmək kimi misilsiz ideya irəli sürülmüşdür. Bağçalar, məktəblər təmir olnur, yeniləri tikilir.

Yaxşı ki, etik-stetik cəhətdən yolverilməz olan, qaniçənliyə, qatilliyə, əxlaqi qüsurlara səsləyən və istiqamətləndirən saytlara ölkəmizin təhsil şəbəkəsində qadağa var. Heç bir şagird məktəb kompüterində internetə daxil olarkən ziyanlı təsirlərlə uğraşa bilməz. Bəs evdə, internet klubda, telefonda? Burada ki azadlıqdır.

Demək, müəllimin pedaqoji fəaliyyətinə müsbət yönümlə yanaşı mənfi təsir edən müasir amillərdən biri kompüter texnologiyalarıdır. Hələ formalaşmamış, pisi yaxşıdan ayıra bilməyən şagird belə təsirlərə tez düşür. O, müəllimindən, valideynindən çox virtual dostuna inanır. Vaxtını daha çox onunla keçirməyi, ondan öyrənməyi münasib sayır.

İkinci tərəfdən indi dünyada çox güclü bir hərəkat –qloballaşma prosesi gedir. Qloballaşmaya güc verən iqtisadi amillərdirsə, onu sürətləndirən və rəng çalarlarını çoxaldan yenə sürətli informasiya axını, bu axını daşıyan, çatdıran texnoloji vasitələrdir.

Qloballaşma hansı təzahürləri qabardır?



-milliliyi aradan götürür;
-miqrasiyanı adi həyati zərurətə çevirir;
-milli – mənəvi dəyərlər inteqrasiya olunur;
- fərdilik və özünəməxsusluq itir və s.

Saydığımız bu qabarmalar fonunda Yer üzü əhalisinə dayanmadan xəbərlər çatdırılır; istər agentliklər, istər tele –radio kompaniyalar, istərsə də min dürlü vasitələrlə. Onların əksəri nə heç bir xalqın tarixi ənənəsinə, nə də dinin şəri qanunlarına uyğun olur. Gənc nəsil əxlaqdan, mənəviyyatdan, insani dəyərlərdən uzaq olan bu xəbərləri video görüntülər fonunda və aparıcının robotanə, hissiz, duyğusuz, biganə danışıq tərzində eşidib görür. Dayanmadan yeniləşən və əksərən abırsızlıqla dolu reklamlardan, kliplərdən, qəddar səhnələrlə dolu seriallardan nümunə götürür.

Şagirdlər dərsə və əlavə hazırlığa gedirlər. Bax bu əlavə hazırlıqla sinifdənxaric iş məsələsi biri digərinin haqqını əlindən almış iki yoldaşa bənzəyir. Sinifdənxaric iş haçan keçilməlidir? Adından göründüyü kimi, dərsdənkənar vaxtda. Şagirdlərin təlimə hazırlıq, istirahət və digər qayğılara sərf etdiyi vaxt başa çatdıqdan sonra qalan asudə vaxt hesabına. Təəssüf ki, asudə vaxt yoxdur.

O, əlavə hazırlığa gedir. Ona görə də bu gün məktəblərimizdə sinifdənxaric işlər əvvəlki keyfiyyətində deyil; çeşidlər yoxdur, bütün kollektivlər üçün bəlli olan bir neçə tarix var ki, onlar hər il qeyd edilsə də ətrafında ilboyu digər əlvanlıqlar olmadığı üçün onlar çox cılız görünür və şagirdlərdə protokol qaydası təəssüratı yaradır.

Bugünkü Azərbaycan şagirdi bəxtəvərdir. Çünki o, azad və müstəqil Vətəndə yaşayır. Dövlət onun yüksək səviyyədə təəssübünü çəkir. Bəs o, bəxtəvərliyini dərk edirmi? Dərk etməsində sinifdənxaric işlərin də özünəməxsus rolu ola bilər. Sinifdənxaric iş növləri daha geniş imkan yaradır ki, şagirdlər öz kökündən qüvvə alsın, qürrələnərək böyüsün, başqalarını yamsılamasın. Sidq ürəklə *"Mən fəxr edirəm ki, azərbaycanlıyam"* deyə bilsin.

Belə düşünmək səhv olar ki, sinifdənxaric iş ancaq tərbiyə edir. O həm də təlim vasitəsidir. Ona görə də müvafiq təlim materialı ilə, həyatı hadisələrlə, tarixi məqamlarla əlaqəli hazırlanan sinifdənxaric iş *mahiyyət* etibarilə pedaqoji prosesi zənginləşdirən, şagirdlərə həm əqli, həm mənəvi zövq verən, onları məktəbin cazibəsində saxlayan, ziyanlı vərdişlərdən uzaqlaşdıran təlim və tərbiyə vasitəsidir. Məktəbdə sinifdənxaric tədbirlərin keçirilməsindən *məqsəd* də budur.

Məqsədi həyata keçirmək üçün müəllim dövrün və şəraitin tələblərinə uyğun *prinsiplər* seçməlidir. Prinsiplər həm ümumi –bütün kollektivlərə şamil edilə bilən, həm də spesifik –məktəb və məktəb mikrorayonunun imkanlarına uyğun ola bilər. Onları aşağıdakı kimi təsnif etmək olar:

-sinifdənxaric işin həyatla, inkişafla əlaqələndirilməsi prinsipi;
-sinifdənxaric işin təlim materialları ilə əlaqələndirilməsi prinsipi;
-sinifdənxaric işin müvafiq təlim materialına fayda gətirə biləcək məqamda (ondan əvvəl, onunla paralel, ondan sonra) keçirilməsi prinsipi;
-sinifdənxaric işin tərbiyəedici prinsipi;
-sinifdənxaric işin inkişafetdirici prinsipi;
-şagirdlərin sinifdənxaric işlərə cəlb olunmasında onların meyl, maraq, istedad və bacarıqlarının, fərdi xüsusiyyətlərinin nəzərə alınması prinsipi;



Scanned with ACE Scanner

-şagirdlərin sinifdənxaric işlərə cəlb olunmasında könüllülük prinsipi;

-sinifdənxaric tədbirlərin hazırlanmasında şagirdlərin yaş fərqlərinin nəzərə alınmaması prinsipi;

-sinifdənxaric işlərin təşkilində şagird təşəbbüskarlığının nəzərə alınması prinsipi;

-sinifdənxaric işlərin hazırlanması və keçirilməsi zamanı xüsusi istedadlı şagirdlərə diqqətlə yanaşılması, yaradıcı müstəqillik prinsipi və s.

Sadalanan prinsiplər nəzərə alınmaqla şagirdlərin sinifdənxaric işlərdə iştirakı fərdi, qrup halında və kollektiv səciyyə daşıyır. Onların hər üçü faydalıdır və bir –biri ilə əlaqəlidir. Belə ki, fərdi sinifdənxaric işlər məhz xüsusi istedad və bacarığı olan şagirdlər üçündür, sırf yaradıcı səciyyə daşıyır. Qrup halında keçirilən sinifdənxaric işlərə, məsələn dərnəklərə istedadlılarla bərabər meyl və marağı olan şagirdlər cəlb edilir. Kütləvi işlər isə hamı üçündür. Bu işlərdə iştirakla hamını sevindirmək, diqqət mərkəzində saxlamaq, məqsədyönlü təlim və tərbiyəvi təsir göstərmək müəllimin öz istedadından, işinə məhəbbətindən və pedaqoji səriştəsindən asılıdır.

Nəticə olaraq deyə bilərik ki, sinifdənxaric işlər təhsilin vacib komponentlərindən biridir. Onun həm təlim, həm də tərbiyəvi əhəmiyyəti vardır. Böyüməkdə olan nəslin təlim və tərbiyəsində sinifdənxaric işlərdən həmişə istifadə olunmuşdur. Lakin hər dövrün öz tələbi olduğu üçün müasir dövr sinifdənxaric işlərin məzmununa və təşkilolunma tərzinə yeni baxış tələb edir.

### ƏDƏBİYYAT

*1.Azərbaycan Respublikası Prezidentinin İkinci Bakı İqtisadi Forumunda çıxışı. "Azərbaycan" qəzeti, 5 oktyabr 2012.*

*2.Y.Talıbov və başqaları. Məktəblərin milli mentalitet əsasında tərbiyə edilməsi. Bakı, "Maarif", 2004*

*3."Biliyə Əsaslanan Cəmiyyətdə Müəllim Kompetensiyaları: Siyasət, Pedaqogika və Sosial Vərdişlər" mövzusunda Beynəlxalq Konfransın Materialları. Bakı, 1- 2 dekabr 2011.*

*4.V.Xəlilov. Seçilmiş əsərləri. 1 cild. Bakı,2011.*

### РЕЗЮМЕ

***Внеурочная работа как основания роль в повышении качество в образовании***

*В статье говорится о стиле организации и новых взглядов в содержании внеурочных равот на современном этапе.*

### SUMMARY

***Out –of –Class Vvorks as Main Faktor in Raising the Quality in Edukation***

*The artikle deals vvith the demands of the approach to the nevv vvay of thinkink on the content and orqanization of the out –of- klass vvorks in modern times.*



# MONOLOJİ NİTQİN ASPEKTLƏRİ

**Məlihə ƏSƏDOVA,**
**Bakı şəhərindəki 111 nömrəli məktəbin müəllimi**

***Açar sözlər:*** *monoloq, dialoq, aspekt, məqsəd, vəzifələr.*

Danışıq dili özündə intellektual və emosional nitqi birləşdirir və bu, adətən, dialoq və monoloq formalarında təzahür edir. Monoloq mətnlərdən qurulur. Mətn isə müəyyən məqsəd ümumiliyi əsasında birləşən və sintaktik-semantik bütöv yaradan cümlələr birliyidir. Monoloqu təşkil edən cümlələr müvafiq qəlibdə nizamlanır.

Monoloji nitq mahiyyətcə hər hansı fikir, ideya, məsələ, problem, məlumat haqqında bir nəfərin nitqidir. Monoloqun sahibi məlumatın həcmini, məzmununu, xarakterini, hansı dil materiallarından istifadə edəcəyini qabaqcadan özü müəyyənləşdirir, burada danışan fikrini aydın, dəqiq və məntiqi ardıcıllıqla çatdırmaqdan ötrü nitqini əhatəli şəkildə təşkil edir.

Monoloqun kommunikasiya prosesini təmin edən elmi əsasları mövcuddur. Bunlar psixoloji və linqvistik əsaslardan ibarətdir. Psixoloji əsaslar dil və təfəkkürün qarşılıqlı əlaqəsi kimi qlobal problemin həllində mühüm rol oynayır. Təfəkkürdə yaranan fikir dil materialı olan söz, söz birləşməsi, cümlə, sintaktik bütöv vasitəsi ilə təzahür edir. Bu materiallardan istifadə olunaraq insanlar arasında dialoq və monoloq qurulur. Təfəkkürün daha gərgin, daha dərin və səmərəli fəaliyyəti ayrı-ayrı dialoq və monoloqlarda üzə çıxır.

Hər bir monoloq parçasında psixoloji cəhətdən təfəkkürün müstəqil fəaliyyəti təmin olunur, həmin nitq situasiyasını yeni-yeni informasiyalarla zənginləşdirmək meyili yaranır. Psixoloji faktlarla dil faktları dialoq və monoloqda təsvir edilən hadisələri qiymətləndirmək, təhlil etmək, qarşılaşdırmaq, ümumiləşdirmək tələblərini də yerinə yetirir.

Monoloqun linqvistik əsaslarını onların formalaşma qayda və üsulları, məna və funksiyaları, işlənmə şərtləri, qrammatik-sintaktik səviyyələri və s. əhatə edir. Monoloji nitqin linqvistik-psixoloji təbiətini öyrənmək bu gün tədqiqatçıların işinin əsas məqsəd və vəzifələrindəndir.

Bu sahə pedaqogika və metodikada bir neçə aspektdən araşdırılır:

- danışıq dilinin ən ümumi və səciyyəvi qanunlarının monoloji nitqdə necə təzahür olunduğunu aydınlaşdırmaq;
- monoloqun komponentlərini müəyyənləşdirmək;
- monoloqun məzmununu, ifadə tərzini, kəskin situasiyalarını və digər psixoloji məqamlarını dəqiqləşdirmək;
- monoloji nitqin struktur-semantik xüsusiyyətlərini müəyyən etmək;
- monoloji nitqin replikalarını müxtəlif kommunikativ istiqamətlərdə araşdırmaq;
- monoloji nitqi dialoji nitqdən fərqləndirən başlıca əlamətləri müəyyənləşdirmək;



Scanned with ACE Scanner

- monoloji nitqə məxsus cümlələrin funksiya və növlərini araşdırmaq;
- monoloji nitqdəki cümlə üzvlərinin sırası məsələsini nəzərdən keçirmək;
- monoloji nitqin ən səciyyəvi cəhətlərini ortaya çıxarmaq;
- monoloqun funksional cəhətlərini ayırd etmək və s.

Monoloji nitqin özünəməxsus terminləri mövcuddur: daxili səslənmə, müəllif müdaxiləsi, növbəli müdaxilə, öz-özü ilə deyişmə, gizli təklənmə və s. (1, s.56). Monoloji mətnin məzmununa görə bu terminoloji vahidləri mövcuddur: tamamlayıcı-yekunlaşdırıcı; aydınlaşdırıcı; istiqamətləndirici; icraedici; psixoloji affekt; nəticə; müqəddimə (2, s.56).

Psixoloji yöndə monoloq fasiləsiz, əlaqəli, ardıcıl və məntiqi xüsusiyyətə malik olur. Bu nitqin rəvan getməsi üçün danışan adamın verəcəyi məzmunu aydın dərk etməsi, zəngin söz ehtiyatına malik olması, nitqin emosionallıq xüsusiyyətlərinə, dilin qayda-qanunlarına mükəmməl yiyələnməsi əsas şərtdir. Monoloji nitqin quruluş sxemi, tələb və xüsusiyyətlərinə görə fərqlənən bir çox növləri vardır ki, bu da terminoloji xarakter daşıyır. Həmin terminlər bunlardır: mühazirə, məruzə, məlumat, çıxış, nitq və s. (2, s.89).

Monoloji nitqin növləri bunlardır: razılıq ifadə edən monoloqlar; narazılıq ifadə edən monoloqlar; nəqletmə ifadə edən monoloqlar.

Monoloqun cümlə kontruksiyaları sintaktik baxımdan eyniplanlı və bərabərhüquqlu olur. Onlardan biri digərini izah edir, tamamlayır. Belə cümlələr vahid məqsədə xidmət edir. Dialoji nitqdən fərqli olaraq burada cümlələrin sayı çox olur, nitq uzun müddət davam edir, fikir bitkinləşir. Bitkin, tam fikir monoloqun quruluşunu xarakterizə edir.

Monoloji nitqdə sözə qənaət etmək, təkrara yol verməmək, nitqin təbiiliyini və aktuallığını təmin etmək məqsədilə yarımçıq cümlələrdən istifadə edilir. Ümumən monoloji nitq, onun şifahi tipi geniş yayılmış nitqdir. Şifahi monoloji nitq əvvəlcədən planlaşdırılır, proqramlaşdırılır.

Monoloji nitqi vahid fikrə və tam struktura malikdir. Monoloji nitq bitkinlik dərəcəsinə görə müxtəlif hissələri öz aralarında tematik cəhətdən birləşdirir. Situativ vəziyyət və nitq mühiti monoloji nitqi şərtləndirən cəhətlərdəndir. Nitq situasiyası anlayışına linqvistik anlayış kimi də yanaşmaq lazımdır. Bu anlayış monoloji fikri ifadəetmə prosesində meydana çıxır. (1, s.133).

Monoloqların üslubu sinkretik xarakterlidir. Məsələn, yazıçı Anarın qurduğu monoloqlar sinkretikliyi ilə fərqlənir. Monoloqlarda qeyri-müəyyən şəxsli cümlələr işlənir.

Monoloji nitq forma və məzmununa görə aşağıdakı növlərə bölünür:

a) nəqletmə monoloqu, b) təsviri monoloq, c) məlumatverici monoloq, ç) fikir söyləmə səciyyəli monoloq, d) təsdiqləmə səciyyəli monoloq (2, s.37).

Monoloji nitqin növləri, əsasən, həmin nitqin quruluş və əlamətlərinə görə müəyyənləşdirilmişdir.

1. Monoloji nitqin mühazirə forması. Mühazirə formasından, əsasən, ali məktəblərdə müxtəlif fənlərin tədrisində istifadə olunur. Bu, effektli şərh üsulu sayılır. Burada müxtəlif dil vasitələrindən, monoloji nitq üçün səciyyəvi olan təsvir, şərhetmə, mühakimə yürütmə, səciyyələndirmə və s. forma-üsullarından istifadə olunmuşdur.



2. Monoloji nitqin məruzə forması. Məruzənin məzmun baxımından müxtəlif tipləri ilə qarşılaşmaq olur: müəyyən müddətə görülmüş işlərin hesabat məruzəsi, yaranmış fövqəladə vəziyyət haqqında məruzə, elmi-praktik konfranslarda, simpoziumlarda edilən məruzələr.

3. Monoloji nitqin məlumat forması. Hər hansı bir məsələ haqqında məlumatlar verilir.

4. Monoloji nitqin çıxış forması. Hər hansı bir çıxışın uğuru, nitqin dinləyicini inandırmaq və özünə tabe etmək bacarığı öncə nitqin uyğunluğundan asılıdır. Çıxışların məzmunu fərqli xüsusiyyətlərə malikdir.

5. Məktub şəklində olan monoloqlar.

Monoloji nitqin linqvistik əsası onun leksik, qrammatik-üslubi xüsusiyyətləri ilə şərtlənir. Qrammatik-üslubi cəhətdən monoloji nitqin inkişafda olan əlamətləri aşağıdakılardır:

- cümlələrin həcminin tədricən genişlənməsi;
- söz və ifadələrin ardıcıllığının, dəqiqliyinin tədricən gözlənilməsi;
- səbəb və nəticə, zaman əlaqələri ifadə edən cümlələrin işlənməsi;
- nitqdə mürəkkəb cümlələrin tədricən təşəkkül tapması və s (3, s.34).

Monoloji nitqin sərbəstliyi qismən, həmin fikir üçün münasib dil vasitələrindən seçici şəkildə istifadə etmək bacarığı, daha doğrusu, danışan adamın fikrini, ifadə etmək istədiyi məzmunu daha dəqiq verə bilən sözlərdən, söz birləşmələrindən, cümlələrdən istifadə etmək bacarığını tələb edir.

### ƏDƏBİYYAT


1. *Ağayeva Firəngiz. Şifahi nitqin sintaksisi. «Maarif» nəşriyatı, Bakı, 1975, 280 s.*
2. *Якубинский Л.П. Русская речь. Сборник статей под ред. Л.В.Щербы. Издание фонетического института практического изучения языков. Петроград, 1923. 67 с.*
3. *Кучинский Г.М. Диалог и мышление. Минск. Вышейша школа, 1983, 190 с.*


### РЕЗЮМЕ


**Аспекты монологической речи**

*В статье исследуются структурно-семантические особенности монологической речи. Монолог, так же как и реплика, диалог, фраза, относится к элементам речи и в исследовании изучается по той же системе.*


### SUMMARY


**Aspects of monologue speech**

*In the article investigate the structural and semantic features of monologue speech. Monologue, as well as a replica of the dialogue, the phrase refers to the elements of the speech in the investigation study and the same system.*




Scanned with ACE Scanner

# XALQ YAZIÇISI İLYAS ƏFƏNDİYEV HAQQINDA DÜŞÜNCƏLƏR

**Qənirə ƏMİRCANOVA,**
**pedaqoji elmlər üzrə fəlsəfə doktoru,**
**Bakı şəhərindəki 190 nömrəli tam orta məktəbin müəllimi,**
**əməkdar müəllim**

Payız fəslini heç sevmirəm. Qəribə bir süstlük, qəriblik dolur içimə… Oxucu düşünə bilər ki, payızla haqqında söhbət açacağım yazıçı - dramaturq, hamının sevimli nasiri İlyas Əfəndiyev arasında nə əlaqə? Əslində belə deyil.

Yadımdadır, 1996 –cı ilin 3 oktyabrı idi. Xəbər yayıldı ki, xalq yazıçısı İlyas Əfəndiyev dünyasını dəyişib. "Ədəbiyyatımıza ağır itki üz verdi, onun yerini kim tuta bilər?" – deyə düşündüm, kövrəldim. Əlbəttə, heç kim. Elə şəxslər olur ki, Tanrı onları dünyaya sevib- seçdiyi sənətdə əbədi yaşamaq üçün göndərir. Müxtəlif zaman kəsiyində də onları heç kimlə əvəz etmək olmur. Bəzilərinə görə, əvəz olunmayan şəxs yoxdur. lakin kim Nizami, Füzuli, İlyas Əfəndiyev, B. Vahabzadə ola bilər?

O, keçən əsrin lirik psixoloji üslubda yazıb – yaradan ən qüdrətli sənətkarıdır. Xalqımızın mentalitetinə uyğun gəlməyən "qaydaları" məmləkətdə zorla yaymaq istəyənlərə qarşı öz əsərləri ilə mübarizəyə atılıb, onların "qələmini sındırmaq" bu yazıçının müqəddəs amalı idi. Kanaldan kanala ötürülən Braziliya seriallarının nümayişini müşahidə edərkən "Sən həmişə mənimləsən" dramının əsas qəhrəmanları – Nargilə və Həsənzadəni xatırlayır, "dünya bu gün Həsənzadələrin çiynindədir, yoxsa o, məhvərindən qopar," – deyə düşünürəm. Bir insan kimi Həsənzadənin düşüncəsi onun düşüncəsi, əməli deyildimi?! Yoxsa əsərləri bu qədər təbii, oxunaqlı olardımı?! Hər dəfə işdən sonra bir qədər dincəlmək, ruhən sakitləşmək üçün İlyas Əfəndiyevin əsərlərinə müraciət etmirikmi?! Bir müəllim kimi onun yaradıcılığından söhbət açacağım günü səbirsizliklə gözləyir, dərsə ruhumla hazırlaşıram. Hər dəfə də əsərlərində təhlil zamanı yeni tapıntılar üzə çıxır və sözün həqiqi mənasında, ölməzliyinə, əbədiliyinə inanıram.

Böyük əsərlər dəhşətli əzablar içində doğulur. Əgər belə olmasaydı, dünyaya hələ keçən əsrdə Qarabağ dərdini "Xurşidbanu Natavan"nın dilindən söyləməzdi. Qarabağ əzabı ilə yanıb qovrulan yazıçının özü deyildimi?! Haqsızlıq və ədalətsizliyin qurbanı kimi əyani təhsilinin qiyabi təhsillə əvəz edilməsi onun mənəvi gözəlliyini korşalda bildimi?! Öz zəhməti ilə güzaranını bir qədər yaxşılaşdıran atasına "bəy damğası" vurulanda , məzəmmətli və qıyqacı baxışları uşaqlıq illərində görüb, faciəsini gənclik illərində yaşayan İlyas Əfəndiyev dünyadan, bu dünyanın adamlarından qisas almaq haqqında düşündümü?

Tanrı onu aldıqlarının əvəzində daha çox mükafatlandırdı: qəlbinin işığını, nurunu günbəgün artırdı. Elə bu işıq altında ədəbiyyatımıza bir-birindən gözəl əsərlər bəxş etdi. Nə qədər insanlar onun qəhrəmanları ilə birgə doğuldu, böyüdü, yaşa doldu! Dönüb geriyə baxanda isə "Geriyə baxma, qoca"- söylədi. Dedi ki, insan bu dünyaya yalnız xeyirxahlıq üçün gəlir, elə yaşa ki, dönüb keçmişin əzabında qovrulmayasan, unutma ki, həyat həyatı sevənindir . Xalqını o qədər sevib, ona o qədər bağlandı ki, yaratdığı qəhrəmanları sanki bir rəssam fırçası ilə təsvir etdi. Oxucu povest və romanların surətlərini qəlbinin işığı ilə gördü, sevdi. Müəllif isə oxucularını özünün müəllimi sandı. hətta ona yazılmış məktublardan faydalandı. Əslində gözəl yazmaq



üçün gözəl düşünmək lazımdır, çünki çox yazan deyil, gözəl yazan əbədi yaşayır. Gözəl düşünmək üçün geniş müşahidə qabiliyyəti. zəngin söz ehtiyatı və mənəvi gözəllik çox vacibdir. Bunlarsız ədəbiyyat ədəbiyyat ola bilməz. Kiçik hekayələrindən böyük romanlarına qədər uzun, keşməkeşli bir yol keçib İlyas Əfəndiyev. Axtarıcılıq qabiliyyətinin nəhayətsizliyi hökmdarlığa qədər ("Hökmdar və qızı") yol gəlib. Tələbə Nuriyyəni ("Söyüdlü arx") Azərbaycan Milli Dram Teatrının səhnəsinə çıxarana qədər çox sınaqdan çıxarıb, başa salıb ki, qadın ən böyük məhəbbət üçün də başqalarının bədbəxtliyinə bais ola bilməz, buna onun mənəvi haqqı yoxdu. Bax budur əsl azərbaycançılıq…

"Körpüsalanlar"ı yazmaqla Adilləri tərbiyə edir, öyrədir ki, qadının qəlbi sehrli bir aləmdir, onu maddi cəhətdən təmin etmək hər şey demək deyil, o, hər bir münasibəti qədərində arzulayır, sərbəstlik və qısqanclığın bərabərləşməməsi fəlakətin başlanğıcı olur. Belə ailədə doğulan uşaq cəmiyyətdə nöqsanlı mövqe tutur. Elə ona görə də Səriyyə ilə Adilin övladları olmadan ayrılırlar. Bu isə İ. Əfəndiyevin görmək istədiyi idi: çünkü insanın cəmiyyətə münasibətinin özülü sağlam ailədən başlayır. Ona görə də müəllif həm özü, həm də oxucuları üçün şirin bir nağıl ("Valehlə Sarıköynəyin nağılı"nı) yazır. Bu nağılı oxuyanda dünyanın əzabı da sənə şirin gəlir. Yazarkən yaşının 60-dan keçməsinə baxmayaraq, əsl gənclik təravəti, ab-havası oxucunu məmnun edir, sevincdən kövrəldir. Düşünürsən ki, insanın ən ali duyğusu olan məhəbbət nələrə qadirmiş, çünki, sevginin döyərək açmadığı qapı, gedərək çatmadığı hədəf, baxaraq oxşamadığı qəlb yoxdu. Sevinc və kədərilə bir-birinə məhrəm olan iki gənc, iki azərbaycanlı həyatın onlar üçün hazırladığı çətinliklərə birgə sinə gərirlər. Onlara qarşı qurulan qurğular Valeh və Sarıköynəyin saf, təmiz məhəbbətini parçalaya bilmir, əksinə, onları daha çox bağlayır, doğmalaşdırır. Və onlar başa düşürlər ki, bu dünyaya bir-birilərini tanımaq, sevmək üçün gəliblər. Romanın ən müsbət cəhətlərindən biri də odur ki, onların iş yoldaşları, bütün kollektiv bu gəncləri sevir və qoruyur. Müəllif cəmiyyətin nöqsanlarını məhəbbət yolu ilə tərbiyə etmək istəyir, oxucunu həyat eybəcərliklərinin yalnız sevginin gücü ilə ram ediləbiləcəyinə inandırır. O, gəncliyə tövsiyə edir ki ,"Billur saray"ın işığına aldanıb, xoşbəxtliyi var-dövlətə qurban verənlər həmişə olublar. Elə etmək lazımdır ki, insan bu mənəvi səfalətin qurbanına çevrilməsin, hadisələrə daha ayıq baxa bilsin, çünki "Atayevlər ailəsi" nin ailədaxili çəkişmələrini xırda nöqsanlar zəminində həll etmək, onun böyüyüb cəmiyyəti bürüməsinə yol verməmək lazımdır.

Mən sevimli xalq yazıçısı İlyas Əfəndiyevi ilk dəfə tələbəlik illərində Azərbaycan Dram Teatrında ədəbi-bədii gecədə görmüşdüm. Həmin görüşdən xeyli müddət keçməsinə baxmayaraq, bugünkü kimi xatırlayıram. Xatırlayıram ki, o oxucularının fikirlərinə necə hörmətlə yanaşır, əsərlərinə münasibəti onların öz ixtiyarına buraxırdı. O da yadımdadır ki, tələbə yoldaşlarımızdan biri "Oğlunuz Elçinin yaradıcılığına münasibətiniz necədir?" – deyə sual edəndə o, "Onun haqqında sözü yalnız siz oxucular deyə bilərsiniz" söylədi və oğlu haqqında heç bir tərif demədi. Biz başa düşdük ki, xalq yazıçımız, hətta övladı haqqındakı fikirləri də oxucunun ixtiyarına verdi.

Bax o mənim yaddaşımda beləcə - üzügülər, nurani, danışarkən təmkinli, qəlbinin işığı sifətində olan müdrik bir insan, böyük yazıçı, gözəl dramaturq kimi qalır. Elə buna görə də xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı, yaşından asılı olmayaraq, hər kəs üçün qiymətlidir. Çünkü bu əsərlər insanlıq və insanlar üçün yazılmış bir xəzinədir. Elə bir xəzinə ki, zaman-zaman daha dəyərli olur xalq üçün, millət , vətən üçün… bütöv Azərbaycan üçün…



Scanned with ACE Scanner

# FUNKSİONAL ÜSLUBLAR HAQQINDA

*Elmi- publisistik, yoxsa elmi- kütləvi?*

**Nabatəli QULAMOĞLU,**
**Bakı şəhərindəki 73 nömrəli tam orta məktəbin müəllimi**

Builki qəbul imtahanlarında Azərbaycan dili fənni üzrə istifadə edilmiş testləri araşdırarkən məlum oldu ki, bəzi elmi məlumatlardan yanlış istifadə edilmişdir. Bu, iki səbəbdən baş verib: 1) elmi məlumat öz əksini dərslikdə düzgün tapmamışıdr; 2) elmi məlumat test müəllifləri tərəfindən düzgün başa düşülməmişdir. Nümunələrə müraciət edək.

2013, III qrup, C variantı, 21-ci test tapşırığı.

Verilən mətnin lüğət tərkibi anlaşıqlı, dili sadə və aydın, sintaksisi danışıq dilinə yaxındır. Mətndə həm də təsviri şərhin əlamətləri var.

Sadalanan xüsusiyyətləri nəzərə alaraq mətnin aid olduğu üslub:

A) bədii; B) publisistik; C) elmi; D) rəsmi-işgüzar; E) məişət.

Dəmirağacın oduncağı dəmir kimi olur, davamlı və möhkəmdir. Hündürlüyü 14-25 metrdir. 200 ilə qədər yaşayır. Çox qollu- budaqlıdır, əvvəlcə çiçək açır, sonra yarpaqlayır, istisevən bitkidir. Daha çox Azərbaycanın Talış meşələrində və Xəzərin cənub sahillərində bitir. Şəki-Balakən massivində də dəmirağac meşələri var.

Müəlliflərin fikrincə, düzgün cavab B bəndində verilib. Bu isə o deməkdir ki, mətn publisistik üslubdadır.

Dilçiliyin başqa sahələri dilin daxili quruluşundan bəhs etdiyi halda, üslubiyyat onu funksional cəhətdən öyrənir. Dillər daxili quruluşuna görə bir- birindən fərqlənir, lakin üslubiyyatın tədqiq etdiyi məsələlər bütün dillərdə eynidir. Ona görə də bəzi alimlər dilimizin özəl keyfiyyətlərinin olduğunu bəhanə edib dünya dilçilik elmindən fərqli mülahizələr yürüdə bilməzlər. Dünya dilçiliyində üslubiyyatla bağlı iki əsas konseptual fikir var: 1) ədəbi dilin üslubu mətnsiz ola bilməz; 2) üslubun növü yalnız və yalnız mətn müəllifinin qarşısına qoyduğu başlıca məqsədlə müəyyən edilir. Məhz buna görə də stilistikanın əsas vəzifəsi funksional üslubları, onları ifadə etmək üçün müxtəlif leksik və qrammatik vasitələrin məzmununu öyrənməkdir. Dərslikdə (Azərbaycan dili, 11- ci siniflər üçün. T. Hacıyev, N. Cəfərov, N. Xudiyev, Bakı, 2012) Azərbaycan ədəbi dil üslublarının təsnifatı şagirdlərə yalnız bir prinsip əsasında təqdim edilmişdir: bədii üslub, elmi üslub,publisistik üslub,məişət üslubu və rəsmi- işgüzar üslub.

Dünya dilçiliyində isə üslubların təsnifatı bir neçə prinsip əsasında aparılmışdır. Bölgülərdən biri qruplaşma əsasındadır: 1) ünsiyyət funksiyası(danışıq dili); 2) məlumat çatdırmaq funksiyası (elmi və elmi – işgüzar); 3) təsirlilik funksiyası (publisistik və ədəbi- bədii). Ümumi yanaşmadan fərqli olaraq, funksional üslubların konkret bölgüsü (elmi, bədii, publisistik, rəsmi- işgüzar və məişət) bu gün şagirdlərin bələd olduğu əsas növlərdir. Formal təsnifat (şifahi və yazılı) da var və bu da ümumi xarakter daşıyır. Dilçi alimlər funksional üslubların növünü onların başlıca əlaməti ilə müəyyən edirlər, çünki üslublar qapalı sistem deyil və bir- biri ilə aktiv şəkildə qarşılıqlı əlaqədədir. Ona görə də əsas vəzifəni yerinə yetirmək üçün digər üslubların elementlərindən-leksik və qrammatik vasitələrindən istifadə edilməsi heç də üslubun funksional xarakterinə xələl gətirməməlidir. "Mətnin leksikasında özünü aşkar göstərən ekspressiv rəng funksional üslubların təsnifatı üçün məntiqi əsas ola bilməz" (D.E. Rozental. Praktik stilistika, Moskva, 2000, səh. 15). Bununla belə, üslubları bir- birindən ayırarkən bir sıra stilistik rənglər nəzərə alınmalıdır, çünki bunlar yalnız sistem şəkildə qiymətləndirildikdə funksional üslubun növünü düzgün müəyyən etmək olur. Onu da qeyd etmək vacibdir ki, başlıca əlamət məlumat verməyə əlavə kimi başa düşülməlidir, çünki hər bir cümləni formalaşdıran parametrlərdən birincisi predikativlikdir. Bu da o deməkdir ki, məlumatların hamısı cümlələr vasitəsilə çatdırılır.

Bədii üslub məlumatı obrazlar vasitəsilə verir, publisistik üslub məlumat vermək və publikaya təsir etmək məqsədi güdür. Elmi və rəsmi-işgüzar üslub isə sırf məlumat xarakterlidir, lakin funksiyalarda müxtəliflik var, yəni birində elmi məlumatlar, digərində isə rəsmi və ya işgüzar məlumatlar verilir. Məsələyə ikinci konseptual yanaşma ondan ibarətdir ki, funksional üslublar arasında qarşılıqlı əlaqə çox güclüdür və bunun nəticəsidir ki, üslubaltı növlər meydana çıxır.

Əsas məqsədimiz elmi üslubla publisistik üslub arasındakı sərhədləri müəyyən etmək olduğu üçün adı çəkilən iki üslub üzərində dayanacağıq. Beləliklə, elmi üslubun başlıca xüsusiyyətləri:

1. Elmi məlumatlar verilməsi.

Göründüyü kimi, yuxarıdakı mətndə dəmirağac haqqında sırf elmi məlumat verilmişdir.

2. Məntiqi ardıcıllığın ciddi şəkildə gözlənilməsi.

Mətndə məntiqi ardıcıllığa ciddi riayət olunduğunu müşahidə etmək çətin deyi: əvvəlcə dəmirağacın əlamətləri, sonra ölçüləri, neçə il yaşaması, coğrafi məkanı və s. qeyd edilir. Düzdür, istənilən mətndə məntiqi ardıcıllıq gözlənilir, lakin elmi üslubda olan mətnlərdə bu ardıcıllığa daha ciddi şəkildə riayət edilir. Tez- tez açar sözlərin təkrarı və onları əvəz edən işarə əvəzliklərinin işlənməsi, bir sıra zərf və modal sözlərdən (əvvəlcə, sonra, nəhayət, beləliklə) istifadə də bu məqsədə xidmət edir. Bütün bunlar mətndə müşahidə edilir.

3. Dəqiqlik.

Mətndə sözlər diqqətlə seçilib, artıq ifadələr işlənməyib. Eyni zamanda, hər bir söz öz yerində və həqiqi mənada işlənmişdir, yəni təkmənalılıq var.

4. Mücərrədlik və ümumilik, mətn terminlərlə zəngin olur. Burada söhbət bir ağac haqqındadır, ona görə də termin zənginliyinə rast gəlmək olmur. Bununla belə termin var, yəni dəmirağac botanika elmində termindir.





Scanned with ACE Scanner

5. Elmi üslubda istifadə olunan ifadə vasitələri məlum mətndə özünə yer alıb: 1) 3-cü şəxs əvəzliyi; 2) indiki zaman felləri; 3) ismi xəbərlərdən geniş istifadə olunması.

6. Obyektivlik.

Mətndə istifadə edilmiş bütün cümlələr elmi tədqiqatların məhsuludur və burada hər hansı hökm mübahisə doğurmur.

Yuxarıda sadalanan bütün əlamətlər dəmirağac haqqında yazılmış mətnə xasdır. Bəs hansı səbəbdən test müəllifləri bu mətnin publisistik üslubda olduğunu iddia edirlər? Yanlışlığa səbəb elmi üslubun üslubaltı növlərinin düzgün dərk edilməməsidir. Elmi üslub bir neçə üslubaltı növlərə bölünür: xüsusi elmi, elmi kütləvi və elmi-tədrisi. Birinci qrupa dissertasiyalar, monoqrafiyalar, jurnallardakı elmi məqalələr və lüğətlər aiddir. Elmi- kütləvi jurnallarda və qəzetlərdə olan elmi məqalələr, radio, televiziyadakı elmi mövzuda kütləvi çıxışlar, elmi mütəxəssislərin cəmiyyət qarşısında kütləvi çıxışları isə elmi- kütləvi üslubu özündə ehtiva edən qollardır. Nəhayət, 3-cü qrupa isə müxtəlif təhsil pillələrini əhatə edən dərsliklər, dərs vəsaitləri daxildir. Təəssüf ki, elmi üslubun funksiyasını özündə ehtiva edən bu bölgü əvəzinə, dərslik müəllifləri elmi üslubu ayrı- ayrı elm sahələri üzrə növlərə ayırmışlar. Yanlışlıq təkcə elmi üslubun üslubaltı növlərini məktəblilərə təqdim etməməklə bitmir. Bəzən müəlliflər hətta elmi-kütləvi dillə elmi- publisistik dili eyniləşdirirlər: "Elmi-publisistik dil dedikdə müxtəlif elm sahələrinə ( buna elmi- kütləvi dil də deyilir), siyasətə, dinə və s.aid publisistik məqalələrin, kitabların dili nəzərdə tutulur (TQDK. Azərbaycan dili, Bakı, 2010, səh.532).

Əslində, publisistik üslub elmi üslubdan çox bədii üsluba yaxındır, çünki fərqli funksional istiqamətləri hədəf götürsə də, hər ikisi obrazlı təfəkkürün ifadəsidir . Elmi üslub isə analitik təfəkkürün inikasıdır. Ona görə də elmi üslubla publisistik üslubu dəyişik salmaq təəccüb doğurur. Müqayisələri həmin sahənin peşəkarları üzərində də aparmaq olar. Obrazlı təfəkkür istedad tələb edir- o ya var, ya yox, yəni insanı obrazlı düşünməyə öyrətmək olmaz. Məhz bu səbəbdən jurnalistika nasir və şairlik öyrətmir, pubilisistə isə yalnız bu sahənin texniki məsələlərini aşılayır. Beləliklə, test müəlliflərinin məsələnin mahiyyətinə yanlış yanaşmasında məhz elmi üslubun 2- ci üslubaltı növünü düzgün qiymətləndirməmələri durur. Elmi-kütləvi üslubaltı növ yanlış tərcümə edilərək elmi-publisistk dil kimi təqdim edilmiş və publisistik üslubun üslubaltı növünə aid edilmişdir (T. Hacıyev və başqaları. Azərbaycan dili, 11-ci siniflər üçün dərslik, 2012, səh.101). Tərcümə zamanı "publika" sözü ilə "publisistik" sözləri qarışdırılmışdır, halbuki, bunlar eyniköklü söz olsalar da, tamamilə fərqli anlayışlardır. TQDK-nın "Azərbaycan dili" adlı dərs vəsaitində də məsələnin mahiyyəti yanlış izah edilmiş, verilmiş cədvəldə üslubların başlıca əlamətləri düzgün qeyd edilməmişdir (2010, səh.520). Belə ki, publisistik üslubun başlıca əlaməti təsir etmək, öz tərəfinə çəkmək olduğu halda, kütləvilik önə çəkilmişdir. Kütləvilik publisistik üsluba xas əlamət olsa da, təyinedici deyil. Əgər kütləvilik bu üslub üçün əsas təyinedici əlamət olsa idi, onda məişət



üslubunda olanların hamısını publisistik üsluba aid etmək gərək olardı. İndi isə elmi- kütləvi üsluba xas olan əlamətləri nəzərdən keçirək. Elmi-publisistik janr hər şeydən əvvəl geniş oxucu kütləsinə hesablanıb, ona görə də daha sadə dildə (məhz test müəllifləri bu cəhəti nəzərə alıb mətnin üslubunu təyin edblər) yazılır, ağır, mürəkkəb terminlərdən istifadə edilmir. Bəzən terminlər buraxılır, bəzən də təsviri şəkildə aydınlaşdırılır.Belə mətnlərdə simvol, düstur, mürəkkəb sxemlərdən istifadə olunmur. Bunula belə ümumi elmi leksikadan istifadə edilir. Elmi- kütləvi növdə olan mətnlərdə elmi məzmun nisbətən zəifləyir, informasiyanın dəqiqliyi və dərinliyi azalır, müəllif bənzətmələrdən istifadə edir. Dəmirağac haqqında verilmiş yuxarıdakı mətndə publisistik üsluba aid olan başlıca keyfiyyətlərin heç biri yoxdur. Burada nə günün vacib, təxirəsalınmaz aktual problemi, nə kütləyə təsir edərək onu öz tərəfinə çəkmək, nə intriqa tərəflərinin mövcudluğu, nə də emosionallıq və ekpressivlik vardır. Müəlliflərin istinad etdiyi əlamətlər isə məhz elmi üslubun üslubaltı növünə xasdır.

Ədəbi üslublar arasında sərhədlər qapalı olmadığından bəzən mətnin bu və ya digər üsluba aid edilməsi ilə bağlı dilçilər arasında da mübahisələr olur. Qəbul imtahanında istifadə edilmiş nümunələr belə mübahisələr üçün əsas olmasa da, başqa oxşar nümunələrə istinad etməklə bu cür polemikalara son qoymaq olar. Məsələn, uzun zaman tele-radio verilişlərinin "Xəbərlər" proqramı mütəxəssislərin mübahisə obyekti olmuşdur. Buna baxmayaraq, mövzunun təbliğat xarakterini nəzərə alıb, onu publisistik üsluba aid edirlər. Dilçilik ədəbiyyatlarında publisistik üslubun janrları konkret göstərilmişdir. Düzdür, bu janrlar tarixi səciyyə daşıyır, yəni zaman keçdikcə birinin rolu artır, digərinin isə tamamilə zəifləyir və hətta yeni növlər meydana gəlir. Bunlar üç tipdədir: 1) informasiya xarakterli (qeydlər, reportaj, müsahibə, hesabat); 2) analitik xarakterli (söhbət, məqalə, yeni əsərlərin qısa təhlili və qiymətləndirilməsi, xülasə, nəzər nöqtəsi); bədii xarakterli (esse, oçerk, felyeton, pamflet). Yuxarıda verilmiş mətni bu janrların heç birinə aid etmək olmaz. Əgər mətnə publisistik don geydirmək istəsək, bu, mümkündür:

Ölkəmizin cənubunda Dəmirağac deyilən bir bitki var. O, nəhəng, qollu-budaqlı bir ağacdır. Uzunömürlüdür- 200 il yaşayır. Son zamanlar dəmirağac bitmiş meşələrin ətrafında yaşayan insanlar həmin ağaclardan yanacaq kimi istifadə edirlər. Bu isə nadir bitkinin kütləvi qırılmasına gətirib çıxarır. Dəmirağaclar yox olduqca oradakı bulaqların sayı da azalır. Belə getsə, tezliklə bölgədə ekoloji fəlakət qaçılmaz olacaqdır.

Beləliklə, mətnin üslubunu yalnız və yalnız müəllifin məqsədi əsasında müəyyən etmək olar, çünki bu əlamət təyinedicidir.



Scanned with ACE Scanner

# YERİ GÖRÜNƏN BƏŞİR MÜƏLLİM

**Oqtay ABBASOV,**
**Azərbaycan Dillər Universitetinin dosenti**

Professor Bəşir Əhmədov ilk növbədə yaxşı müəllim idi. Bu cümləni yazanda dərs dediyim gənclərdən birinin tələbə elmi cəmiyyətində çıxış etmək üçün götürdüyü mövzu yadıma düşdü. Mövzu belə idi: "Ənənəvi təlimdə "müasir" adlanan metodlardan istifadə edilirdimi?". Tədqiqat sahəsində təcrübəsi az olsa da, tələbə yazısında maraqlı fikirlər irəli sürür, orta məktəbdə ona dərs demiş müəllimlərindən misallar gətirirdi. Daha maraqlısı o idi ki, həmin tələbə müəllim işləyən anasının fikirlərindən də istifadə edirdi. Yazırdı ki, anam indi müasir adlanan təlim metodlarından çox-çox əvvəllər istifadə etmiş institut müəllimləri sırasında Bəşir Əhmədovun adını tez-tez çəkir. Tələbənin yazısından B. Əhmədovun adını oxuyanda məni sözlə ifadəsi çətin olan hisslər ağuşuna aldı: Axı, Bəşir Əhmədov mənim – bu sətirlərin müəllifinin də müəllimi olub. Amma Bəşir müəllimi mənə dərs deyənə qədər artıq tanıyırdım. Müəllim işləyən atamın həmişə abunə olub müntəzəm oxuduğu "Azərbaycan məktəbi" jurnalında dərc edilmiş bir yazı vasitəsilə Bəşir Əhmədov haqqında məlumat əldə etmişdim. Onda mən 6, ya da 7-ci sinifdə, oxuyurdum. Həmin yazıdan bilmişdim ki, B.Əhmədov o dövrdə ən gənc yaşlarında elmlər doktoru adı qazanmış tək-tək alimlərdən biridir, istedadlıdır, orijinal fikirləri ilə elmi ictimaiyyətin diqqətini çəkir.

Və bəlkə də bizim hələlik dərk edə bilmədiyimiz bir qüvvə (teoloqlar buna idrakdankənar dərketmə deyirlər) mənə Bəşir müəllimin tələbəsi olmaq qisməti verdi. Təəccüblüsü isə bu idi ki, ali təhsil aldığım illərdən uzun müddət keçəndən sonra mənim tələbəm professor Bəşir müəllimin adını çəkir, vaxtilə onun tələbəsi olmuş anasının fikirlərinə əsaslanaraq bu gözəl insanı yaxşı bir pedaqoq kimi təqdim edir, indi müasir adlanan təlim metodlarınadn 30-40 il əvvəl necə məharətlə istifadə etdiyini yazırdı.

Təsadüfdür, nədir, bilmirəm. Amma bütün bunlar məni bir daha həmişə kövrək hisslərlə xatırladığım tələbəlik illərinə qaytardı: Bəşir Əhmədov bizə "Müasir Azərbaycan dili" fənnini tədris edirdi. Düzünü yazım ki, əvvəllər Bəşir müəllimin dediyi dərslərin mahiyyətini başa düşməkdə çətinlik çəkirdik; auditoriyada, adətən, hökm sürən sükutun (müəllimin və ya bir tələbənin danışığı istisna olunmaqla), buzu ərimiş, müzakirələr (indi buna "debat" da deyirlər) başlamış, tələbələrə istənilən məsələ ilə bağlı fikirlərini sərbəst söyləməyə imkan yaradılmışdı. Xüsusilə bir neçə tələbənin eyni vaxtda danışmaları və ya buna can atmaları bizi təəccübləndirirdi. Buna müəllimin sakit münasibəti daha inanılmaz idi. Axı, belə şeylər o dövr üçün demək olar ki, qəbuledilməzdi. Amma qısa bir müddətdə çox şey qaydasına düşdü. Açıq-aydın görürdük ki, az əvvəl danışmağa çətinlik çəkən tələbələr öz fikirlərini sərbəst şəkildə söyləyir, müzakirələrdə fəal iştirak edirlər. İndi buna "interaktiv" təlim deyilir. Bəli, Bəşir müəlim elə o vaxtlarda tələbə fəallığını təmin etməyi



bacarırdı. Bir neçə məşğələdən sonra Bəşir müəllimin daha bir xüsusiyyətini müəyyənləşdirdik. Bizə qəribə görünsə də, B.Əhmədov dərslikdəki mətnləri və ya özünün (B. Əhmədovun) dediklərini qeyd-şərtsiz qəbul edənlərə, söylədiklərini əsaslandırmayanlara irad tutur, onlardan danışdıqlarına aid əlavə misallar gətirməyi, fikirlərini əsaslandırmağı tələb edirdi.

Sonralar, özüm ali məktəbdə müəllim olanda bildim ki, sən demə, Bəşir müəllim indi müasir adlanan metodlardan istifadə edirmiş. İnteraktivlik – auditoriyadaxili (sinifdaxili) qarşılıqı fəallıq Bəşir müəllimin dərsinin əsas əlamətlərindən idi. Danışmaq və dinləmək ab-havasına müzakirə etmək əlavə olunmaqla dərsə can, işıq gəlmişdi. Getdikcə daha çox əmin olmurduq ki, dinləməklə, dərslikdəki müvafiq materialı olduğu kimi danışmaqla Bəşir müəllimi razı salmaq mümkün deyil. Ondan yüksək qiymət almaq üçün dəyişilməz meyarlar vardı: dediklərini əsaslandırmağı bacarmaq, yoldaşlarının fikirlərinə münasibət bildirmək, eşitdiklərini, oxuduqlarını təhlil süzgəcindən keçirmək! Bunları yada salıb öz-özümə sual verirəm: yazılanlar təhsildə müasirliyini daimi saxlayan tələblər deyil, bəs nədir? Yuxarı kurs tələbələri deyirdilər ki, Bəşir Əhmədov imtahanlarda da bunları nəzərə alır. İmtahanlar da indiki kimi deyildi. Hansının yaxşı və ya pis olduğunu söyləmək istəməzdim. Amma o vaxtkı imtahanların da öyrədici, tərbiyəedici, inkişafetdirici olduğunu deməyə bilmərəm. İmtahanımız bizim gözlədiyimizdən daha uğurla başa çatdı. Sanki imtahana yox, müəllimlə fərdi söhbətə yığışmışdıq. Əvvəlcə biletdə olmayan suallarla tələbələri sınağa çəkir, sonra isə indi də suallarına keç, deyirdi. Tələbələrin əksəriyyəti imtahanı yüksək qiymətlərlə başa vurdu. Bu müvəffəqiyyətdə Bəşir müəllimin təlimin təşkili ilə bağlı istifadə etdiyi metodların və şübhəsiz ki, özünün şəxsi keyfiyyətlərinin rolu olmuşdu.

...İnsan ömrü ucu-bucağı görünməyən bir ümman, sona qədər öyrənilməsi mümkün olmayan bir sirdir. Elə buna görə də professor Bəşir Əhmədovun ömür-gün yolunu müəllimliyindən sonra verməyə başlamağımı təsadüfi saymaq olmaz. O, müəllimliyini ömrünə bərabər tuturdu.

Bəşir müəllimin həyatını bir daha ətraflı öyrənməkdə mənə onun oğlu, gözəl alim və nəcib insan, dostum İlham Əhmədov kömək etdi. Beləliklə: Bəşir Abbas oğlu Əhmədov 1932-ci ildə Tovuz rayonunun Alakol kəndində anadan olub. Yeddinci sinfi Alakolda, orta məktəbi Gədəbəy rayonunun Qoşabulaq kəndində bitirib. 1950-ci ildə daxil olduğu Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti ) filologiya fakültəsini 1955-ci idə başa vurub. 1955-1956-cı illərdə Əli Bayramlı (indi Şirvan) və Mərəzə rayonlarında Azərbaycan dili və ədəbiyyat müəllimi işləyib.

Bəşir Əhmədov 1957-ci ildə Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunun (indi Azərbaycan Respublikasl Təhsil Problemləri İnstitutu) aspiranturasına qəbul olunmuşdur. 1961-ci ildə akademik Ə. Dəmirçizadənin rəhbərliyi ilə "V sinifdə Azərbaycan dili fonetkasının tədrisi" mövzusunda namizədlik, 1967-ci ildə "Məzmunla formanın vəhdəti nitq inkişafı metodikasının əsası kimi" mözusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1960-1966-cı illərdə Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda əvvəlcə elmi işçi, sonra elmi katib vəzifələrində çalışmışdır. 1966-1971-ci illərdə M.F. Axundaov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda Azərbaycan dili və onun tədrisi



Scanned with ACE Scanner

metodikası kafedrasına rəhbərlik etmişdir. 1971-1976-cı illərdə V. İ. Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indi Azərbaycan Dövlət Pedaqoji Universiteti) pedaqogika kafedrasında professor, daha sonra kafedra müdiri vəzifələrində çalışmışdır. 1976-1984-cü illərdə Azərbaycan Xarici Dillər İnstitutunda pedaqogika kafedrasının professoru vəzifəsində işləmişdir. 1984-cü ildən ömrünün sonunadək Bakı Slavyan Universitetində Azərbaycan dili və ədəbiyyatı kafedrasına rəhbərlik etmişdir.

Olum və ölüm. İlk baxışda rəqəmlər çərvəsinə sığınan aləm. Amma, doğrudan da, məhz ilk baxışda. M.Füzuli "Mətlə -əl-etiqat" fəlsəfi əsərində göstərir ki, insan həyatı doğum və ölüm əzabı arasındakı bir məsafəni yaşayır. Necə yaşayır? Bu, artıq insanın özündən, onun əməllərindən asılıdır. Bu meyarla yanaşanda professor B.Əhmədovun mənalı bir həyat sürdüyü aydın görünür. Bəşir müəllimin dərs dediyi tələbələr hələ uzun illər bundan sonra da onun öyrətdiklərinin işığında yol gedəcək və ürəklərinin istisindən sonrakı nəsillərə pay verəcəklər. Bəlkə, heç düşünməyəcəklər ki, bu istinin əbədi olmasında həm də B. Əhmədovun payı var.

Bunlar hamısıdırmı? Yox! Axı, Bəşir Əhmədov eyni zamanda böyük alim olub. Yuxarıda qeyd etdiyimiz kimi, alimlik yoluna qədəm qoyandan orijinal fikirlər ilə elmsevərlərin diqqətini cəlb edib. Qısa zaman kəsiyində əsərləri keçmiş SSRİ-nin bir sıra respublikalarında, o cümlədən, Moskva şəhərində dərc olunmuş, müxtəlif konfranslarda etdiyi çıxışlar maraqla qarşılanmışdır.

Professor B.Əhmədov müəllimlik və alimlik fəaliyyyətini ictimai fəaliyyətlə ciddi şəkildə əlaqələndirən şəxsiyyət idi. O, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert şurasının, pedaqoji elmlər üzrə ixtisaslaşmış müdafiə şurasının, AMEA-da Terminologiya Komitəsinin, BSU-da universitet və fakültə elmi şuralarının, Azərbaycan Pedaqoji-Psixoloji Əlaqələndirmə Komissiyası Rəyasət Heyətinin üzvü, SSRİ dövründə Moskvada pedaqogikanın metodoloji problemləri üzrə ümumittifaq elmi şuranın üzvü, hazırda tətbiq olunan "Təhsil haqqında Qanun"un layihəsini hazırlayan işçi qrupun üzvü olmuşdur.

Əlbəttə, professor B.Əhmədov kimi zəngin elmi irsə malik alimin fəaliyyətini bir məqalədə şərh etmək, ona qiymət vermək mümkün deyil. Oxuduğunuz yazının müəllifi də qarşısına belə bir məqsəd qoymayıb. Sadəcə, müəlliminə sevgisinin az hissəsini də olsa çatdırmaq istəyib. Amma inanırıq ki, bu irs araşdırılacaq, oradakı ideyalar pedaqoji elmimizin inkişafı naminə təhlil olunacaq. Professor B. Əhmədovun tədris proqramı və dərslik yaratmaq sahəsindəki xidmətləri xüsusi qeyd olunmalıdır. Onun qələmindən çıxmış tədris proqramları, dərsliklər indi də elmi dəyərini saxlayır, "dərslik necə olmalıdır" sualına cavab tapmaqda bu sahədə araşdırmalar aparan tədqiqatçılara kömək göstərir. Elmi və elmi-pedaqoji kadrların hazırlanmasında da professor B.Əhmədovun əvəzsiz xidmətləri olmuşdur. Müasir dövrdə dilimizin tədrisi metodikası sahəsində elə bir mütəxəssis tapmaq mümkün deyil ki, Bəşir müəllim onun ya elmi rəhbəri, ya elmi məsləhətçisi, ya da opponenti olmasın. Bu böyük alimin yaradıcılığından bəhrələnənləri də bura əlavə etsək, onun nə qədər faydalı bir irs qoyub getdiyi barədə aydın təsəvvür yaranar. Allah rəhmət eləsin, ruhu şad olsun.





# ƏDƏBİ ALƏMDƏ

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında xalq şairi Məmməd Arazın 80 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ədəbi ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

***

Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın 75 illik yubileyi qeyd edilmişdir. Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində yazıçının ədəbi, elmi və tənqidi fəaliyyətini əks etdirən kitab sərgisi ilə tanış olmuşlar. Tədbir xalq yazıçısı Anarın həyat və yaradıcılığından bəhs edən videofilmin nümayişi ilə başlanmışdır. Daha sonra yubilyarın əsərləri əsasında hazırlanmış tamaşalardan səhnəciklər nümayiş etdirilmişdir.

***

Azərbaycan Respublikası Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun təşəbbüsü və "Kaspi" qəzeti-Kaspi Təhsil Mərkəzinin layihəsi əsasında İstanbulda nəşr olunmuş "Hüseyn Cavid. Əsərləri" (ilk Türkiyə nəşri, 2013) kitabının təqdimatı olmuşdur. Tədbir AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun, "Kaspi" qəzeti-Kaspi Təhsil Mərkəzinin və Hüseyn Cavidin ev muzeyinin təşkilatçılığı ilə keçirilmişdir.

***

AMEA-nın kiçik akt salonunda Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Teymur Kərimlinin 60 illik yubileyi keçirilmişdir. Yubiley tədbirini giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Teymur Kərimlinin həyat və fəaliyyətinə bir nəzər salmaqla onun ədəbiyyatşünaslığımızdakı yerinə, mövqeyinə xüsusi dəyər verdi. Yubilyarın klassik ədəbiyyatımızın tədqiqindəki zəhmətini yüksək qiymətləndirən İ.Həbibbəyli onun şair kimi şeirlərindən, publisist kimi məqalələrindən bəhs etdi. Sonra məruzə və çıxışlar oldu, təbriklər yetirildi.

***

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanın görkəmli şair və dramaturqu, əməkdar incəsənət xadimi İslam Səfərlinin anadan olmasının 90 illiyinə həsr edilmiş xatirə gecəsi keçirilmişdir. Tədbir Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilmişdir. Tədbirdən sonra konsert olmuşdur. Konsertdə İslam Səfərlinin sözlərinə yazılmış mahnılar səsləndirilmişdir. Yubiley gecəsində mədəniyyət və elm sahəsinin, paytaxt ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

***



Scanned with ACE Scanner

ABŞ-da elm adamları unutqanlığın yaranmasına maneə törədəcək bir zülal tapıblar. Elm dünyasının yaxından izlədiyi "Science Translational Medicine" jurnalında nəşr olunan elmi məqaləyə görə, RbAp48 adlı zülal sayəsində yaddaş itkisinin qarşısını almaq olar. Kolumbiya Universitetində işləyən bir qrup mütəxəssis tərəfindən yaşları 33-86 arasında olan 8 adam üzərində aparılan araşdırma unutqanlığın Alzheimer xəstəliyindən fərqli olduğunu göstərib. Yəni gənc yaşda görünən unutqanlığın Alzheimer xəstəliyi ilə əlaqəsi olmaya bilər. Fiziki məşqlərin isə yenə unutqanlığı azaltdığı bildirilir. Siçanlar üzərində edilən eyni araşdırmada isə RbAp48 zülalın əskik olduği təcrübə iştirakçılarının obyektləri tanıma və istiqamətləri tapmada çətinlik çəkdikləri müşahidə edilib. Ancaq RbAp48 zülalın səviyyəsinin artırılması ilə yaşlı siçanların gənc siçanlar kimi normal bir şəkildə hərəkət etdiyi görünüb.

***

İngilis mütəxəssislərinin analizinə görə, kişilər qadınlardan 11 il sonra yetkinləşirlər. Kişilərin ideal yetkinlik çağına qadınlardan tam 11 il sonra, 43 yaşında çatdıqları təyin olunub. İngiltərədə aparılan araşdırmaya görə, qadınlar 32 yaşlarında romantik və zehni istiqamətdə inkişaflarını tamamlayıb yetkinləşərkən, kişilər uşaqlara xas davranışlar sərgiləməyə davam edirlər. Araşdırma qrupunun başçısı Tim Patterson, xüsusilə ikili əlaqələrdə bu yetkinlik fərqinin bütün çılğınlığı ilə ortaya çıxdığını qeyd edib.

***

NASA Marsın boz planet olduğunu müəyyən etdi. NASA alimləri bildirirlər ki, Marsda gəzən Curiosity-nin apardığı daş süxurların analizinin nəticələrinə görə, qədim zamanlarda Marsda həyat üçün şərait ola bilərdi: bir neçə santimetr dərinlikdə qazıntı yolu ilə alınmış nümunələr bütün lazımlı elementləri (kükürd, azot, hidrogen, fosfor və karbon) özündə birləşdirir. Tədqiqatçılar qeyd edirlər ki, başqa planetdə qazıntı işləri ilk dəfə olaraq keçirilib. İndiyə qədər yalnız torpağın səthindən götürülmüş qrunt təbəqə təhlil edilirdi. Curiosity çay sistemini bitirən və göl hövzəsi hesab edilən Yellounayf körfəzi adını almış ərazidə qazıntı işləri aparıb. Nümunələr bir-birini əvəz edən çox sayda quru və rütubətli dövrün mövcud olduğuna işarədir. "Computerworld" jurnalının bildirdiyinə görə, alimlər təsdiq edirlər ki, qazıntı işləri nəticəsində planetin qırmızı yox, boz rəngdə olmağı da üzə çıxıb. Torpağın bir neçə santimetr alt qatında oksidləşmənin işartılarına və müvafiq olaraq Marsla assosiasiya edilən qırmızı rəngə rast gəlinmir.

***

Türkiyəli professorların yaşlı adamlar üzərində apardıqları araşdırmaların nəticələri hər kəsi təəccübləndirib. Professor Gültən Kaptanın sözlərinə görə, insanlar hər zaman stressdən uzaq dura bilmirlər. Lakin gənclər stressli həyat tərzindən uzaq qalmağı və bununla mübarizə aparmağı bacarırlar. Yaşlılara isə stress tez təsir edir. Tez-tez əsəbləşən yaşlı adamların ürəkləri zəifləyir və nəticədə infarkt riskləri artır. Məhz bu səbəbdən də mütəxəssislər yaşlı adamlara stressdən uzaq durmağı və əsəbləşməməyi məsləhət görürlər.

***





**Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Bakı, "Xalq Bank", 2013.** XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin "Seçilmiş əsərləri" "Xalq əmanəti" layihəsinin növbəti nəşridir. Kitaba ölməz şairin müxtəlif illərdə yazdığı şeirləri, poemaları və tərcümələri daxil edilmişdir. Şeirlər "Ana, vətən, həyat" (1926-1936), "İnsan, təbiət tərəqqi" (1927-1936), "Gözəllik, sevgi" (1925-1936), "İthaflar" (1928-1936), "Uşaqlar üçün şeirlər, poemalar, mənzum nağıllar" (1929-1935) və "Tərcümələr" (Firdovsi, Ö.Xəyyam, A.S.Puşkin, M.Y.Lermontov və b. – 1930-1937) bölmələrində təqdim olunur. Layihənin rəhbəri Rafiq Həşimov, redaktoru və tərtibçisi Səlim Babullaoğludur. AMEA-nın müxbir üzvü, professor Rafael Hüseynov kitaba "Bağ romanı" adlı geniş və əhatəli "Ön söz əvəzi" yazmışdır.

***

**Günal Səfərli. Həmid Araslı və klassik ədəbi irs. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012.** Ədəbiyyatşünas Günal Səfərlinin bu monoqrafiyası görkəmli elm xadimi, akademik Həmid Araslının həyatı və yaradıcılıq yoluna həsr olunmuşdur. Monoqrafiya bu fəsilləri əhatə edir: "Həmid Araslı görkəmli ədəbiyyat tarixçisi kimi", "Həmid Araslı: Nizami və Füzuli", "Həmid Araslının folklor və ədəbi əlaqələr sahəsində elmi araşdırmaları". Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Xəlil Yusiflidir.

***

**Buludxan Xəlilov. Dil-söz çələngi. Bakı, "Bakı çap evi" nəşriyyatı, 2013.** filologiya elmləri doktoru, professor Buludxan Xəlilov bu yeni kitabına görkəmli şəxsiyyətlərin, şairlərin, yazıçıların, filosofların bir qismindən, türk dillərinin müştərək yazılı abidələrindən – Əhməd Yüknəkidən, Yusif Balasaqunludan, Cəlaləddin Rumidən, Əbu Turxanxandan, "Oğuznamə"dən dillə bağlı seçmələr daxil etmişdir. X-XI əsr Qədim Şərq ədəbiyyatının ilk nümunələrindən olan "Qobusnamə"dən, XI əsrin məşhur tarixi-ədəbi abidəsi "Siyasətnamə"dən bəzi örnəklər vermişdir. Topluda, həmçinin, türk dilləri – Azərbaycan, türk, türkmən, qaqauz və s. dillərlə bağlı seçmələr toplanmışdır.

***

**Mirvarid Dilbazi – 100. Bakı, "MBM", 2012.** Kitab Azərbaycan Yazıçılar Birliyinin "İrs" komissiyasının "Yüzilliiklər" silsiləsindən altıncı toplusudur. Ona xalq şairi Mirvarid Dilbazi haqqında müxtəlif illərdə qələmə alınmış məqalə, xatirə və resenziyalar daxil edilmişdir (Əli Nazim, Bəkir Nəbiyev, Ağamusa Axundov, Əzizə Əhmədova, Məmməd Araz, Qasım Qasımzadə, Xalid Əlimirzəyev, Əli Qasımov və b.). Toplunun tərtibçisi və ön sözün müəllifi Sona Xəyaldır.

***

**Nurəddin Ədiloğlu Kiçik Paris Bakı, "Vektor" nəşrlər evi, 2012.** "Kiçik Paris" kitabında yazıçı-publisist N.Ədiloğlunun müxtəlif illərdə qələmə aldığı povesti və hekayələri ("Kiçik Paris", "Qəriblikdə doğmalıq", "Sarı yarpaqlar", "Lal adəm", "Mavi prezident", "Sel", "Otuz yeddinci ilin adamı", "Vüsalla hicran arasında" və s.) daxil edilmişdir. Bu yazıların əsas mövzusu mənəvi saflığa çağırışdır. Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə kitaba "Tale çəpərləri" adlı ön söz yazmışdır.

***



Scanned with ACE Scanner

**BAŞ REDAKTOR:**
Məhəmməd BAHARLI

**MƏSUL KATİB:**
Vaqif ALKƏRƏMOV

**ŞÖBƏ REDAKTORLARI:**
Oqtay ABBASOV
Soltan HÜSEYNOĞLU

**REDAKSİYA HEYƏTİ:**
ANAR
Ağamusa AXUNDOV
Ənvər ABBASOV
Nizami CƏFƏROV
Nurlana ƏLİYEVA
Qənirə ƏMİRCANOVA
Tofiq HACIYEV
İsa HƏBİBBƏYLİ
Nizami XUDİYEV
Qəzənfər KAZIMOV
Əsgər QULİYEV
Şəmistan MİKAYILOV
Yusif SEYİDOV

**Ünvan: Bakı-10, Dilarə Əliyeva küçəsi, 227, 6-cı mərtəbə, otaq 608.**
**Telefonlar: 498-55-33; 493-06-09. Faks: 498-55-33.**
**E-mail: mehemmed-baharli@mail.ru**
**Kağız formatı 60x84 1/8. Uçot nəşr vərəqi 5.**
**Şərti çap vərəqi 6,3. Tiraj 700.**
**Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi 191.**
**Lisenziya V 236.**
**Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.**
**Jurnal ildə 4 dəfə çıxır. O, redaksiyanın kompüterində yığılır, «Avropa» nəşriyyatında çapa hazırlanır və işıq üzü görür.**
**Çapa imzalanıb: 18.12.2013.**
**Jurnala abunə mətbuat yayımı şöbələrində aparılır.**
**Bir nüsxənin abunə və satış qiyməti 2 manatdır.**

Scanned with ACE Scanner

İNDEKS 1012




*Yeni iliniz mübarək*

Scanned with ACE Scanner